Xalqın qəzeti!

# Xalq qəzeti

№ 80 (30774) 23 aprel 2025-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## Xarici siyasətin prioritetləri

Səhifə ⇨ 7

# Yüksək səviyyəli səfərlər Azərbaycan–Çin münasibətlərinə geniş meydan açır

## Azərbaycan Prezidenti İlham Əliyev Çin Xalq Respublikasına dövlət səfərinə gəlib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 22-də Çin Xalq Respublikasına dövlət səfərinə gəlib.**

Pekin Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Çin Xalq Respublikasının nəqliyyat naziri Liu Vey və digər rəsmi şəxslər qarşıladılar.

*AZƏRTAC*

## Asiya nəhəngi ilə strateji tərəfdaşlıqdan qlobal əməkdaşlığa



**Dünyanın qlobal güc mərkəzləri üçün Azərbaycanla siyasi və iqtisadi əlaqələrin inkişaf etdirilməsi, əməkdaşlığın daha da genişləndirilməsi xüsusi əhəmiyyət daşıyır. Rəsmi Pekinin həm Şərq–Qərb, həm də Şimal–Cənub nəqliyyat marşrutlarının qovuşağında yerləşən Azərbaycanla əməkdaşlığa böyük diqqət ayırması da təsadüfi deyil. Bu əməkdaşlıq, sadəcə, iki ölkə arasındakı əlaqələri şaxələndirməklə məhdudlaşmayıb, eyni zamanda, regional və qlobal geosiyasi inteqrasiyanı gücləndirmək üçün mühüm amilə çevrilib.**

Prezident İlham Əliyev Çinə dövlət səfərindən bir gün öncə Sinxua informasiya agentliyinə verdiyi müsahibədə ölkələrimiz arasında münasibətlərin yüksək səviyyəsi, beynəlxalq müstəvidə eyni mövqedən çıxış etməsi ilə bağlı məsələyə toxunub: “Astanada cənab Si Cinpinlə görüşümüzdə bizim tərəfimizdən BMT-nin himayəsi altında beynəlxalq sistemin birgə dəstəklənməsi, onun beynəlxalq məsələlərdə rolu, həqiqi çoxtərəflilik mövqeyi, həmçinin BMT Nizamnaməsi əsasında beynəlxalq hüquq, məqsəd və prinsiplərə əsaslanan dünya nizamına birgə töhfələr vermək əzmi ifadə olundu”.

*(ardı 3-cü səhifədə)*



## Avropa İttifaqında siyasi aşınma

Səhifə ⇨ 5

## Avtomobil istehsalı 2 dəfə artıb



Səhifə ⇨ 9



## "Bir gündə iki oğlumu itirdim"

Səhifə ⇨ 3

# Azərbaycan Ermənistandan maksimum təminat gözləyir

*Haylar vətən və ata axtarışından uzaq durmalıdırlar. Amma...*

**“Son illərdə mən İstiqlaliyyət bəyannaməsini dəfələrlə oxudum və dəhşətli nəticəyə gəldim ki, bu bəyannamənin mahiyyəti ilə Ermənistan Respublikası mövcud ola bilməz. Bu bizim ən böyük problemimiz və faciəmizdir. İndi sual budur ki, əsl Ermənistan nədir və onun vətəndaşları kimlərdir? Əsl Ermənistanın vətəndaşı o kəsdir ki, bu yerdən kənarda özünə vətən və ata axtarmır”.**

*(ardı 4-cü səhifədə)*





## Gürcüstanda bələdiyyələri hansı siyasi qüvvələr formalaşdıracaq?

Səhifə ⇨ 8

# Milli Məclis Hesablama Palatasının hesabatını dinlədi

## *Plenar iclasdan önəmli qərarlar*



**Aprelin 22-də Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin yaz sessiyasında növbəti plenar iclası keçirilib.**

Milli Məclis Sədri nümayəndə heyəti ilə aprelin 17-18-də Rusiyanın Sankt-Peterburq şəhərinə işgüzar səfəri barədə məlumat verib.

Sonra S.Qafarova iclasda 12 məsələnin müzakirə olunacağını söyləyib. O bildirib ki, gündəliyin 1-ci məsələsi Azərbaycan Respublikası Hesablama Palatasının 2024-cü ildə fəaliyyəti haqqında hesabatıdır. Qeyd edib ki, Hesablama Palatasının hesabatlarının Milli Məclisdə dinlənilməsi parlamentin nəzarət funksiyasının həyata keçirilməsində mühüm rol oynayır.

İclasda Hesablama Palatasının sədri Vüqar Gülməmmədov Palatanın 2024-cü ildə fəaliyyəti haqqında hesabatını təqdim edib. Palata sədri bildirib ki, 2024-cü il üzrə Hesabatda Hesablama Palatasının audit və qeyri-audit fəaliyyəti əhatə olunub, icmal-statistik məlumatlar öz əksini tapıb. Sənəddə Hesablama Palatasının qanunla müəyyən edilmiş 21 vəzifəsinin hər birinin icra vəziyyəti barədə qısa şərh verilib. Hesablama Palatasının 2021-2025-ci illəri əhatə edən strateji planının icrası məqsədilə 2024-cü ildə də əməliyyat planı tərtib olunub, fəaliyyətin institusional, təşkilati və peşəkar istiqamətlərinin təkmilləşdirilməsi məqsədilə müxtəlif tədbirlər həyata keçirilib. O, Palatanın fəaliyyətinin 4 istiqamətdən ibarət olduğunu söyləyib. Sonra parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov Hesablama Palatasının 2024-cü ildə fəaliyyəti barədə hesabata dair bu komitənin rəyini bildirib. Müzakirələrdən sonra hesabat səsə qoyularaq nəzərə alınıb.

S.Qafarova növbəti məsələnin "Azərbaycan Respublikası Hökuməti ilə Somali Federativ Respublikası Hökuməti arasında müdafiə və müdafiə sənayesi sahələrində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsi olduğunu deyib. O bildirib ki, beynəlxalq sənədlə bağlı olduğuna görə qanun layihəsi "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələbinə əsasən bir oxunuşda qəbul ediləcək. Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev bu qanun layihəsini təqdim edib. O qeyd edib ki, Saziş tərəflər arasında müdafiə və müdafiə sənayesi sahələrində əməkdaşlıq üçün hüquqi çərçivənin yaradılması məqsədinə xidmət edir. Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü Zaur Şükürov məsələ barədə bu komitənin rəyini diqqətə çatdırıb. Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Parlamentin Sədri növbəti 4 məsələnin üçüncü oxunuşda qanun layihələri olduğunu bildirib. Sonra İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında", "Üzümçülük və şərabçılıq haqqında", "Dərman vasitələri haqqında" və "Reklam haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) diqqətə çatdırıb. Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev, Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov məsələ barədə bu komitələrin müsbət rəyini bildirdikdən sonra qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Sosial xidmət haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (üçüncü oxunuş) ilə bağlı məlumat verib. Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. Sənəddə mübahisələrin alternativ həll üsullarından biri olan mediasiyanın daha da inkişaf etdirilməsi və effektivliyinin artırılması məqsədilə bir sıra normaların təkmilləşdirilməsi və yeni normaların əlavə edilməsi nəzərdə tutulur. Layihə səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev "Baytarlıq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsinin mahiyyətindən danışıb. Sənəd heyvanlar üçün bioloji preparatlar istehsalı obyektlərinin baytarlıq qanunvericiliyinin tələblərinə uyğunluğunun uçotunu aparmaq üçün onların AQTA tərəfindən qeydiyyatının həyata keçirilməsini və qeydiyyatla bağlı yaranan xərclərin ləğvini, bununla da bu sahədə fəaliyyət göstərən sahibkarların maliyyə yükünün azaldılmasını nəzərdə tutur. Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Sahibə Qafarova gündəliyin növbəti 4 məsələsinin ikinci oxunuşda qanun layihələri olduğunu nəzərə çatdırıb. Azər Əmiraslanov "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında", "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında", "Standartlaşdırma haqqında" və "Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) ilə bağlı məlumatı təqdim edib. Layihə səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova Ailə Məcəlləsində, Mülki Məcəllədə, "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında", "Uşaq hüquqları haqqında", "Yol hərəkəti haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" və "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) təqdim edib. Sənəddə təklif olunan dəyişikliklərdə uşaq hüquqlarının qorunması məqsədilə qəyyumluq və himayə orqanlarına bir sıra səlahiyyətlər verilir. Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamran Bayramov İnzibati Xətalar Məcəlləsində, "İcra məmurları haqqında", "İcra haqqında", "İpoteka haqqında" və "Nağdsız hesablaşmalar haqqında" qanunlarda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihəsinə dair məlumat verib. Bildirilib ki, dəyişikliklərdə icra məmurunun icra sənədləri üzrə ödənilməli olan pul vəsaitlərinin, icra ödənişlərinin, habelə icra hərəkətlərinin həyata keçirilməsi ilə bağlı xərclərin ödənilməsinin yalnız nağdsız qaydada həyata keçirilməsi ilə bağlı vəzifəsi təsbit olunur. Layihə ikinci oxunuşda qəbul edilib.

Sonra iclasda Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (ikinci oxunuş) nəzərdən keçirilib. Birinci oxunuş zamanı layihə barədə ətraflı məlumat verildiyini deyən Azər Əmiraslanov xatırladıb ki, dəyişiklik Dövlət Vergi Xidmətinin Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi (AVİS) və Kənd Təsərrüfatı Nazirliyinin "Elektron kənd təsərrüfatı" informasiya sistemi (EKTİS) arasında məlumat mübadiləsinin təkmilləşdirilməsinə xidmət edir. Qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Milli Məclisin Sədri gündəliyin son iki məsələsinin birinci oxunuşda qanun layihələri olduğunu söyləyib və deputatlardan çıxışlar zamanı birinci oxunuşun tələblərini nəzərə almalarını xahiş edib. On birinci məsələ – Cinayət-Prosessual Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində və "Məhkəmələr və hakimlər haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı məlumatı Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov təqdim edib. Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib. Sonra "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı Mədəniyyət komitəsinin üzvü Şahin Seyidzadə məlumat verib. Sənəd birinci oxunuşda qəbul edilib.

Bununla da Milli Məclisin növbəti plenar iclası başa çatıb.

***XQ***

# Azərbaycan–Əlcəzair siyasi məsləhətləşmələri



**Aprelin 21-də Əlcəzair şəhərində Azərbaycan və Əlcəzair Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin ikinci iclası keçirilib.**

Siyasi məsləhətləşmələrə Azərbaycan tərəfindən xarici işlər nazirinin müavini Yalçın Rəfiyev, Əlcəzair tərəfindən isə Xarici İşlər Nazirliyinin Baş katibi Lounes Maqraman rəhbərlik edib.

Məsləhətləşmələr zamanı ikitərəfli siyasi, iqtisadi, ticarət və parlamentlərarası əlaqələrin hazırkı vəziyyəti və inkişaf perspektivlərinə dair geniş fikir mübadiləsi aparılıb. İki ölkə arasında neft-qaz, eləcə də bərpaolunan enerji sahəsində əməkdaşlıq üçün geniş imkanların mövcud olduğu qeyd edilib.

Y.Rəfiyev, həmçinin səfər çərçivəsində Əlcəzair xarici işlər, xaricdəki milli icma və Afrika məsələləri naziri Əhməd Attaf ilə görüşüb, Milli Mücahidlər Muzeyi ilə tanış olub.

***XQ***

# Çin ilə energetika sahəsində sənədlər imzalanıb

**Aprelin 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasına dövlət səfəri çərçivəsində ölkəmizin Energetika Nazirliyi ilə Çin şirkətləri arasında bir sıra sənədlər imzalanıb.**

İmzalanmış sənədlər arasında "Azərbaycan Respublikasının Hökuməti və "Universal Solar Azerbaijan" Məhdud Məsuliyyətli Cəmiyyəti arasında Azərbaycan Respublikasında 100 MVt gücündə Qobustan Günəş Elektrik Stansiyası Layihəsi ilə bağlı İnvestisiya Müqaviləsi", "Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə "China Energy Overseas Investment Co. Ltd." şirkəti arasında Azərbaycan Respublikasında dənizdə külək enerjisi layihəsinin qiymətləndirilməsi, inkişafı və həyata keçirilməsi ilə bağlı İcra müqaviləsi", "Azərbaycan Respublikasının Energetika Nazirliyi, "China Datang Overseas Investment Co. Ltd" və "SOCAR Green" Məhdud Məsuliyyətli Cəmiyyəti arasında Böyükşor gölündə 30 MVt gücündə batareya enerji saxlanc sistemi ilə 100 MVt gücündə üzən Günəş Elektrik Stansiyası layihəsinin qiymətləndirilməsi, inkişafı və həyata keçirilməsi ilə bağlı İcra müqaviləsi, "Azərbaycan Respublikasının Energetika Nazirliyi, "PowerChina Resources Limited" və "SOCAR Green" Məhdud Məsuliyyətli Cəmiyyəti arasında 160 MVt gücündə Günəş Elektrik Stansiyası layihəsinin qiymətləndirilməsi, inkişafı və həyata keçirilməsi ilə bağlı İcra müqaviləsi (mübadilə ediləcək)", Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Çin Xalq Respublikasının Elektrik Enerjisinin Planlaşdırılması və Mühəndislik İnstitutu arasında "Bərpaolunan enerjinin inkişafı və elektrik enerji sisteminin planlaşdırılması"na dair Anlaşma Memorandumu" və "Azərbaycan Respublikasının Energetika Nazirliyi, "SOCAR Green" Məhdud Məsuliyyətli Cəmiyyəti, "China Datang Overseas Investment Co. Ltd" və "PowerChina Resources Limited" arasında Xəzər dənizinin Azərbaycan sektorunda 2 QVt gücündə dənizdə külək enerjisi layihəsinin inkişafına dair Anlaşma Memorandumu" yer alıb.

***XQ***

# Naxçıvanda istedadlı şagirdlərlə görüş



**Dünən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseydə muxtar respublika və ölkə üzrə keçirilən olimpiadaların finalçıları və buraxılış imtahanlarında yüksək nəticə göstərən istedadlı şagirdlərlə görüşüb.**

Görüşdə biliklərə yiyələnməyin gənclərin gələcək arzularına çatmasında müstəsna önəmini qeyd edən səlahiyyətli nümayəndə muxtar respublikada təhsilin səviyyəsindən razılığını ifadə edib. O bildirib ki, hər il yüksək nəticələr əldə edilir, muxtar respublika məktəbləri və məktəbliləri ölkə üzrə göstəricilərdə ön sıralarda qərarlaşırlar. Bu isə o deməkdir ki, gənclər təhsilin gücündən və dövlətimizin yaratdığı şəraitdən maksimum yararlanmaqla özlərini gələcəyə hazırlayırlar. Hər kəs belə istedadlı şagirdlərə dəstək olmalıdır. Çünki gənclərin təhsilinə ayrılan diqqət gələcəyə yatırılan sərmayədir.

Səlahiyyətli nümayəndə olimpiadalarda və buraxılış imtahanlarında yüksək nəticə göstərmiş şagirdləri təbrik edib, onların müəllim və valideynlərinə təşəkkürünü bildirib, hər bir şagirdə dərslərində, imtahanlarında və gələcək həyatlarında daha böyük uğurlar arzulayıb.

Muxtar Respublikanın təhsil naziri Elxan Nəcəfov şagirdlərin ölkə və beynəlxalq səviyyəli olimpiadalarda iştirakı ilə bağlı görülmüş işlər və qarşıda duran vəzifələrlə bağlı məlumat verib.

Fuad Nəcəfli Liseyin imkanları ilə tanış olub, sinif otaqlarında və istirahət guşəsində uğur qazanan şagirdlərlə görüşüb, yataqxana şəraiti ilə maraqlanıb. Səlahiyyətli nümayəndə Şərur Peşə Liseyi ilə də tanış olub, onun fəaliyyətinin gücləndirilməsi ilə bağlı tapşırıqlar verib.

***Səbuhi HƏSƏNOV,***
***XQ-nin Naxçıvan müxbiri***

# Baş prokurorun Sabunçu rayonunda vətəndaş qəbulu

**Aprelin 22-də Baş prokuror Kamran Əliyev Bakı şəhəri Sabunçu rayon prokurorluğunun inzibati binasında Sabunçu rayonu və digər bölgələrdən olan vətəndaşların müraciətlərini dinləyib.**



Qəbulda iştirak edən 47 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Qəbuldan sonra Kamran Əliyev prokurorluq əməkdaşlarına konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdığını diqqətə çatdırıb, eləcə də "Elektron prokurorluq" informasiya sisteminin fəaliyyəti ilə yerində tanış olub.

***XQ***

# Asiya nəhəngi ilə strateji tərəfdaşlıqdan qlobal əməkdaşlığa

**Ötən il Astanada biz ÇXR-in Sədri Si Cinpin ilə bəşəriyyətin ortaq taleyi cəmiyyətinin yaradılmasına kömək etmək səylərimizi bəyan etdik. Biz sülh, inkişaf, bərabər hüquqlar, ədalət, demokratiya və azadlıq uğrunda, həmçinin hegemoniyaya və güc siyasətinə qarşı bəşəriyyətin ümumi dəyərlərinin təşviqi istiqamətində çıxış etdik.**

**Azərbaycan Prezidenti İlham Əliyevin Çinin Sinxua informasiya agentliyinə müsahibəsindən**

**(əvvəli 1-ci səhifədə)**

Müsahibədə Azərbaycanın Qlobal Cənubun bir hissəsi kimi həmişə ortaq maraqları müdafiə etdiyini vurğulayan dövlətimizin başçısı diqqəti 2019–2023-cü illərdə BMT-dən sonra ikinci beynəlxalq təşkilat olan Qoşulmama Hərəkatına sədrliyimizə çəkdi: “Planetin əhalisinin 80 faizi, dünya ÜDM-in təxminən 50 faizi və məcmu beynəlxalq ticarət həcminin təqribən yarısı bu təşkilatın payına düşür. Qlobal Cənubun daha dayanıqlı, ədalətli və təhlükəsiz dünya nizamı qurulmasında iştirakı təbii prosesdir”.

Tarixçilər bu qənaətdədirlər ki, Azərbaycanla Çin arasında münasibətlər min il əvvəl qədim İpək yolu vasitəsilə başlayıb. XXI əsrdə bu əlaqələri yeni inkişaf dinamikası səciyyələndirir. Xalqlarımız arasında tarixi və mədəni əlaqələrin təməli qədim dövrlərə gedib çıxsa da, son illər ikitərəfli münasibətlər daha da möhkəmlənib, müxtəlif sahələri əhatə edib.





* **

Bu məqamda ötən əsrin 90-cı illərinə qayıdaraq qeyd etməliyik ki, Azərbaycan–Çin münasibətlərinin inkişafı Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra daha da sürətləndi. 1994-cü ildə Ulu öndərin Çinə rəsmi səfəri zamanı iki ölkə arasında səkkiz mühüm müqavilə imzalandı. 1996-cı ilin aprelində isə Çin Xalq Respublikası Baş nazirinin müavini Tsyan Tsiçen Azərbaycanda səfərdə oldu. Bu səfərlər ikitərəfli əməkdaşlığın və dostluğun möhkəmlənməsi baxımından böyük əhəmiyyətə malik idi.

Azərbaycan Prezidenti İlham Əliyev bir neçə dəfə Çinə rəsmi səfər edib. 2015-ci ilin dekabrında reallaşan səfər zamanı “Azərbaycan Respublikası hökuməti ilə Çin Xalq Respublikası hökuməti arasında İpək Yolu iqtisadi kəmərinin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu” imzalanıb. Bu sənədin qarşılıqlı əməkdaşlığa yeni impuls verdiyini deməliyik. Təkcə yerli ekspertlər deyil, kənar müşahidəçilər də qeyd edirlər ki, son illər Azərbaycanla Çin arasındakı əlaqələrdə xüsusi canlanma hiss olunur. 2022-ci ilin sentyabrında Şanxay Əməkdaşlıq Təşkilatının Səmərqənd Sammitində Prezident İlham Əliyev ilə Sədr Si Cinpin arasında keçirilən görüşdə iki ölkə arasındakı münasibətlərin gələcək inkişaf istiqamətləri müəyyənləşdirilib. 2023-cü ilin əvvəlindən isə yüksəksəviyyəli ikitərəfli mübadilələrin yeni dalğası başlanıb, qarşılıqlı səfərlər davam edib.

Beynəlxalq gündəlikdə suverenlik, müstəqillik və ərazi bütövlüyü kimi prinsiplər önəmli məsələlərdir. Bakı və Pekin bu müstəvidə də oxşar mövqe sərgiləyirlər. Aydın məsələdir ki, belə yanaşma, iki ölkənin beynəlxalq arenada bir-birini dəstəkləməsi qarşılıqlı etimadı artırır. Bu yanaşma həm Azərbaycanın, həm də Çinin uzunmüddətli xarici siyasət hədəflərini dəstəkləyən və qarşılıqlı faydalara əsaslanan strateji təməl rolunu oynayır. ÇXR Sədri Si Cinpin də Azərbaycanla münasibətlərə böyük önəm verdiyini və iki ölkənin dost və tərəfdaş olduqlarını dəfələrlə bəyan edib. Bu münasibətlər yalnız iqtisadi və siyasi deyil, həm də regional təhlükəsizlik və sabitlik baxımından mühüm əhəmiyyət daşıyır.

***

3 iyul 2024-cü il tarixi iki ölkə arasında əməkdaşlığın keyfiyyətcə yeni və fərqli müstəviyə keçməsi ilə yadda qaldı. Həmin gün “Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə” qəbul olundu. Həqiqətən də, bu sənəd ikitərəfli münasibətlərin yeni mərhələyə qədəm qoymasını təmin edən vacib addım, tarixi hadisə kimi Azərbaycan–Çin münasibətlərində yeni səhifə açır. Məhz bu kontekstdən yanaşanda Prezident İlham Əliyevin Çinə budəfəki dövlət səfəri iki ölkə arasında strateji tərəfdaşlığın dərinləşdirilməsi işinə xidmət edəcəyi şübhəsizdir.

Dövlətimizin başçısı Çinin Sinxuaagentliyinə müsahibəsində bu barədə dedi: “Əminliklə deyə bilərəm ki, ÇXR-ə bütün əvvəlki səfərlər zəngin proqrama malik idi və qarşılıqlı maraqlara əsaslanan Azərbaycan–Çin çoxtərəfli əməkdaşlığının genişləndirilməsinə yönəlmiş bir sıra mühüm ikitərəfli sənədlərin imzalanması ilə müşayiət olunurdu. İnanıram ki, bu səfər də Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın dərinləşdirilməsi işinə xidmət edəcək”.

Artıq Azərbaycan–Çin əməkdaşlığının coğrafiyası çeşidli sahələri əhatə edir. Ölkələrimiz arasındakı ticarət dövriyyəsində müsbət dinamika müşahidə edilir. Azərbaycan ilə Çin arasında əmtəə dövriyyəsinin həcmi ötən il 2023-cü illə müqayisədə 20,7 faiz artıb və 3,744 milyard dollar təşkil edib. Bu o deməkdir ki, Çin Azərbaycanın 4-cü ən böyük ticarət tərəfdaşına çevrilib. Azərbaycanla Çin arasındakı iqtisadi əlaqələrin genişlənməsi, həmçinin beynəlxalq təşkilatlarda da öz əksini tapıb. Şanxay Əməkdaşlıq Təşkilatı çərçivəsindəki birgə əməkdaşlıq, Azərbaycan–Çin Hökumətlərarası Ticarət–İqtisadi Əməkdaşlıq Komissiyasının fəaliyyəti, Asiya İnfrastruktur İnvestisiya Bankı ilə həyata keçirilən birgə layihələr və Azərbaycanın “Bir kəmər, bir yol” təşəbbüsünə qoşulması bu əlaqələri daha da gücləndirib. Bundan başqa, Şərq–Qərb və Orta Dəhliz layihələri çərçivəsində tərəfdaşlıq nəqliyyat və ticarət əlaqələrinin inkişafına böyük töhfə verib. Pekində Azərbaycanın ticarət evinin açılması isə bu əməkdaşlığın uğurlarını təzahür etdirir.

***

Rəsmi Bakı Çin vətəndaşları üçün sadələşdirilmiş viza prosedurları tətbiq etməklə iki ölkə arasında turizm və mədəni mübadiləni asanlaşdırıb. Bu cür təşəbbüslər ölkələrimiz arasında mədəni və sosial əlaqələrin dərinləşməsinə imkan verir. Mədəni əlaqələri ayrıca qeyd etmək istərdik. Azərbaycan ilə Çin arasında bu sahədə əlaqələr uzun illərdir möhkəm dostluq körpüsü üzərində qurulur. 1995-ci il aprelin 12-21-də Pekində Azərbaycanın tanınmış rəssamı Səttar Bəhlulzadənin əsərlərinin sərgisinin təşkili iki ölkə arasında mədəni əməkdaşlığın başlanğıcı oldu.

2008-ci il avqustun 10-da Pekində XXIX Yay Olimpiya Oyunları çərçivəsində “Azərbaycan günü”, 2011-ci ilin mayında isə Çində Azərbaycan Mədəniyyəti Günləri keçirildi. 2012-ci il dekabrın 10-14-də isə Azərbaycanda Çin Xalq Respublikasının Mədəniyyət Günləri təşkil olundu. Azərbaycanda fəaliyyət göstərən iki Konfutsi İnstitutu və Çin dilinə artan maraq mədəni əlaqələrin güclənməsindən xəbər verir. Heydər Əliyev Fondunun Nizami Gəncəvinin büstünü Şanxay Əməkdaşlıq Təşkilatının katibliyinə hədiyyə etməsi isə Azərbaycan mədəniyyətinin Çinlə əlaqələrdəki dəyərinin göstəricisidir. Bu cür fəaliyyətlər xalqlarımız arasında daha yaxın əlaqələrin qurulmasına və qarşılıqlı anlaşmanın güclənməsinə mühüm töhfə verir.

Bakı ilə Pekin arasında strateji tərəfdaşlığın qlobal əməkdaşlıq mərhələsinə qədəm qoyan münasibətlər yüksək səviyyədə sülhə, sabitliyə və inkişafa töhfə verən nümunəvi model sayıla bilər. Qədim İpək yoluna yeni nəfəs verməyi hədəfləyən bu əməkdaşlıq özündə hər iki dövlətin və xalqın uğurlu gələcəyinə işıq salacaq. Azərbaycan Prezidenti İlham Əliyevlə ÇXR Sədri Si Cinpinin Pekindən dünyaya verəcəkləri mesajlarda bu “yol xəritəsi”-nin yeni konturlarının aydın görünəcəyinə əminik.

***İmran BƏDİRXANLI***
***XQ***

**Xuntaçıların məhkəməsi**

# “Bir gündə iki oğlumu itirdim”

## *Ruben Vardanyanın işi üzrə zərərçəkmişlərin şəhadəti*



**Azərbaycan Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi aprelin 22-də davam etdirilib.**

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) təqsirləndirilən şəxs bildiyi dildə, yəni, rus dilində tərcüməçi, habelə müdafiəsi üçün özünün seçdiyi vəkillə təmin olunub.

Məhkəmə prosesi zərərçəkmiş şəxslərin dindirilməsi ilə davam etdirilib. Onların əksəriyyəti bədən əzalarının bir hissəsi amputasiya edilmiş mina qurbanları olub. İfadə verən zərərçəkmiş şəxslərin əksəriyyəti məhkəməyə qoltuqağacı və əsa ilə gəlib.

Hakim Zeynal Ağayev dindirmədən əvvəl məhkəmə prosesində ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Zərərçəkmiş şəxs Həsənəli Əliyev ifadəsində 2024-cü il fevralın 4-də Tərtər rayonunun Qızıloba kəndi ərazisində yerləşən sahədə mal-qara otararkən Ermənistan hərbçilərinin basdırdıqları minanın partlaması nəticəsində xəsarət aldığını bildirərək deyib: “Nəticədə sol ayağımın aşağı üçdəbir hissəsi amputasiya olunub”.

Digər zərərçəkmiş Elnur Əsgərov isə 2023-cü il aprelin 18-də Tərtər rayonunun Borsunlu kəndində mal-qara otaran zaman Ermənistan hərbçilərinin basdırdıqları minanın partlaması nəticəsində xəsarət aldığını deyib.

Zərərçəkmiş Akif Hüseynov ifadəsində bildirib ki, yaşadıqları Ağdam rayonunun Yusifcanlı kəndi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildikdən sonra Əfətli kəndində məskunlaşıb. O, oğlanları Anar, Razi və Bayram, nəvəsi Hüseynin işğaldan azad edilmiş ərazilərdə olan əkin sahəsinə baxmağa gedərkən minaya düşdüklərini bildirib. Hadisə barədə xəbər tutan A.Hüseynov özü də əraziyə gedib. Yaralı vəziyyətdə olan şəxslər ərazidən çıxmaq istəyərkən daha bir mina partlayıb.

Dövlət ittihamçısı Fuad Musayevin suallarına cavab olaraq A.Hüseynov deyib ki, mina partlayışları nəticəsində oğlanları Razi və Bayram həlak olub, özü, digər oğlu Anar ağır xəsarətlər alıb, nəvəsi Hüseyn yüngül yaralanıb və güclü psixoloji travma alıb. “Bir gündə iki oğlumu itirdim”, - deyə o qeyd edib.

Hadisə zamanı onlarla birlikdə olan qonşusu Bəhruz Abdulov da yaralanıb.

Zərərçəkmiş şəxs qismində ifadə verən A.Hüseynovun oğlu Anar Hüseynov və qonşusu Bəhruz Abdulov da ifadə verərək hadisənin necə baş verdiyini danışıblar.



Zərərçəkmiş şəxslər Nicat Cabbarov və qohumu Rafael Bayramov isə ifadələrində Tərtər rayonunun işğaldan azad olunmuş hissəsində eyni vaxtda minaya düşdüklərini, ayaqlarının bir hissəsinin amputasiya edildiyini bildiriblər.

Alışan Səfərov və Faiq Səfərov isə yol istismarı idarəsinin işçiləri olublar. Onlar Tərtərdə yola basdırılmış minaya düşərək yaralandıqlarını deyiblər.

Məhkəmədə ifadə verən zərərçəkmiş şəxs Hikmət Abdullayev isə hərbi xidmətini yerinə yetirərkən yaralandığını bildirib. O, dövlət ittihamçısı Vüsal Abdullayevin suallarına cavab olaraq deyib ki, Vətən müharibəsindən sonra Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri Azərbaycanın işğaldan azad edilmiş suveren ərazilərinə mütəmadi olaraq müxtəlif tipli iriçaplı silahlardan atəş açaraq təxribatlar törədib. Azərbaycan Ordusu isə təxribatların qarşısını alaraq düşmənin planlarını darmadağın edib.

ANAMA-nın əməkdaşları Yadigar Şükürov, Qəhrəman Rzayev, Nəcməddin Hüseynov, Mahir Mustafayev, Samir Gözəlov, Əli Şükürov, Fərid Cəbrayıllı, Telman Zeynalov, Bəhruz Nəsirov, Ələsgər Quliyev minatəmizləmə işləri zamanı minaya düşdüklərini, müxtəlif bədən xəsarətləri aldıqlarını deyiblər. Ə.Quliyev dövlət ittihamçısının suallarını cavablandırarkən minatəmizləmə zamanı PMN minalarına və tankəleyhinə minalara, habelə “sürpriz mina”lara çox rast gəldiyini deyib. O, Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimlinin suallarını cavablandırarkən bildirib: “Bu minaların ən qorxulusu tankəleyhinə və qəlpəli minalardır. OZM-72 minalarını da çox görmüşəm. O, havada qəlpələrə bölünür, ən təhlükəli minalardandır”.



Zərərçəkmiş İlham Salmanov da Füzuli rayonunun işğaldan azad edilmiş Aşağı Seyidəhmədli kəndi ərazisində piyadaəleyhinə minaya düşməsi nəticəsində müxtəlif dərəcəli bədən xəsarətləri aldığını və ayağının amputasiya olunduğunu qeyd edib.

İlknur Əliyev hərbi xidmət zamanı Ermənistan silahlı qüvvələrinin təxribatının qarşısını alan zaman üzərinə atılan əl qumbarasının partlaması nəticəsində yaralandığını deyib.

Natiq Mamedov, Elnur Abbaszadə, Vüsal Quliyev, Ramin Babayev və digərləri mina partlaması nəticəsində xəsarət aldıqlarını diqqətə çatdırıblar.

Prosesdə, həmçinin zərərçəkmiş şəxslərlə bağlı məhkəmə-tibbi ekspertizanın rəyləri açıqlanıb.

Məhkəmənin növbəti iclası aprelin 29-na təyin olunub.

***XQ***

(əvvəli 1-ci səhifədə)

# Azərbaycan Ermənistandan maksimum təminat gözləyir

Bu fikirləri Ermənistanın baş naziri Nikol Paşinyan ötən il dilə gətirmişdi. Nikol, həmçinin yeni konstitusiyanın qəbulu ilə bağlı referendumun keçirilməsinin zəruriliyini bəyan etmiş, əsas qanunda İstiqlaliyyət bəyannaməsinə istinadın sülh mühitinin qərarlaşmasına əngəl törətdiyini vurğulamışdı.

N.Paşinyan həmin vaxt Azərbaycanın indi də irəli sürdüyü sülh şərtinin mahiyyətini açıqlamışdı. Əslində, anlaşılmayan heç nə yoxdur. Amma belə başa düşmək mümkündür ki, Ermənistan konstitusiya məhkəməsinin sədri Arman Dilanyana heç də hər şey aydın deyil. O, "Azadlıq" radiostansiyasına müsahibəsində bildirib ki, ölkəsinin əsas qanununda nəinki Azərbaycana, hansısa başqa ölkəyə ərazi iddiası yoxdur və bununla bağlı ittihamlar yalandır.

A.Dilanyanın əsaslandırması budur ki, konstitusiya mətni referenduma çıxarılmazdan əvvəl beynəlxalq təşkilatlar tərəfindən ekspertizadan keçib və əgər həmin təşkilatlar, o cümlədən Avropa Şurasının Venesiya Komissiyası ərazi iddiası ilə bağlı hansısa durumu müəyyənləşdirsəydi, mətn geri qaytarılardı. Belə bir hal olmayıbsa, deməli, əsas qanunda hər şey qaydasındadır. A.Dilanyan fikirlərini əsaslandırmaq üçün onu da bildirib ki, beynəlxalq hüquq dövlətləri bir-birilərinin ərazi bütövlüklərinə və sərhədlərinin toxunulmazlığına hörmətlə yanaşmağa məcbur edir.

**

Əvvəlcə, A.Dilanyanın sonuncu fikrinin üzərində dayanaraq bildirək ki, Ermənistan Azərbaycan torpaqlarına təcavüz reallaşdırmış, otuz ilə yaxın müddətdə ərazilərimizi işğalda saxlamış ölkədir. Ermənistan, eyni zamanda, işğalın dayandırılması ilə bağlı beynəlxalq qurumların, ən əsası, BMT-nin dörd qətnaməsini heçə sayıb. Yəni, onun tutduğu yol beynəlxalq hüquq normalarına zidd olub.

İkincisi, Avropa Şurasının Venesiya Komissiyasının hansı prinsiplər əsasında işlədiyini yaxşı bilirik. Ümumən AŞ-nin yarıtmaz yolda addımladığından xəbərdarıq. Qurum bu gün də özünün anti-Azərbaycan mövqeyi ilə seçilir, beynəlxalq hüququ görməzdən gəlir. Ona görə də Ermənistan konstitusiyasının Venesiya Komissiyasından keçməsi hələ heç nə demək deyil.

Üçüncüsü, əvvəldə baş nazir N.Paşinyanın fikirlərini əbəs yerə diqqətə çatdırmadıq. Nikol hər şeyi açıq formada deyir. Ancaq baş nazirin müxtəlif vaxtlarda A.Dilanyan kimi danışdığını da bilirik. Məsələn, Paşinyanın Ermənistan konstitusiyasında Azərbaycana və heç bir dövlətə qarşı ərazi iddiasının olmadığına dair bildirdikləri var. Eləcə də onun konstitusiya dəyişikliyinin ölkənin daxili işi olması ilə bağlı söylədikləri diqqətimizdən yayınmayıb. Yəni, adam mövqeyində prinsipial deyil və bu, düşünməyə vadar edir.

Dördüncüsü, erməni siyasi dairələrinə Azərbaycanın konstitusiyaya dəyişiklik tələbinin əsl mahiyyəti çox yaxşı aydındır. Məhz buna görədir ki, Ermənistan konstitusiya məhkəməsi 2024-cü ilin sentyabrın 26-da qərar çıxarmışdı. Hazırda N.Paşinyan və rəsmi İrəvanın təmsilçiləri Ermənistan konstitusiyasında Azərbaycana qarşı ərazi iddiasının olmadığını bildirəndə həmin qərarı əldə bayrağa çevirirlər. Halbuki, bunun yolverilməzliyini elə A.Dilanyanın özü açıqlayıb. Özü də ötən ilin noyabrında.

A.Dilanyan həmin vaxt demişdi ki, rəhbərlik etdiyi qurum, yəni konstitusiya məhkəməsi İstiqlaliyyət bəyannaməsini denonsasiya etmək səlahiyyətinə malik deyil və belə bir səlahiyyət ancaq erməni xalqına məxsusdur. O, heç bir hakimiyyətin də bu addımı ata bilmək səlahiyyətində olmadığını vurğulamışdı. Elə isə Ermənistan konstitusiya məhkəməsinin qərarı konkret nə ilə bağlıdır? Ən başlıcası, sənəd legitimdirmi?



*

Qeyd edək ki, sözügedən məhkəmə instansiyası Ermənistan və Azərbaycanın delimitasiya komissiyalarının fəaliyyət reqlamenti ilə bağlı rəyini açıqlamışdı. A.Dilanyanın bildirdiklərindən məlum olmuşdu ki, həmin rəy reqlamentin işlək mexanizm kimi əsas götürülməsini təmin etməyə yönəlib. Yəni, praktiki durumu rəhbər tutub. Bu zaman "yada düşüb" ki, İstiqlaliyyət bəyannaməsində "Ermənistan SSR-in və Dağlıq Qarabağ Muxtar Vilayətinin yenidən birləşməsi" qeydi yer alır.

İlk versiya budur ki, həmin qeyd reqlamenti təsdiqləməyə mane olurmuş. Ona görə Ermənistanın konstitusiya məhkəməsi bəyannaməyə istinadı etibarsız sayıb. Bir halda ki, A.Dilanyan rəhbəri olduğu qurumun İstiqlaliyyət bəyannaməsini denonsasiya etmək səlahiyyətinə malik olmadığını bildirib, deməli, onun çıxardığı qərarın da heç bir əhəmiyyəti yoxdur.

Digər versiyanın üzərində dayanaq. Həmin versiya sərhəd komissiyalarının reqlamentinin təsdiqlənməsi zamanı İstiqlaliyyət bəyannaməsinin yada düşməsinin təsadüfi xarakter daşımadığını söyləməyə əsas verir. Heç şübhəsiz, erməni hakim siyasi dairələri konstitusiya məhkəməsinin qərarını, guya, Azərbaycanın şərtinin yerinə yetirilməsi kontekstində təqdim etməyi düşünüblər. Başqa sözlə desək, sənədi siyasi interpretasiya vasitəsinə çevirməyi nəzərdə tutublar.

Başqa bir tərəfdən baxsaq, məsələdə dərin düşünülmüş hiyləgərlik motivinin olduğu görünür. Təxminən belə: sərhəd reqlamenti təsdiqlənərkən, Ermənistan konstitusiyasının ölkənin İstiqlaliyyət bəyannaməsinə istinad motivi götürülür, praktiki işin irəliyə doğru aparılması məqsədi ilə əsas qanunun bəyannaməyə istinad bağının aradan qaldırıldığı elan olunur və beləliklə, əslində, başqa məqsəd güdülür. Həmin məqsəd reqlamentin mübahisəli təbiətə malik olduğunu vurğulamaqdır.

Bu qənaətə gəlirik ki, gələcəkdə kim istəsə, məsələni mübahisələndirə və sərhədlərin delimitasiyasının düzgün aparılmadığını iddia edə bilər. Həmçinin, konstitusiya məhkəməsinin onsuz da heç bir qanuni yükü və əhəmiyyəti olmayan qərarını mübahisələndirməkdə də problem yaranmaz. Deməli, A.Dilanyanın bəyannamənin tam şəkildə konstitusiyanın tərkib hissəsi olmasının qeyri-mümkünlüyünə, birincini ikinci ilə eyni müstəviyə qoymağın düzgün sayıla bilməzliyinə dair dedikləri də mənasızdır, hüquqi yox, siyasi anlam daşıyır.

*

Beşinci, N.Paşinyan 2020-ci ilin fevralında Ermənistan konstitusiya məhkəməsinin o zamankı sədri Hrayr Tovmasyanın və qurumun digər üzvlərinin vəzifədən uzaqlaşdırılması üçün referendumun keçirilməsi təşəbbüsünü irəli sürmüşdü. Hökumət rəhbərinin əsaslandırmasına görə, sözügedən məhkəmə xalqın suveren hüquqlarını məhdudlaşdırır və vəziyyətin konstitusiya dəyişiklikləri ilə aradan qaldırılması vacibdir. Başqa sözlə desək, referendumun məqsədi köhnə qaydalarla seçilmiş hakimlərin səlahiyyətlərinə son qoymaq və yeni tərkibli konstitusiya məhkəməsi formalaşdırmaq idi. Lakin COVID-19 pandemiyası səbəbilə planlaşdırılan referendum təxirə salındı və 2020-ci ilin iyununda Ermənistan parlamenti konstitusiya məhkəməsinin sədri H.Tovmasyanın vəzifədən azad edilməsini nəzərdə tutan dəyişiklikləri təsdiqlədi.

Deməli, əslində, qanunsuzluq baş verdi. Məsələyə mövcud prizmadan yanaşsaq, hazırda A.Dilanyanın məhkəmənin sədri olmasının özü də qanunsuzdur. Əsas məqam isə budur ki, erməni iqtidarı özünə sərfəli durumlarda, belə demək mümkünsə, hüququn boğazına ip salıb istənilən yerə onu sürümək potensialındadır. Əlbəttə, buna həyasızlıq demək daha uyğundur.

*

Əvvəldə diqqətə çatdırdığımız sitata nəzərən sonda bir məqamın da üzərində dayanaq. Paşinyan vətən və ata axtarmağın yolverilməzliyini vurğulayır. Əslində, Nikol reallığı görür. Bəlkə ona qarşı mübarizə aparmaq da istəyir. Amma fakt budur ki, vətən və ata axtarışı pataloji xəstəlikdir. Elə bir xəstəlik ki, Paşinyan onun simptomlarını tənqid edərkən belə, həmin simptimlardan irəli gələn davranışları nümayiş etdirir. Bəzən düşünürsən ki, bu nümayiş qeyri-ixtiyari prosesdir. Əgər belədirsə, vəziyyət daha pisdir. Çünki Azərbaycanla Ermənistan arasında əldə edilmiş hər cür razılığın ikinci tərəfindən pozulmayacağına hansısa təminat yoxdur. Bunu ən yaxşı bilən və dərk edən isə Azərbaycan iqtidarıdır. Ona görə də Prezident İlham Əliyev Ermənistana inamın sıfıra bərabər olduğunu vurğulayır. Bu səbəbdən ölkəmiz sülh şərtlərini maksimum təminat altına almaqda israrlıdır.

*Ə.CAHANGİROĞLU*
*XQ*

# Oskanyan, "erməni soyqırımı" və Qarabağ mərəzi

**Ermənistanın baş naziri Nikol Paşinyan hakimiyyətdən uzaqlaşdırılmalıdır. Bunu ölkənin keçmiş xarici işlər naziri, özünün avantürist açıqlamaları ilə erməni revanşist-şovinistlərin sevimlisinə çevrilmiş Vardan Oskanyan bildirib. O, saxta "soyqırımı" iddiasının 110 illiyi ilə bağlı paylaşdığı sosial şəbəkə postunun sonunda belə qənaətə gəlib.**

Əvvəlcə, bir xarakterik xüsusiyyəti diqqətə çatdıraq. Məsələ ondadır ki, V.Oskanyan bitlə bağlı sualı öyrənən və özünün yarımçıq dünyagörüşü ilə imtahana gələn, bəxtinə isə itlə bağlı sual düşmüş tələbəyə bənzəyir. Təxminən, belə: it tüklü heyvandı, tükün üstündə bit var, bitə məməli canlılarda rast gəlinir və sair və ilaxır. Keçmiş XİN rəhbəri də saxta "erməni soyqırımı"ndan söz açır, tezliklə Qarabağ məsələsinə keçir. Onun bəzi fikirlərini diqqətə çatdıracağıq. Hələlik isə N.Paşinyanın "soyqırımı" mövzusuna münasibətinə aydınlıq gətirək.

Nikol və tərəfdarları saxta iddiaya bir qədər fərqli prizmadan yanaşırlar. Əlbəttə, deyə bilmərik ki, onlar siyasətlərini heç bir analoqu olmayan tarixi yalan üzərində qurmurlar. Yəni hakim hay komandasının "soyqırımı" məntiqindən kənar dayandığını söyləmək doğru sayılmaz. Hərçənd, ilk baxışdan, belə təəssürat yaranır ki, rəsmi İrəvan bu iddianın cəfəng mahiyyət daşıdığı qənaətindədir. Ancaq Nikolun "erməni soyqırımı"nın beynəlxalq miqyasda tanınmasının ölkənin xarici siyasət prioritetindən kənarlaşdırması nə isə demək deyil.

Beləliklə, Türkiyə ilə münasibətləri normallaşdırmağa çalışdığı görüntüsünü yaradan Paşinyan Ankaranı qıcıqlandırmaq istəmir. Daha doğrusu, qıcıqlandırmadığına dair rəy formalaşdırır. Axı xaricdəki ağalarının konkret tapşırıqları var: "soyqırımı" ritorikasından uzaq durulması barədə. Nikol tapşırığı heçə saya bilməz və o, "erməni soyqırımı" ilə bağlı tarixi həqiqətləri araşdırmağın vacibliyini vurğulamaqla kifayətlənir.

Qeyd edək ki, vaxtilə rəsmi Ankara İrəvana belə bir təklif irəli sürmüşdü. Həmin təklifə görə, arxivlər açılmalı və alimlər 1915-ci ildə baş verənləri yenidən öyrənməli idilər. Lakin Paşinyandan əvvəlki erməni iqtidarı Türkiyənin bu çağırışına məhəl qoymamışdı. Həmin iqtidarın təmsilçiləri "erməni soyqırımı"nın heç bir müzakirə predmetinə çevriləməyəcəyini açıqlamış və kor inadlarından əl çəkmək niyyətində olmadıqlarını ortaya qoymuşdular.

Bir məqamı da vurğulayaq ki, hazırda Türkiyə cəbhəsində "erməni soyqırımı" məsələsi ilə bağlı səssizlikdir. Birincisi, ölkə çox güclüdür və cəfəng məsələlərə reaksiya vermir. İkincisi, geniş mənada yanaşsaq, "erməni soyqırımı"nda beynəlxalq ictimayyət də maraqlı deyil. Türkiyə xarici aləm üçün mühüm aktordur və onunla konfliktə gedilməsi münasib sayılmır. Erməni iqtidarı özünü bu baxışa adekvat aparır və aparmağa məhkumdur.

*

Ancaq N.Paşinyan iqtidarının "soyqırımı" məsələsinə ümumi önəmi baxımından dörd xarakterik durumdan söz açə bilərik. Birincisi, Nikol və tərəfdarları 2023-cü ildə azərbaycanlı ekofəalların və qeyri-hökumət təşkilatları təmsilçilərinin Laçın–Xankəndi yolunda keçirdikləri davamlı aksiyanı Azərbaycan hakimiyyətinin Qarabağ ermənilərinə qarşı "soyqırımı" kimi qələmə vermiş və bu zaman 1915-ci ilə aid saxta tarixin yenidən təkrarlandığı qənaətinə gəlmişdilər. İkincisi, rəsmi İrəvan həmin ilin sentyabrında Qarabağ ermənilərinin bölgəni tərk etmələrini də eyni prizmadan, həmçinin "etnik təmizləmə" olaraq qiymətləndirmişdi. Üçüncüsü, Ermənistan xarici işlər nazirliyi ötən ilin sonuna doğru İrəvanda soyqırımı cinayətləri ilə mübarizə mövzusunda beynəlxalq toplantı təşkil etmişdi. Həmin toplantının çıxış nöqtəsi qismində 1915-ci il hadisələrinin təkrarlanması, daha doğrusu, təkrarlanmasına yol verməmək məntiqi əsas götürülmüşdü. Dördüncüsü, hazırkı erməni hakimiyyəti beynəlxalq miqyasda da öz havadarlarının "erməni soyqırımı" ilə bağlı təlimatlandırıb. Bu "təlimata" görə, ikincilər Azərbaycana qarşı kampaniya aparark ən, Qarabağda yaşananları "soyqırımı" kontekstində təqdim etmək kimi sərsəm işə girişirlər. Söhbət beynəlxalq hüquq üzrə argentinalı dələduz Luis Morena Okamponun qopardığı vay-şivəndən, hər vasitəilə Azərbaycanı, guya, soyqırımı həyata keçirən ölkə qismində göstərməsindən, habelə soyqırımlarına qarşı beynəlxalq mübarizəyə kökləndiyini iddia edən Lemkin İnstitutu adlandırılan təşkilatın "cənfəşanlığından", ölkəmizə qara yaxmaq cəhdlərindən gedir. Nəzərə alaq ki, bütün bu sərsəmliklərin hər birində Azərbaycanla yanaşı, Türkiyə də hədəfə alınıb.



*

Uzun sözün qısası, V.Oskanyan qətiyyən narahat olmasın. Paşinyanın da erməni xislətinə "sadiqliyində", tipik erməni xəstəliyinin təzahür formalarını üzə çıxarmasında "soyqırımı" amilinə istinad var. Digər tərəfdən, ola bilməz ki, Paşinyan iqtidarı patoloji xaraktera malik erməni xəstəliyinin ən müxtəlif təzahür formalarını yaşatdığı halda, "soyqırımı" kimi, belə demək mümkünsə, çox böyük simptomdan uzaq dayansın. Yəni, Oskanyanın itdən yox, bitdən söz açması, onun hazırkı erməni iqtidarına nifrətindən başqa bir şey deyil.

Ancaq keçmiş XİN rəhbəri fikirlərinə dramatizm tonu qazandırmaq üçün dərindən-qabıqdan çıxır. Məsələn, o bildirir ki, N.Paşinyan "soyqırımı" zamanı həyatını itirmiş 1,5 milyon ermənin ruhunu təhqir edir və bu, ağlasığmaz günahdır. Onun sözlərinə görə, Nikol ermənilərin özlərinə "soyqırımı niyə baş verdi?" sualını verməli olduqlarını bildirməklə, habelə qurbanların məsuliyyətinə eyham vurmaqla, tarixin təhrifi üçün ən məkrli vasitələrdən birinə əl atır. Yeri gəlmişkən, Paşinyanın bu fikri başqa reallığa işıq salmaq imkanı yaradır. Həmin reallıq isə tarixi faktdır.

*

Məsələ ondadır ki, Ermənistanın və havadarlarının "soyqırımı" kimi qələmə verdikləri olay erməni əhalinin yaşadığı Osmanlı imperiyasının bir tərəfindən başqa yerinə köçürülməsidir. Həmin dövrdə ermənilərdən başqa heç bir xalq belə aqibətlə üzləşməmişdi. Onu da demək olmaz ki, Osmanlıda qeyri-millətlərə qarşı ayrı–seçkilik olub. Digər dinlərin və məzhəblərin daşıyıcıları imperiyanın təbəəsi kimi rahat yaşayıblar. Deməli, ortada səbəb var. Səbəb isə erməni varlığının hər zaman dövlətə üz çevirməsidir.

Diqqət yetirək, XIX əsrin sonlarına doğru Qərbin müxtəlif dairələri Osmanlıya qarşı "erməni kartını" işə salıblar. Nəticədə dövlətin müxtəlif yerlərində erməni terror təşkilatları tərəfindən amansız qətllər, terrorlar, soyğun və qarətlər törədilib. Bu əməlləri həyata keçirən anarxist millətçilər elə həmin erməni əhalinin içərisindən çıxırdılar. Kiminin oğlu, kiminin qardaşı, kiminin qohumu anarxizmin və avantürizmin təsiri altına düşür və qruplaşmalara qoşulurdu.

Birinci dünya müharibəsinin başlamasından sonra həmin qruplaşmaların "aktivliyi" artdı. Belə olan halda dövlət çıxılmaz vəziyyətə düşdü. Yəni, Osmanlının erməniləri köçürmə siyasəti məhz həmin çıxılmaz durumdan qaynaqlandı. N.Paşinyan "soyqırımı niyə baş verdi" sualını qabardarkən, dediklərimizi nəzərdə tutursa, hadisə və proseslərə ayıq başla yanaşır. Hərçənd, buna şübhəmiz var. Yaxşı olar ki, Oskanyan da eyni şübhəni daşısın və əmin olsun ki, beynəlxalq aləm anti-türk məntiqini işə salsa, Nikol "erməni soyqırımı"nı "əsaslandırmaq" naminə xeyli "sanballı" həyasızlıq elementləri tapacaq.

*

V.Oskanyanın həyasızlığına gəlincə, bu məxluqun milli fəlakət məntiqində Qarabağın başlıca yeri tutduğu aydındır. O, bölgənin əldən çıxmasını, oranın erməni əhalisinin ərazini tərk etməsini, habelə "suveren Ermənistanın ərazilərinin işğalı", "Bakı həbsxanalarında saxlanılan erməni məhbuslar" məsələsini "soyqırımı" kimi qələmə verir. Sən demə, beynəlxalq ictimaiyyətin durumu aradan qaldırmağa hazırlığına dair aydın siqnallar verməsinə baxmayaraq, Paşinyan tərpənmək istəmir və bu, həm də Qarabağ ermənilərinin bölgəyə qayıtmaq hüququna başlıca manedir. "Paşinyanın sözləri Ermənistanın xaricdəki mənəvi nüfuzunu sarsıtmaqla yanaşı, həm də xalqımızı birləşdirən kollektiv yaddaşı məhv etməklə hədələməkdir", – deyən Oskanyanın fikrincə, erməni xalqı qondarma soyqırımının 110 illiyinin tamam olacağı aprelin 24-də birləşməlidir. Birləşməli və "Ermənistanın ləyaqətinin, milli ideallarının bərpası əzminə sadiqlik" göstərməlidir: "Paşinyan ölkəni bütün mənəvi, siyasi və hüquqi haqlardan məhrum edib. Ədalətin bərpası və milli dirçəliş yolu onun hakimiyyətdən uzaqlaşdırılmasından keçir".

*

Sonda qeyd edək ki, V.Oskanyan əvvəllər də N.Paşinyana, ümumən, hazırkı erməni iqtidarına qarşı sərt fikirlər səsləndirib. Düzdür, Nikol və tərəfdarları qocaldıqca çoban itinə oxşayan bu xəstə məxluqun cavabını veriblər. Ancaq ona qarşı sərt tədbirlər görülməyib. Axı Paşinyan, bir qayda olaraq, siyasi opponentlərini, az qala, 1937-ci ilin repressiyalarına bənzər üsullarla cəzalandırır. Ölkənin keçmiş prezidentləri Serj Sarkisyan və Robert Koçaryan bu rəftarla üzləşiblər və yenə üzləşirlər.

Yada salaq ki, onlar bir balaca danışmağa başlayanda, Nikol dərhal keçmişdəki korrupsiya əməllərini üzə çıxarır və subliminal şəkildə həm Koçaryanı, həm də Sarkisyanı, o cümlədən onların yaxın ətraflarını həbslə hədələyir. V.Oskaynaya isə bu mənada diqqət yetirən yoxdur. Səbəb çox sadədir. Əgər Sarkisyan və Koçaryan kimi tipajlar üçün erməni avantürizminin ayrı-ayrı elementlərindən istifadə şəxsi planda varlanmaq vasitəsi idisə, Oskanyan XİN rəhbəri olanda bunları düşünməyib. Yəni Vardan avantürizmin saxta köpəyi, ayı xidməti ampluasının daşıyıcısı obrazında olub. Heç şübhəsiz, Paşinyan iqtidarı da bunu yaxşı bilir. Ona görə Oskanyana xəstə adam kimi yanaşır, danışdıqlarına əhəmiyyət vermir və onu həbsdə çürütmür.

Əksinə, V.Oskanyan kimi, belə demək mümkünsə, idealist ruhlu avantüristlərin mövcudluğu həm Nikola, həm də onun xaricdəki havadarlarına çox lazımdır. Belələri erməni cəmiyyətinin ambisioz müvazinətini saxlayır, özləri də fərqinə varmadan, sadə ermənilərı xəstə təfəkkürün təsirində saxlamağa kömək göstərirlər. Deməli, Oskanyanın bundan sonra da fəal şəkildə sərsəmləyəcəyini gözləmək mümkündür. Paşinyan iqtidarı üçün adamın nə danışması, nə yazması, nələri deməsi hansısa önəm daşımır. Əsas odur ki, cəfəngiyatı bol eləsin.

*Ə.RÜSTƏMOV*
*XQ*

# Avropa İttifaqında siyasi aşınma



**Avropa İttifaqı illərlə "insan hüquqları", "humanitar dəyərlər" və "demokratik prinsiplər" kimi anlayışları beynəlxalq siyasətdə bayraq edərək özünü qlobal etik dəyərlərin daşıyıcısı kimi görürdü. Ancaq son illərdə bu idealist maskanın arxasındakı siyasi reallıqlar gün kimi ortaya çıxır: Aİ həm daxilində, həm də xarici münasibətlərində ardıcıl siyasət yürüdə bilmir və bu səbəbdən ciddi siyasi deqradasiyaya (aşınmaya –red.) uğrayır.**

Transatlantik münasibətlərin bugünkü mənzərəsi, hər şeydən əvvəl, Avropa İttifaqının daxili zəifləməsi və geosiyasi çəkisinin azalması fonunda dəyərləndirilməlidir. ABŞ ilə münasibətlərdə yaranan gərginliklərin səbəbi də təkcə Vaşinqtonun mövqeyindəki dəyişikliklər deyil, daha çox Brüsselin öz daxilindəki iradə boşluğu və vizion çatışmazlığıdır.



Tarixən Aİ–ABŞ münasibətləri qarşılıqlı tamamlayıcılığa əsaslanırdı. Soyuq müharibə dövründə ABŞ təhlükəsizlik təminatçısı, Avropa isə demokratik modernləşdirmə laboratoriyası kimi çıxış edirdi. Lakin bu model yalnız qarşılıqlı güvən və siyasi yetkinlik mövcud olduqda funksionallığını saxlaya bilərdi. Bu gün isə Aİnin daxilində dərin siyasi parçalanmalar, suverenlik böhranı, populizmin yüksəlişi və liderlik böhranı onun qlobal mövqeyinə ciddi zərbə vurub.

"Brexit" bu prosesin simvolik başlanğıcı idi. Böyük Britaniyanın İttifaqdan çıxışı təkcə iqtisadi və siyasi itki deyil, həm də Aİ-nin dərin inteqrasiya modelinə qarşı fundamental etiraz idi. Ardınca Orta və Şərqi Avropa ölkələrində liberal dəyərlərə meydan oxuyan siyasi qüvvələrin güclənməsi, miqrasiya böhranı fonunda milli maraqların önə çıxması və Brüsselə qarşı artan narazılıq Aİ-nin daxili konsolidasiya qabiliyyətini sarsıtdı və Transatlantik münasibətlərdə bərabər tərəfdaşlıq ideyasını şübhə altına saldı.

Qurum uzun illərdir ki, "strateji muxtariyyət" ideyasını irəli sürsə də, reallıqda bu ambisiyalar siyasi iradənin və hərbi resursların çatışmazlığı fonunda öz əksini tapmır. Müdafiə və təhlükəsizlik məsələlərində Aİ-nin NATO-dan kənar alternativ mexanizm qurmaq cəhdləri ya bürokratik ləngliк, ya da üzv dövlətlərin maraqlarının üst-üstə düşməməsi səbəbindən iflic olub. Belə görünür ki, Aİ siyasi ritorikasında qlobal aktor obrazını canlandırmağa çalışsa da, təhlükəsizlik reallığında hələ də ABŞ-ın hərbi varlığına və NATO-nun qalxanına möhtacdır.

Bəzi hallarda Avropa liderləri, xüsusilə Fransa prezidenti Emmanuel Makron NATO-nu "beyin ölümü keçirmiş" qurum kimi tənqid etsələr də, elə həmin tənqidçilər də alternativ mexanizm ortaya qoya bilmirlər. Almaniya isə uzun illər boyu aşağı hərbi xərclərlə ABŞ-ın təhlükəsizlik zəmanətindən faydalanaraq, öz iqtisadi maraqlarını qoruyub. Avropa müdafiə siyasəti bir çox halda siyasi niyyət bəyanatlarından o yana keçmir.

Rusiya ilə sərhəddə yerləşən Baltik ölkələri və Şərqi Avropa dövlətləri üçün bu reallıq daha da kritikdir. 2014-cü ildə Krımın ilhaqından və xüsusilə 2022-ci ildə Rusiya–Ukrayna müharibəsinin başlanmasından sonra bu ölkələr Aİ-nin deyil, məhz NATO-nun – daha dəqiq desək, ABŞ-ın – təmin etdiyi təhlükəsizlik çətiri altında yaşamağın verdiyi nisbətən "rahatlıq"la mövcudluqlarını davam etdirirlər ki, elə bu amil də Aİ-nin geopolitik etibarlılığını sorğulayan sualları daha da gücləndirir.

Bu ziddiyyət Aİ-nin daxili ikiləşməsini də ortaya çıxardı: Şərqi Avropa ölkələri təhlükəni real və mövcud olaraq qəbul edərkən, Qərbi Avropa dövlətləri, xüsusilə Almaniya və Fransa, daha çox iqtisadi maraqların qorunmasını üstün tutdu. Bununla da, Aİ-nin vahid Rusiya siyasətindən danışmaq mümkün olmadı – ortada yalnız fraksiyalaşmış yanaşmalar, koordinasiyadan uzaq mövqelər və reaksiyaların zamanlamasında uyğunsuzluqlar qaldı.

NATO çərçivəsində ABŞ ilə birlikdə Rusiyaya qarşı sərt mövqe göstərmək istəyən Aİ öz təhlükəsizlik infrastrukturunun böyük hissəsini hələ də Amerikanın təmin etdiyi qoruma çətiri altında saxlayır. Aİ özü kollektiv təhlükəsizlik baxımından yetkin bir oyunçuya çevrilə bilməyib. Yəni siyasi ritorika ilə real imkanlar arasında açıq fərqlər var. Avropa siyasəti bu kontekstdə geosiyasi muxtariyyətdən və prinsipiallıqdan uzaq bir trayektoriyaya girib.

Aİ uzun illər ərzində Rusiya ilə münasibətlərini "strategiya" adı altında qeyri-müəyyənliklə idarə etdi. Dəyərlər və maraqlar arasında sıxışıb qalan Brüssel nə prinsipial mövqe göstərə bildi, nə də reallığa əsaslanan bir siyasət qura bildi və Aİnin Rusiya ilə bağlı diplomatik davranışı zamanla həm ziddiyyətli, həm də təsirsiz bir obraz aldı. Rusiya–Ukrayna müharibəsindən sonra Brüssel beynəlxalq hüququn pozulmasına qarşı bəyanatlarla çıxış etsə də, illərlə Rusiyanın enerji resurslarına asılı qalaraq bu ölkənin hərbi-siyasi gücünün maliyyələşdirilməsində dolayı yolla iştirak etdi.

Əslində, bu gün Aİ qlobal aktor olma iddiası ilə real güc imkanları arasındakı fərqin yaratdığı geosiyasi boşluğun içində çırpınır. Transatlantik əlaqələrin zəiflədiyi bir dövrdə Aİ-nin təhlükəsizlik arxitekturasını yenidən dizayn etməsi zəruridir. Əks halda, Avropa yalnız öz taleyini başqalarının qərarlarına bağlayan siyasi müşahidəçiyə çevrilə bilər.

Geosiyasi dinamikanın Sakit okean və Asiya istiqamətində dəyişdiyi bir dövrdə Aİ-nin hələ də özünü Avroatlantik mərkəzli dünyada tək güc mərkəzi kimi təqdim etməyə çalışması reallıqla uzlaşmır. ABŞ-ın diqqəti Çin və Hind-Sakit okean məkanına yönəlmişkən Aİ hələ də öz qonşuluğundakı proseslərə belə təsir göstərməkdə çətinlik çəkir. Açıq-aydın görünür ki, ABŞ bu gün Aİ-ni artıq strateji baxımdan bərabər tərəfdaş deyil, zəifləmiş regional oyunçu kimi qəbul edir.

Aİ özünü tez-tez "dəyərlər ittifaqı" kimi təqdim etsə də, Cənubi Qafqaz regionunda sərgilədiyi siyasət bu iddianı şübhə altına saldı. Sülh, sabitlik və beynəlxalq hüquqa hörmət prinsiplərini vurğulayan Brüssel bu prinsipləri reallıqda daha çox geosiyasi maraqların prizmasından şərh edir. Xüsusilə də, Azərbaycan və Ermənistan münasibətlərində nümayiş etdirilən açıq ikili yanaşmalar Aİ-nin regionda etibarlı vasitəçi olmaq potensialını zədələyir.

2020-ci ildə İkinci Qarabağ müharibəsindən sonra regionda yeni geosiyasi reallıq formalaşdı. Azərbaycan beynəlxalq hüquq çərçivəsində ərazi bütövlüyünü bərpa etdi, lakin Avropa İttifaqı bu prosesi hüququn qələbəsi kimi deyil, daha çox narahatlıq doğuran "qüvvə tətbiqi" kimi təqdim etdi. Aİ illərlə status-kvonu səssiz dəstəkləməklə faktiki olaraq işğala göz yumdu, indi isə yeni reallığı qəbul etməkdə çətinlik çəkir.

Avropa Parlamentinin bəzi qətnamələri, xüsusilə də Azərbaycana yönəlmiş tənqidi bəyanatlar Aİ-nin ikitərəfli münasibətlərdə balansı qorumaqda aciz olduğunu göstərir. Eyni zamanda, Ermənistan üçün göstərilən humanitar, siyasi və iqtisadi dəstək Brüsselin açıq tərəf tutduğunu ortaya qoyur. Halbuki vasitəçilik üçün əsas şərt neytrallıqdır.

Burada daha bir ziddiyyət də diqqət çəkir: Aİ bir tərəfdən regionda sülh təşəbbüslərinə dəstək verdiyini iddia edir, digər tərəfdən isə öz missiyalarını yalnız Ermənistan ərazisində yerləşdirməklə bu sülh təşəbbüsünü birtərəfli siyasi alətə çevirir. Avropa diplomatiyasının siması daha çox siyasi mövqe ifadə edən aktora çevrilir, neytral vasitəçi obrazı isə kölgədə qalır.

Bütün bunların fonunda Aİ-nin Cənubi Qafqaz strategiyası qeyri-konsistent, selektiv və dəyərlərdən çox maraqlara əsaslanan siyasət nümunəsi kimi görünür. Azərbaycan kimi tərəfdaş ölkələr üçün Aİ ilə münasibətlərdə etimad boşluğu yaradır, Ermənistan üçünsə təhlükəsizliyin Avropadan idxalı illüziyasını gücləndirir. Əslində, Aİ bu regionda özünü yalnız bəyanatlarla yox, real sülh təşəbbüsləri və balanslı münasibətlərlə göstərməlidir.

Bu gün Avropa İttifaqı artıq nə postsovet məkanında, nə də qlobal arenada ciddi təsir gücünə malik olan vahid, ardıcıl və təsirli aktor kimi görünür. Geosiyasi etibarsızlıq, siyasi parçalanma və selektiv dəyərlər yanaşması Brüsselin həm yaxın qonşuluqda, həm də qlobal miqyasda nüfuzunu sual altına alır. Aİ daxilində gedən siyasi və institusional proseslər göstərir ki, ittifaq artıq nə ideoloji baxımdan cəlbedicidir, nə də strateji baxımdan koordinasiyalıdır. Brüsselin sakit, lakin dərinləşən daxili böhranı onun öz gələcəyini və beynəlxalq mövqeyini sual altına alır.

İlk olaraq, Aİ-nin qərarvermə mexanizmlərində müşahidə olunan konsensus problemi ittifaqı paralizə edib. "Birlik içində fərqlilik" şüarı artıq gerçəkliyə çevrilməkdənsə, idarəolunmaz mozaikaya dönüb. Üzv ölkələr arasında dərin ideoloji parçalanmalar – xüsusilə Şərqi və Qərbi Avropa arasındakı fərqli təhlükə və dəyər anlayışı – Aİ-nin vahid səslə danışmasına imkan vermir.

Bu situasiya populist dalğanın yüksəlməsi fonunda daha da kritikləşib. Macarıstanda Viktor Orban, İtaliyada Meloni, Fransada Le Pen kimi siyasi aktorlar Aİnin əsas sütunlarını – liberal demokratiya, açıq bazar və vahid qərarvermə modelini – açıq şəkildə sorğulayır. Bu liderlər milli suverenlik və anti-Brüssel ritorikası ilə həm seçici dəstəyini artırır, həm də Aİ-nin daxilində "mərkəzdənqaçma" tendensiyasını gücləndirir.

Aİ-nin liderlik böhranı isə bu deqradasiyanın həm səbəbi, həm də nəticəsidir. Son illər Avropa Komissiyası və Avropa Şurası real siyasi liderlik nümayiş etdirmək əvəzinə, texnokratik idarəetməyə üstünlük verib. Belə bir vəziyyətdə ABŞ kimi böyük aktorlarla münasibətlərin idarə olunması daha da çətinləşir – çünki qarşı tərəf konkret qərar, lider və mövqe gözləyir, Aİ isə daxili uzlaşma axtarışında ilişib qalır.

Əlavə olaraq, Aİ bürokratik aparatının siyasi çevikliyin yerini tutmağa çalışması, Brüsselin getdikcə "normativ imperiya"-dan çox "idarəetmə maşını"na çevrildiyini göstərir. İttifaq artıq transformasiya edən dünyanın siyasi impulslarına reaksiya verə bilmir – yalnız mövcud nizamı qorumağa çalışır. Halbuki bugünkü dünya yeni baxış və risk alma cəsarəti tələb edir.

***Şəbnəm ZEYNALOVA,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

**Replika**

# "Eks"lərin kölgəsində: Paşinyan komandasına müxalifətin hücumu

**Ermənistan parlamentində növbəti dəfə dava düşüb. Müxalif "Ermənistan" blokunun və hakim "Vətəndaş sazişi" partiyasının deputatları bir-birinə girişiblər. Erməni mediasının yazdığına görə, səbəb parlamentin sədri Alen Simonyanın kobudluğu olub. Amma məsələ təkcə bunda deyil.**

Deməli, hakim partiyanın parlament fraksiyasının rəhbəri Hayk Konjoryanın çıxışı zamanı onunla "Ermənistan" blokunun deputatı Qeqam Manukyan arasında mübahisə yaranıb. Manukyan "Vətəndaş sazişi" partiyasının üzvünü yalan danışmaqda və manipulyasiyada ittiham edib. Mübahisəyə A.Simonyan da qoşulub. O, iqtidar nümayəndəsini dəstəkləyib və məqsədini açıq şəkildə bildirib.

Spikerin tonu müxalifət təmsilçisi Artsvik Minasyanı özündən çıxarıb. Sonuncu parlament sədrinin qərəzli mövqeyinə irad tutub: "Siz özünüzü spiker kimi yox, "Vətəndaş sazişi"nin vəkili kimi aparırsınız", – deyən Minasyan Simonyanı belə vəziyyətlərdə təmkinli davranmağa çağırıb. Simonyan isə istehzalı şəkildə gülümsünərək müxalifət təmsilçisinin tərəfkeşliklə bağlı fikirlərinin ona qürur hissi aşıladığını vurğulayıb. Hər şey də bundan sonra başlanıb.

Getdikcə əsəblər tarıma çəkilib. A.Simonyan nizam-intizam yaratmaq əvəzinə, vəziyyəti daha da gərginləşdirib. O, qeyri-rəsmi müraciət formasına keçib və təxribatçı tonunu gücləndirib. Nəticədə bəzi müxalif deputatlar ciddi şəkildə qəzəblənib və ayağa qalxıblar. Spiker onları ələ salıb. Müxalifətçilər yerlərinə oturmağa hazırlaşanda isə Simonyan "qalxmışdınız, indi oturun" kimi əmredici tərzdə dillənib. Bu, qarşı tərəfdə təxminən "bax, belə oturarsınız" şəklində assosiasiya doğurub.

Aşkar şəkildə əsəbləri tarıma çəkməyə davam edən Simonyanın sonuncu sözündən sonra, necə deyərlər, ara qarışıb, məzhəb itib. Vəziyyətin dramatik məcraya yuvarlandığını görən spiker isə təcili canlı yayımı dayandırmaq göstərişi verib.



Ümumən, son vaxtlar Ermənistan parlamentinin iclaslarında həyəcanlı anların yaşanması adi hal almaqdadır. Vəziyyətin gərginləşməsi hətta baş nazir Nikol Paşinyanın oradakı çıxışlarına da təsirini göstərir. Yəni, Nikol hansısa məsələyə dair fikirlərini açıqlayır, müxalifətçi deputatlar isə müxtəlif atmacalarla onun sözünü kəsirlər. Nəticədə hökumət rəhbəri əsəbləşərək tribunada əl hərəkətlərinə və qeyri-ordinar jestlərə keçir ki, bütün bunlar sosial şəbəkələrdə həm müzakirəyə çıxarılır, həm də lağ predmetinə çevrilir. Kənardan elə təəssürat yaranır ki, Paşinyan dövlət rəsmisi yox, psixi xəstədir.

Əlbəttə, Paşinyanın özünə qarşı çıxanları parlament tribunasından sakit tərzdə, amma sərt fikirlərə "qonaq etdiyi" hallar da olub. Bu baxımdan onun Ermənistanın ikinci prezidenti Robert Koçaryanın deputat oğlu ilə Levonla söz davasını xatırlatmaq mümkündür. Qeyd edək ki, Levon bir müddət əvvəl parlamentdə Nikola sual verərkən, onu "daşınmaz əmlak üzrə Azərbaycan agenti" adlandırmışdı. İkinci buna qarşılıq birincini ədəbli olmağa dəvət etmiş, əks təqdirdə xoşagəlməz durumla üzləşəcəyinə dair xəbərdarlığını çatdırmışdı. Ancaq məlumdur ki, Koçaryanın "gül balasında" bundan nəticə çıxarmaq yoxdur.

Onu da bildirək ki, Ermənistan parlamentinin ölkənin üçüncü prezidenti Serj Sarkisyanın yaxın deputatları da səsləndirdikləri ayrı-ayrı fikirlərlə iqtidar təmsilçilərini aşağılayır, hökumətin fəaliyyətinin yarıtmazlığına dair müxtəlif məqamları qabardırlar. Elə dünən Simonyanı qəzəbləndirən deputatlar da "Serjik"in "Ermənistan" blokunun üzvləridir.

Ümumən, belə təəssürat yaranır ki, həm Sarkisyan, həm də Koçaryan özlərinə yaxın şəxsləri deputat kimi parlamentə yalnız ara qarışdırmaq üçün göndəriblər. Onlar, həmçinin ictimai rəyə, Paşinyana və komandasına əhəmiyyətsiz yanaşdıqlarına dair mesaj da ötürürlər. Yeri gəlmişkən, belə bir mesajı Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyan da verir.

Bir qayda olaraq, "eks"lər öz fikirlərini, daha dəqiq desək, ittihamlarını digərlərinin dili ilə səsləndirirlər. Bunu Paşinyan da duyub. Məsələn, o, bir müddət əvvəl keçmiş prezidentləri debata çağırmışdı. İkincilərin nümayəndələri vasitəsilə cavabları belə olmuşdu: Paşinyan kimdir ki, biz onunla debata çıxaq? Ona görə də Nikol parlament tribunasından "eks"lərin öz qardaşlarını, oğullarını, hətta gəlinlərini belə ortaya atdığını bildirib, bir növ, məzələnib.

Yenidən sonuncu insidentə qayıdaraq deyək ki, görünür, A.Simonyan müxalifətçilərin hərəkətlərindən təngə gəlib, əsəbləri dözməyib. Ancaq spikerin parlamentin iclasının canlı yayımının dayandırılması göstərişindən sonra zalda nələrin baş verdiyi barədə məlumat verilmir. Tam mümkündür ki, Simonyan özü də yumruq davasına qoşulub. Hərçənd, maraqlı olan heç də bu deyil. Əsas məqam Ermənistan Milli Assambleyasında yaşananların doğurduğu biabırçı mənzərədir. Hesab edirik ki, erməni parlamentindəki acınacaqlı durum ölkənin özünün vəziyyətinə tam adekvatdır.

***Ə.RÜSTƏMOV***
***XQ***

**"Konstitusiya və Suverenlik İli"**

# Media təmsilçiləri məlumatlandırılıb

**Dünən Hüquq və İnsan Haqları İnstitutu "Konstitusiya və Suverenlik İli" çərçivəsində Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi ilə birgə bir sıra media qurumlarının nümayəndələri üçün məlumat sessiyası təşkil edib.**

"Konstitusiya ali hüquqi sənəd kimi: Əsas insan hüquq və azadlıqlarının Azərbaycan Respublikasının Konstitusiyasında təminatı" mövzusunda keçirilən tədbirdə 27 media nümayəndəsi iştirak edib.

İnstitutun İdarə Heyəti sədrinin müavini Vəfaddin İbayev tədbiri açaraq Medianın İnkişafı Agentliyi ilə təmsil etdiyi qurum arasında mövcud olan səmərəli əməkdaşlıqdan bəhs edib. Natiq, eyni zamanda, institutun jurnalistlər üçün də faydalı resursları və keçirilən tədbirləri barədə məlumat verib.

Medianın İnkişafı Agentliyinin İcraçı direktorunun müavini Natiq Məmmədli çıxışında "Konstitusiya və Suverenlik İli" çərçivəsində medianın qarşısında duran əsas vəzifələrdən danışıb. O bildirib ki, bu dövrdə hüquq və azadlıqların, konstitusiya prinsiplərinin cəmiyyətə düzgün çatdırılması medianın əsas məsuliyyətlərindəndir.

O, həmçinin medianın demokratik dəyərlərin təbliğində etibarlı və obyektiv platforma rolunu oynamasının vacibliyini də vurğulayıb.

İnstitutun təlimçi-ekspertləri Zümrüd Əlizadə və Heydər Həsən oğlu Əliyev insan hüquqlarının mahiyyəti, Konstitusiyada təsbit olunan əsas hüquqlar və beynəlxalq müdafiə mexanizmləri barədə geniş təqdimatla çıxış ediblər. Bununla yanaşı, Konstitusiyada təsbit edilən təhsil, əmək, mənzil, yaradıcılıq azadlığı, ana dilindən istifadə, mülki və siyasi hüquqlarla bağlı məsələlər də müzakirə olunub.

Məlumat sessiyası qarşılıqlı fikir mübadiləsi və iştirakçıların suallarının cavablandırılması ilə yekunlaşıb.

***Qabil YUSİFOĞLU***
***XQ***

# Postmünaqişə mərhələsində uğurlu liderlik



*I məqalə*

## Uğurlu lider

Azərbaycan Prezidentinin liderlik fəaliyyəti və əldə etdiyi təcrübə yalnız milli və regional miqyaslarda əhəmiyyətli deyildir. Onun, ümumilikdə, müasir dünya səviyyəsində nəzəri və praktiki dəyəri çox qiymətlidir. Çünki Prezident İlham Əliyev Avrasiya məkanında yeganə liderdir ki, ciddi bir münaqişəni həll etdi və ondan sonra hərbi konfliktin yaranmaması üçün olduqca səmərəli fəaliyyət göstərir. Siyasətçilər və analitiklər əmindirlər ki, bu fəaliyyət sayəsində Cənubi Qafqazda böyük müharibə ehtimalı minimumdur. Bu məqam bütövlükdə, postmünaqişə mərhələsinin özünü təsdiq etməsi baxımından prinsipial məna kəsb edir.

Əlbəttə, XXI əsrin ilk üç onilinin təcrübəsi göstərir ki, ümumilikdə, uğurlu liderlik çox sayda faktoru nəzərə almağı tələb edir. Burada hətta bir-birini təkzib edən kriteriyalar belə irəli sürə bilərlər. Lakin konkret regionda uğurlu olmağın aydın nəticələri özünü göstərirsə, burada bütün suallar aradan qalxır. Məhz bu kontekstdə Prezident İlham Əliyevin uğurlu liderlik nümunəsi bütün dünya üçün çox əhəmiyyətlidir.

Tədqiqatçılar və siyasilərin XXI əsrdə uğurlu liderliklə bağlı ifadə etdikləri fikirlərin müqayisəsi göstərir ki, həmin mövzunun aktuallığı getdikcə artır. Bu, xüsusilə "münaqişə", "dövlətlərarası münaqişə", "siyasi münaqişə" anlayışları və "postmünaqişə mərhələsi" ifadəsinin nəzəri dərki fonunda çox vacib görünür. Məqsədimiz vurğulanan aspektdə aktuallıq kontekstində Prezident İlham Əliyevin postmünaqişə mərhələsində liderlik təcrübəsi və uğurlu liderliyinin fəlsəfi təhlilini aparmaqdan ibarətdir. Öncə, bir sıra anlayışın yığcam izahını verək.

## Münaqişələr

Münaqişə (lat., conflictus – toqquşma) qarşılıqlı əlaqədə olan subyektlərin bir-birinə əks olan məqsədləri, mövqeləri, rəyləri və baxışlarının toqquşmasıdır. Bir qədər başqa ifadədə münaqişə müxtəlif məqsədləri olan iki və daha çox tərəfin mübarizəsi kimi dərk edilə bilər. "Münaqişə" termini sosial və siyasi hadisələrin təhlili zamanı istifadə edilə bilər.

Siyasi münaqişə iki və daha çox tərəfin (o cümlədən, dövlətlərin) konkret qarşılıqlı təsirlərinin nəticəsi, təzahürüdür. Burada dövlətlərin məqsədləri müxtəlif sferalar üzrə maraqlarını təmin etmək niyyəti ilə bağlı ola bilər. Buna görə də siyasi münaqişədə beynəlxalq hüquq, tarix, geosiyasət, mədəniyyət, demoqrafiya, ekologiya və s. baxımından haqlı və haqsız tərəf olur. Bunun düzgün müəyyən edilməsi siyasi münaqişənin taleyinə birbaşa təsir edir.

Dövlətlərarası münaqişə ölkələrin maraqlarının birbaşa və ya dolayısı ilə toqquşmasıdır. Onlar bu zaman qarşılıqlı iddialarla çıxış edirlər və açıq qarşıdurma şəraitində olurlar. Müəyyən həddən sonra onlar hərbi qarşıdurmaya, yəni müharibə səviyyəsində münaqişəyə girə bilirlər. Deməli, dövlətlərarası münaqişələr milli-dövlət maraqlarının bir-birinə uyğun gəlməməsi səbəbindən baş verir. Tədqiqatçılar vurğulayırlar ki, XXI əsrdə dövlətlərarası münaqişələr daha təhlükəli olmuş və inteqrasiya üçün ciddi əngələ çevrilmişlər. Burada mühüm məqamlardan biri kimi filosoflar "münaqişə edən tərəflərin mübarizənin nəticəsinin qələbə kimi təsəvvür etməsi ilə əlaqəlidir". Yəni dövlətlərarası münaqişədə (konkret halda müharibədə) hansı tərəfin real qalib olması və bunun birmənalı qəbul edilib-edilməməsi prinsipial əhəmiyyət daşıyır.

Yuxarıdakı təsnifatdan görünür ki, silahlı münaqişə "dövlətlər arasında silahlı qarşıdurmadır". Burada məqsəd dövlətlər arasında olan ziddiyyətlərin güc tətbiq etməklə həllinə nail olmaqdan ibarətdir. Lakin bu zaman müharibənin nə müddətə davam edəcəyini öncədən müəyyənləşdirmək müşküldür və hətta bir çox hallarda mümkün olmur. Burada qalibin kim olacağını da əvvəlcədən demək çətindir. Lakin müharibənin gedişində qüvvələr nisbəti haqqında fikri daha konkret ifadə etmək şansı yaranır. Buradan maraqlı fəlsəfi qənaət əldə etmək olur. O, dövlətlərarası silahlı münaqişələrin fərqli növlərə ayrılması ilə bağlıdır.

## Dövlətlərarası münaqişələrin növləri və kənar qüvvələr

Bu məsələ həm münaqişənin gedişatı və məqsədi, həm də nəticələrinin qiymətləndirilməsi ilə bağlıdır. Eyni zamanda, burada iki fərqli münaqişəni ayırmaq lazımdır. Birincisi, əgər hər hansı münaqişə bir dövlətin daxilində yaranırsa, lakin onun həll olunmasında hansısa nüfuzlu kənar qüvvə iştirak edirsə, münaqişədən sonrakı mərhələdə həmin dövlətlər arasında münasibətlərin öz xüsusiyyətləri meydana çıxır. Tədqiqatçılar, məsələn, Kolumbiya və ABŞ münasibətlərinin münaqişədən sonrakı mərhələdə xarakteristikasını məhz bu kontekstdə araşdırmışlar.

Məlumdur ki, Kolumbiyada uzun müddət hakimiyyətlə müxalif FARC arasında amansız və uzunmüddətli silahlı qarşıdurma olmuşdur. 2010-cu ildə hakimiyyət qüvvələrinin müharibənin gedişini dəyişməsi ilə yeni mərhələ başlanmışdır. Onu, ümumilikdə, postmünaqişə mərhələsində bərpa dönəmi adlandırırlar. 2016-cı il sentyabrın 26-da isə tərəflər arasında sülh müqaviləsi imzalandı. Ümidlər artdı. Hətta tədqiqatlarda siyasi partiyalar yaratmaqla siyasi inteqrasiyaya nail olmaq mümkünlüyü haqqında yazmağa başladılar.

Ancaq çox keçmədi aydınlaşdı ki, postmünaqişə mərhələsində sülh müqaviləsinə baxmayaraq barışa nail olmaq mümkün deyildir. Belə ki, məsələn, ümumxalq referendumu keçirmək planı və sülh müqaviləsini təsdiq etmək baş tutmadı. Bu prosesdə əsas səbəb kimi ABŞ–Kolumbiya münasibətlərinin münaqişənin gedişində və postmünaqişə mərhələsində xarakterini göstərirlər. Kolumbiya bəyan edir ki, münaqişə gedişində USAID-in yardımları neytral və səmimi olmamışdır. Amerikanlar öncədən milli maraqlarını təmin etmək üçün yardım etmişlər. Nəticədə, Kolumbiyada sağ konservator qüvvələr tədricən üstünlüyü ələ almışlar. Onların isə Vaşinqtona bağlılığı vardır.

Bu baxımdan yaranmış situasiya ilə bağlı Kolumbiya rəhbərliyinin 2025-ci ilin fevralında verdiyi bəyanat çox ibrətamizdir. Prezident Qustavo Petro USAID-in yadımından imtina edərək, onu "zəhər" adlandırmışdır. Həmin yardımlar Kolumbiya sərhədini dövlətin maliyyələşdirdiyi ordunun deyil, USAID-in yardımını alanların qorumasına yönəldilməli idi. Buna görə də Kolumbiya Prezidenti keçirdiyi brifinqdə açıq sual etmişdir: "Bizim ordu ABŞ-dandır, yoxsa Kolumbiyadan?"

## Bir haşiyə

Burada Azərbaycanla da bağlılığı olan bir haşiyə çıxmağa ehtiyac görürük. Biz, təqribən eyni ssenarinin Ermənistan tərəfdən sərhəddə ABŞ və Aİ-nin davranışlarında görürük. Belə ki, Aİ "mülki missiya" adı altında hərbi kontingenti Ermənistan tərəfdən sərhədə yerləşdirmişdir. Onların maliyyələşməsini də tam olaraq Aİ verir. Onda sual meydana çıxır: "Ermənistan sərhədini kim qoruyur: Qərbdən olan Ermənistan ordusu, yoxsa Ermənistandan olan Ermənistan ordusu"?

ABŞ isə Ermənistana hərbi kontingentini göndərir və onları yenə də Ermənistanın qonşuları ilə sərhədinə yerləşdirir. Bu "ordu"nu da Vaşinqton maliyyələşdirir. Yenə də sual yaranır: həmin ordu ABŞ-ın "erməni ordusudur" yoxsa Ermənistanın "erməni ordusu"?

Belə bir yekun mənzərə alınır: Ermənistan–Azərbaycan münaqişəsinin başa çatması ilə rəsmi İrəvan Kolumbiya rəhbərliyinin gördüyü təhlükələri görə bilmədən kənar qüvvələri regionda yerləşdirir. Belə bir şəraitdə postmünaqişə mərhələsində qalib dövlət olan Azərbaycan hansı siyasəti yeritməlidir? Məhz bu məqamda uğurlu liderə ehtiyac məsələsi özünü qabarıq göstərir. Özü də yalnız milli və regional deyil, həm də qlobal miqyasda uğurlu ola biləcək lider zərurəti ortaya çıxır.

Deməli, Kolumbiya məsələsi Ermənistan–Azərbaycan münaqişəsindən fərqli olsa da, qəribə tərzdə kənar qüvvələrin (konkret olaraq, Qərbin, USAID-in) təsiri aspektində oxşar situasiyaların yaranmasından xəbər verir. O da bir daha aydın olur ki, nəyə görə Azərbaycan Prezidenti USAID-i ölkədən qovdu! Burada başlıca şərt postmünaqişə mərhələsində uğurlu olmaq üçün yeni uğurlu liderlik zərurətini dərk etməklə bağlıdır. Məhz bu kontekstdə təhlilimizə davam edək.

## Müxtəlif şərtlərin qovşağında uğur formulu

Dövlətlərarası münaqişələrin başqa növünə keçmədən, yuxarıda aparılan təhlilin fonunda Azərbaycana aiddiyyatı olan bir sıra vacib məqamları vurğulayaq. Belə görünür ki, XXI əsrdə istənilən münaqişə təbiətən mürəkkəbdir və ona çoxlu təsirlər olur. Kolumbiyada bu təsirləri uzun illər duymuş və ondan nəticə çıxarmışlar. Cənubi Qafqazda Ermənistan da duymuş və ondan mənfi nəticələr çıxarmışdır. Belə ki, rəsmi İrəvan yenə də kənar himayədarlarına arxalanmaqda davam edir və postmünaqişə mərhələsi üçün çox təhlükəli addımlar atır. O sırada regiona Qərbin hərbi kontingentini tədricən dəvət etməsi və paralel olaraq sürətlə silahlanması xüsusi yer tutur.

Aydındır ki, bu cür vəziyyəti yaradan Nikol Paşinyan uğurlu lider ola bilməz. O, tam asılı vəziyyətdə olan və xarici qüvvələrin təsiri altında fəaliyyət göstərən baş nazirdir.

Bunun tam əksinə olaraq qalib Azərbaycanın müzəffər lideri konsturktiv və sülhyaradıcı fəaliyyət göstərməkdədir. "Sülhyaradıcılıq", ümumiyyətlə, müasir politologiyada və geosiyasi təlimlərdə, BMT-nin sənədlərində çox ciddi yer tutan mövzudur. Onun Cənubi Qafqaz proyeksiyası nəzəri baxımdan olduqca əhəmiyyətlidir. Məqalələr silsiləsində uğurlu liderliyin İlham Əliyev nümunəsinin siyasi-diplomatik xüsusiyyətlərini təhlil edərkən həmin özəlliyə ayrıca diqqət yetiriləcəkdir.

Beləliklə, Kolumbiya nümunəsi də göstərir ki, hətta daxili münaqişəni həll edəndə kənar qüvvələrin təsirləri qeyri-müəyyən vəziyyət yarada bilər. Buna görə də postmünaqişə mərhələsində liderin milli maraqlara dayanan müstəqil siyasi kurs müəyyən etməsi çox vacibdur. Bu isə sözün həqiqi mənasında yüksək siyasi zəka və böyük diplomatik məharət tələb edir. Bu iki şərtin prizmasında İlham Əliyevin uğurlu liderlik təcrübəsinin postmünaqişə mərhələsinə nəzər salmaq faydalı olar. Öncə münaqişənin digər növünə baxaq.

*(ardı var)*

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

**XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa edən Azərbaycan beynəlxalq birliyin bütün üzvləri, o cümlədən Afrika ölkələri ilə həm ikitərəfli, həm də çoxtərəfli əsasda əlaqələr qurmaq istiqamətində mühüm addımlar atıb. Həmin illərdə Azərbaycan ilə əməkdaşlığın genişləndirilməsinə maraq göstərən Afrika ölkələrindən biri də Əlcəzair Xalq Demokratik Respublikası olub. Əlcəzair müstəqilliyimizi tanıyan ilk ölkələrdən biridir. Ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasından 31 il ötür.**

# Əlcəzairlə ölkəmizi tale oxşarlığı da yaxınlaşdırır



Bu illər ərzində Əlcəzair ölkəmizin suverenliyinə və ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinə hörmət edilməsini birmənalı olaraq dəstəkləyib və bu mövqeyini müxtəlif qətnamələrin qəbulu zamanı nümayiş etdirib.

Azərbaycan Əlcəzair ilə ali və yüksək səviyyədə səfərləri və fəal təmaslar, eləcə də beynəlxalq platformalarda səmərəli əməkdaşlıq, parlamentlərarası əlaqələr və müxtəlif sahələrdə qarşılıqlı əlaqələri yüksək səviyyəyə qaldırıb. Əlcəzair Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü daim dəstəkləyib.

Afrika qitəsinin ən zəngin dövlətlərindən olan Əlcəzairlə ölkəmiz arasında iqtisadi əlaqələr, ticarət dövriyyəsi ildən-ilə artmaqdadır. Azərbaycanda xidmət, ticarət və kənd təsərrüfatı sahələrində Əlcəzair şirkətləti fəaliyyət göstərirlər, energetika və iqtisadi sahələrdə əməkdaşlıq inkişaf etdirilir. İki ölkə beynəlxalq təşkilatlar, o cümlədən BMT, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı çərçivəsində fəal əməkdaşlıq həyata keçirirlər. Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi müddətində ölkəmizə bütün sahələrdə dəstək göstərən dövlətlərdən biri məhz Əlcəzair olub.

Azərbaycan kimi Əlcəzair də işğala məruz qalıb, misli görünməmiş qəddarlıq, insanlıq əleyhinə cinayətlərlə üzləşib. 1830-1962-ci illəri əhatə edən Fransa işğalı dövründə 1,5 milyondan artıq əlcəzairli fransızlar tərəfindən qətlə yetirilib. Ümumilikdə, 10 milyona yaxın əlcəzairlinin fransız müstəmləkə dövrünün qurbanı olduğu bildirilir.

ARAYIŞ: 1954-cü il noyabrın 1-də ölkədə başlayan inqilab müstəqilliyin əldə edilməsi ilə başa çatdı. Bir əsrdən artıq davam edən amansız müstəmləkəçilik siyasətinə, misli görünməmiş zorakılığa, insanlıq əleyhinə və müharibə cinayətlərinə məruz qalmasına baxmayaraq Əlcəzair, nəhayət, azadlıq əldə edib. 1962-ci ilin martında Fransa atəşin dayandırılması haqqında Evian sazişini imzalayıb və Əlcəzairin müstəqilliyini tanıyıb. 1962-ci ilin sentyabrında Əlcəzair Xalq Demokratik Respublikası elan edilib.

***

Bəli, Əlcəzairlə Azərbaycanı oxşar tale birləşdirir. Bu gün üzləşdikləri haqsızlıqlarda da bənzərlik çoxdur. Hər iki müsəlman ölkəsinin dinc sakinləri eyni dinin və əqidənin daşıyıcısı olan Fransa və Ermənistanın soyqırımı siyasətindən bu gün əziyyət çəkirlər. Təəssüf ki, hər iki halda reallığa qərəzli yanaşma da var. Türkiyəni "erməni soyqırımı" törətməkdə ittiham edən, Xocalı soyqırımını isə görməzdən gələn Qərb Fransanın Əlcəzairdə törətdiyi qətliamlara göz yumur.

Haqq-ədalətin bərqərar olmasını əsas tutan ölkəmiz Qoşulmama Hərəkatına sədrliyi dövründə və hazırda keçmiş imperiyaların müstəmləkə üsul-idarəsindən əziyyət çəkən xalqların azadlığı və suverenliyi işinə dəstək verilməsi istiqamətində fəaliyyətini davam etdirir. Prezident İlham Əliyev Qoşulmama Hərəkatının Bakı Sammitində vurğulayıb ki, dekolonizasiya mühitində yaranmış Qoşulmama Hərəkatı bu mövzuya xüsusi önəm verilməlidir. Müstəmləkəçi dövlət Fransa Afrika, Cənub-Şərqi Asiya və digər ərazilərdə Qoşulmama Hərəkatının üzvü olan ölkələrə qarşı müstəmləkə keçmişinə, qanlı cinayətlərinə, eləcə də soyqırımı aktlarına görə üzr istəməli və məsuliyyətini etiraf etməlidir.

Azərbaycan, eyni zamanda, Fransanın hələ də neokolonial hökmranlıq siyasətindən əziyyət çəkən keçmiş müstəmləkə ölkələrinin, o cümlədən Afrikada yerləşən Niger, Mali, Burkina-Faso, Seneqal və s. kimi ölkələrin öz hüquqları və suverenlikləri uğrunda, həmçinin fransız imperialist hökmranlığından xilas olmaq üçün apardıqları mübarizəyə dəstək verməkdədir. Artıq Bakı şəhəri Fransa tərəfindən hüquqları tapdanan ölkələrin və azsaylı xalqların öz azadlıqları uğrunda bir araya gəldiyi beynəlxalq platformaya çevrilib. Ölkəmizin təşəbbüsü ilə keçirilən çoxsaylı beynəlxalq konfrans və forumlara Afrikanın keçmiş müstəmləkə ölkələrinin nümayəndələri də qatılaraq Fransanın neokolonial siyasətini ifşa edir, buna kəskin etirazlarını bildirirlər.

**Naxçıvan Dövlət Universitetinin "Ümumi hüquq" kafedrasının müəllimi Yunis Xəlilov** mövzu ilə bağlı XQ-yə bildirdi ki, Azərbaycan xarici siyasətində Afrika ölkələri ilə əlaqələrin inkişafına hər zaman xüsusi önəm verib: "Bu istiqamətdə Əlcəzair ilə münasibətlər strateji əhəmiyyət kəsb edir. Eyni zamanda, Fransa istibdadından əziyyət çəkmiş Afrika ölkələri ilə qurulan münasibətlər Azərbaycanın qlobal ədalətin bərpasına yönəlmiş siyasətinin təzahürüdür.



Əlcəzair 1991-ci il dekabrın 26-da Azərbaycanın müstəqilliyini tanımış, 1994-cü il aprelin 22-də isə iki ölkə arasında diplomatik münasibətlər qurulmuşdur. Bu münasibətlər zamanla siyasi, iqtisadi və mədəni sahələrdə əməkdaşlığın genişlənməsinə səbəb olmuşdur. Azərbaycan Respublikasının Əlcəzairdəki səfirliyi 2016-cı ildən fəaliyyət göstərir. 2015-ci ildən isə Əlcəzairin Bakıda diplomatik ofisi fəaliyyətə başlayıb. 2019-cu ildə ölkəmizdə Əlcəzair səfirliyi təsis olunub. Bu günədək iki ölkə arasında yüksək səviyyəli qarşılıqlı səfərlər və siyasi məsləhətləşmələr həyata keçirilib. 2023-cü ilin noyabrında Bakıda keçirilən ilk siyasi məsləhətləşmələr bu əlaqələrin dərinləşməsində mühüm rol oynayıb. Həmçinin Azərbaycan və Əlcəzair parlamentləri arasında dostluq qrupları fəaliyyət göstərirlər".

***

Əlcəzairin Azərbaycana yatırdığı investisiyalar və burada fəaliyyət göstərən şirkətlər iqtisadi əlaqələrin inkişafını göstərir. Ölkəmizin Əlcəzairlə dostluq və əməkdaşlıq münasibətlərində hüquqi əlaqələr də xüsusi yer tutur. Hələ 2017-ci ildə iki ölkənin Ədliyyə Nazirlikləri arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumunun imzalanması ikitərəfli münasibətlərin inkişafına güclü təkan verib.

Göründüyü kimi, Azərbaycanın Əlcəzair və Fransa istibdadından əziyyət çəkmiş Afrika ölkələri ilə münasibətləri, ölkəmizin beynəlxalq siyasətdə ədalət və həmrəylik prinsiplərinə sadiqliyinin göstəricisidir. Bu münasibətlər, həm ikitərəfli, həm də çoxtərəfli formatda davam etdirilərək, qarşılıqlı faydalı əməkdaşlığın inkişafına xidmət edir.

***Azər MUSTAFAYEV***

Siyasi təhlil

# Xarici siyasətin prioritetləri







**Müasir politologiyada sistem yanaşması geniş yayılmışdır. Politoloqlar regional və qlobal səviyyədə mövcud olan ən müxtəlif siyasi xarakterli məsələlərin tədqiqinə bir çox komponentlərin qarşılıqlı əlaqəsində yanaşmağa üstünlük verirlər. Bu, əksər hallarda problemin müxtəlif fənlərin kəsişməsində araşdırılması anlamına gəlir.**

Kamal Adıgözəlovun 2025-ci ildə çapdan çıxmış "Yeni tarixi mərhələdə Azərbaycanın xarici siyasətinin prioritetləri: politoloji təhlil" (Bakı, Mütərcim, 264 s.) adlı monoqrafiyası aktual siyasi-nəzəri problemin sistemli araşdırma nümunəsidir. Müəllif yeni tarixi mərhələ üçün Prezident İlham Əliyevin müəyyən etdiyi 14 prioritet istiqaməti vahid məntiqi çərçivədə və tədqiqat metodologiyası kontekstində təhlil edə bilmişdir. Etiraf edək ki, kitab ciddi tədqiqat işidir. Orada toxunulan məsələlər həm sistemli, həm də Azərbaycanın dövlət maraqlarına tam uyğun şəkildə araşdırılmışdır. Bu fikrin işığında mühüm hesab etdiyimiz bir sıra politoloji məqamlar üzərində dayanaq.

## Prioritetlərin sistemləşdirilməsi

Əsərdə prioritet istiqamətlərin 5 hissədə qruplaşdırılması kitabın həm struktur özəlliyinə, həm də bütöv mənzərənin siyasi-nəzəri təhlilində qarşıya qoyulan məqsədə uyğundur. Bu məqamı prioritetlərin məzmunundan görmək mümkündür. Yeni tarixi mərhələdə Azərbaycanın xarici siyasətinin prioritetləri aşağıdakı kimi müəyyən edilmişdir: "Milli maraqlara və beynəlxalq hüquqa söykənən müstəqil və prinsipial xarici siyasətin davam etdirilməsi; Azərbaycan tərəfindən irəli sürülmüş 5 əsas prinsip əsasında Ermənistanla sülh müqaviləsinin imzalanması; Cənubi Qafqazda davamlı sülhün bərqərar olması və onun dayanıqlı inkişaf bölgəsinə çevrilməsi ilə bağlı səylərin davam etdirilməsi; Azərbaycanın beynəlxalq mövqelərinin daha da möhkəmləndirilməsində, beynəlxalq təhlükəsizlik arxitekturasının formalaşdırılmasında və qlobal problemlərin həllində rolunun artırılması; Azərbaycanın geosiyasi təhlükələrdən və hibrid təhdidlərdən qorunması; Azərbaycanın qeyri-münaqişə gündəliyinin formalaşdırılması; qonşu ölkələrlə ikitərəfli münasibətlərin möhkəmləndirilməsi; türk dövlətləri ilə əlaqələrin və Türk Dövlətləri Təşkilatının daha da gücləndirilməsi; strateji tərəfdaşların və müttəfiqlərin sayının artırılması; Azərbaycanın iqtisadi və enerji diplomatiyasının inkişaf etdirilməsi; alternativ və bərpaolunan enerji növlərinin artırılması hesabına "Yaşıl enerji" gündəliyinin irəli aparılması və iqlim dəyişikliyinə qarşı qlobal mübarizəyə töhfənin davam etdirilməsi; Azərbaycanın nəqliyyat və logistika mərkəzi rolunun daha da gücləndirilməsi; beynəlxalq təşkilatlarda fəal iştirakın təmin edilməsi; multikulturalizm və tolerantlıq kimi dəyərlərə sadiq qalaraq, dünyada hökm sürən islamofobiya və neokolonializm meyillərinə qarşı mübarizə aparılması".

Göründüyü kimi, bu istiqamətlərdə milli, regional və qlobal miqyasda xarici siyasətin başlıca parametrləri ifadə edilmişdir. Bundan başqa, politoloji baxımdan əhəmiyyətli olan bir məqamı da vurğulamaq istərdik. Biz prioritetlərin konkret səviyyələrə (milli, regional və qlobal) aid olması ilə yanaşı, funksional olaraq da siyasi xüsusiyyətlərə malik olduğunu nəzərdə tuturuq. Belə ki, prioritetlərin kompleks halda reallaşması 4 siyasi fəaliyyət prinsipini ehtiva edir. Bunlar multivektoralizm, multilateralizm, multiregionalizm və multikulturalizmdir. Bu siyasi fəaliyyət prinsipləri müasir mərhələdə perspektivli yanaşmalara əsaslanır. Hesab edilir ki, onlar müasir dünyanın geosiyasi, siyasi və diplomatik özəlliklərinə tam uyğundur.

## Geosiyasi aspekt

Müasir geosiyasət bir-biri ilə sıx əlaqədə olan və müxtəlif səviyyələri təmsil edən parametrlərin sistemi kimi təsəvvür edilir. Bu zaman yaranmış geosiyasi mənzərənin riskli, çoxaspektli, qeyri-müəyyən və proqnozlaşdırılması çətin olduğu tezisi irəli sürülür. Daha dəqiq desək, hər bir müstəqil dövlət elə xarici siyasət parametrləri müəyyən etməlidir ki, bu cür mürəkkəb və çoxşaxəli geosiyasi dinamikaya adekvat reaksiya vermək imkanı olsun.

Multivektoralizm bu anlamda siyasi istiqamətlərin potensial olaraq mövcudluğunu təmin edir. Multiregionalizm xarici siyasəti regional miqyasdan regionlararası miqyasa proyeksiya etməyə imkan verir, eyni zamanda, dövlətin milli maraqlarını təmin etmək üçün siyasi zəmin yaradır. Multilateralizm qlobal miqyasda çoxaspektli əlaqələr qurmaq üçün siyasi baza hazırlamağa yardım edir. Xarici siyasətin bu prioriteti dövlətə, bütövlükdə, münasibətləri müxtəlif aspektlərdə və bir-biri ilə sıx əlaqədə qurmaq şansı meydana gətirir. Nəhayət, multikulturalizm dövlətin daxili birlik nümunəsini beynəlxalq müstəviyə uğurlu proyeksiya etmək üçün faydalıdır. Əsərdə bu müddəaların işığında Azərbaycanın xarici siyasətinin prioritetlərinin geosiyasi kontekstdə təhlili maraq doğurur. Əlbəttə, bu istiqamətdə daha geniş təhlil aparmaq mümkündür. Lakin bütün hallarda xarici siyasətin prioritet istiqamətlərinin vurğulanan kontekstdə tədqiqi politoloji baxımdan çox əhəmiyyətlidir.

## Siyasi aspekt

Politoloqlar dünya səviyyəsində siyasətin çox mürəkkəbləşdiyini və bunun fonunda riskli, qeyri-müəyyən faktorlu və çoxssenarili proqnozlaşdırmanı əhəmiyyətli dərəcədə nəzərə almalı olan fəaliyyət kimi qiymətləndirirlər. Geosiyasətdə olduğu kimi, siyasət kursunda da bu xüsusiyyət əvvəllər müşahidə edilməyən səmərəli üsullar, yanaşmalar və təhlil metodları tələb edir. Əsərdə aparılan siyasi təhlil vurğulanan tələblərə cavab verir. Çoxistiqamətliliklə, çoxregionluluq, çoxaspektlilik və çoxmədəniyyətlilik siyasi məntiq çərçivəsində vahid məqsədə xidmət edir. Məsələn, əsərdə göstərilir ki, multivektoral xarici siyasət istiqaməti multiregionalizmin siyasi dərki üçün çox faydalıdır. Çünki siyasətin çoxistiqamətliliyi özlüyündə regionlararası münasibətlərin mahiyyəti və təbiətinə uyğun mənzərə yaradır. Bu baxımdan çoxistiqamətlilik kitabda multiregionalizm istiqamətində uğur qazanmağın təməl prinsiplərindən biri kimi nəzərdən keçirilir. Eyni məntiqlə multilaterallığın və multikulturalizmin də siyasi-nəzəri funksiyalarını vurğulaya bilərik.

## Diplomatik aspekt

Əsərdə məsələnin bu tərəfinin də təhlili yer almışdır. Çünki prioritet istiqamətlərin həm ayrılıqda, həm də qarşılıqlı əlaqədə reallaşması üçün adekvat diplomatiya növü tətbiq edilməlidir. Doğrudur, kitabda bu barədə geniş bəhs edilmir. Lakin tədqiqatın məntiqindən özlüyündə aydın olan bir sıra diplomatik xüsusiyyətlər görünür.

Məlumdur ki, bu gün diplomatiyanın müxtəlif növləri bir-birindən fərqləndirilir. Onların sırasında "şəbəkə diplomatiyası" deyilən bir üsuldan da bəhs edilir. Şəbəkə diplomatiyası hamılıqla qəbul edilməsə də, bu kitabın təhlili kontekstində bir maraqlı özəlliyə nəzər salmağa imkan verir. Məsələ onunla bağlıdır ki, Azərbaycanın yeni tarixi mərhələdə xarici siyasətinin prioritetləri sanki bir yerdə müəyyən məntiqi bağlılığı olan "şəbəkə" yaradır. Onun reallaşması üçün də diplomatiya "şəbəkə" mahiyyətli olmalıdır, yəni, diplomatiya həm dövlətlər, həm də təşkilatlar səviyyəsində qarşılıqlı əlaqədə aparılmalıdır. Bu isə, faktiki olaraq, "şəbəkə diplomatiyası"nın tətbiqini aktuallaşdırır. Əsərdə Azərbaycanın xarici siyasətinin həm dövlətlərarası, həm də müxtəlif beynəlxalq və regional təşkilatlar istiqamətlərində əhəmiyyəti üzərində dayanılır.

## Neokolonializm və ksenofobiya ilə mübarizə

Kitabda bu istiqamətin ayrıca nəzərə alınması olduqca əhəmiyyətlidir. Çünki xarici siyasətdə indi neokolonializm və ksenofobiya ilə mübarizə regionlararası miqyasdan qlobal miqyasa çıxış əldə etmək üçün əsas mövzulardan biri kimi nəzərdə tutulmuşdur. Azərbaycan Prezidenti realpolitik çərçivəsində praktiki fəaliyyəti ilə də bu istiqamətdə mühüm uğurlar əldə etmişdir. Əlbəttə, onların siyasi-nəzəri cəhətdən ümumiləşdirilməsi aktual məsələlərdən biridir. Əsərdə göstərilir ki, neokolonializm və ksenofobiya ilə mübarizə Prezident İlham Əliyevin konseptual yanaşması əsasında həyata keçirilir. İndi dünyanın hər regionunda Azərbaycan liderinin bu cəsarətli siyasətinin səmərəliliyini görürlər. Bu kontekstdə Azərbaycan siyasətində tolerantlığın oynadığı rol da kitabda tədqiq edilmiş və maraqlı fikirlər irəli sürülmüşdür.

Nəhayət, multikulturalizm və tolerantlıq kontekstlərində xarici siyasətin prioritetlərinin həyata keçirilməsində "yumşaq güc"ün tətbiqinin araşdırılması maraq doğurur. Çünki "yumşaq güc" anlayışının Azərbaycanın xarici siyasətində aldığı məzmun və nəzərdə tutulan məqsədləri təhlil etmək vacibdir. Bu baxımdan müəllif yığcam şəkildə Cozef Nayın siyasi leksikona daxil etdiyi "yumşaq güc" anlayışının müxtəlif dövlətlər tərəfindən tətbiq edilməsinin politoloji xüsusiyyətlərini aydınlaşdırmağa çalışmışdır.

*

Kitabla bağlı üzərində dayandığımız məsələlər, təbii ki, onun məzmununun bütün çalarlarını ehtiva etmir. Lakin onlar müəllifin problemin təhlilinə yanaşması və bu zaman yararlandığı üsullar haqqında kompleks təsəvvürlər əldə etməyə imkan verir. Belə görünür ki, xarici siyasətin hələ çox araşdırılacaq prioritetləri ilə bağlı Kamal Adıgözəlov maraqlı nəzəri təhlil ortaya qoymuşdur. Ümid edirik ki, həm müəllif, həm də digər tədqiqatçılar bu aktual mövzunun araşdırılmasına davam edəcəklər.

*Hikmət BABAOĞLU,*
*Milli Məclisin deputatı,*
*siyasi elmlər doktoru, professor*

---

23 Aprel Ümumdünya Kitab və Müəlliflik Hüququ Günüdür

# “Kitabi - Dədə Qorqud” dastanından başlanan ənənə

**Bu əlamətdar gün münasibətilə yazı hazırlamaq istərkən iki mühüm faktı xatırladım. Birincisi, 2000-ci ilin aprelində (yeri gəlmişkən, iki həftə əvvəl həmin tarixi yubileyin 25 yaşı tamam oldu) Bakıda “Kitabi-Dədə Qorqud” dastanının 1300 illik yubileyi keçirilirdi. Müstəqilliyini bərpa etməsinin hələ 10 ili tamam olmayan dövlət üçün həmin beynəlxalq tədbir olduqca möhtəşəm idi. O zaman yubileyin iştirakçısı olan görkəmli alim Cavad Heyətdən soruşmuşdum ki, biz Dədə Qorqudun 1300 illiyini qeyd edirik, Türkmənistanda isə onun 1500 illiyi qeyd olunur. Hansı daha dəqiqdir?**

**Kitab nəşri hər ölkənin, hər xalqın mədəniyyətində, ümumiyyətlə, mənəvi, ictimai həyatında çox görkəmli yer tutur. Hər birimiz, ilk növbədə, ancaq kitab vasitəsilə təhsil almış, elmlərə yiyələnmiş, həyatda yaşamağa, fəaliyyət göstərməyə hazırlaşmışıq. Ona görə də hər birimiz kitablara borcluyuq. Həm kitabları yazıb-yaratmaq, həm də onları nəşr etmək əsas vəzifələrimizdən biridir. Bunun üçün mümkün olan bütün tədbirləri görməliyik. Mən respublikanın prezidenti kimi bunu əsas vəzifələrimdən biri sayıram.**

**Ulu öndər Heydər Əliyevin M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasında “Vətənə, dövlətə, xalqa sədaqət andı” adlı miniatür kitabın təqdimat–sərgisində çıxışından.**

**Bakı, 3 iyun 1995-ci il.**

Alim çox maraqlı cavab vermişdi: “Biz Dədə Qorqud kitabının yubileyini qeyd edirik, türkmənlər isə dastanın siz deyən yaşını qeyd edirlər. Bunlar çox fərqli məsələlərdir. Ola bilsin ki, hansısa alimin tədqiqatları nəticəsində həmin dastanın 1600, yaxud 1700 il əvvəl yarandığı da söylənilsin. Kitabın tarixi isə dəqiqdir və dünya alimlərindən heç kəs bizim Dədə Qorqud kitabımızın 1300 yaşının olduğunu danmır”.

Bəli, bu bizim kitab tariximizin qədimliyini göstərən faktdır. Doğrudur, həmin tarixdən əsrlərlə əvvəl yaranmış memarlıq nümunələrimizin üstündə müəllif hüquqlarının qorunması məqsədiylə daş kitabələr yazılırdı. Yəni sifarişçi və memarın adı göstərilirdi. Ancaq həqiqi kitabımızın ilk nümunəsi məhz Dədə Qorqudun kitabı idi.

İkincisi, görkəmli akademik Rafael Hüseynov Birinci vitse-prezident Mehriban xanım Əliyeva haqqında hazırladığı məqaləni “O, kitablı evdə (yəni çoxlu kitabın olduğu evdə – İ.M.) dünyaya gəlmişdi” cümləsi ilə başlayırdı. Bu fakt isə kitabın insan həyatındakı rolunu söyləmək baxımından olduqca dəyərlidir.

Qərəz, 23 Aprel Ümumdünya Kitab və Müəlliflik Hüququ Günüdür. Məlum mənbələrdə qeyd edilir ki, bu barədə qərar 1995-ci ildə Parisdə UNESCO-nun Baş Konfransında qəbul edilib. 1996-cı ildən etibarən isə kitaba və müəlliflərə hörmət əlaməti olaraq bu gün bütün dünyada qeyd olunur. Əlavə edilir ki, hər il aprelin 23-də keçirilən müvafiq tədbirlərdə kitabların geniş əhatə dairəsi – keçmiş və gələcək, nəsillər və mədəniyyətlər arasında körpü olduğu bir daha ictimaiyyətin diqqətinə çatdırılır. Kitabşünas mütəxəssislərin (yeri gəlmişkən, Azərbaycanda bu ixtisas son 20 ildə formalaşmışdır) fikrincə, kitablar insanlara fikir mübadiləsi aparmağa, məlumat almağa və müxtəlif xalqların mədəniyyətlərinin zənginliyini ötürməyə kömək edir, onları ayıran məkan və zamandan asılı olmayaraq insanlar arasında geniş dialoq üçün imkanlar açır. Eləcə də kitabların şəxsi inkişafı təşviq etmək və stimullaşdırmaq üçün danılmaz potensialı var. Onu da yada salaq ki, ölkəmizdə Ümumdünya Kitab



və Müəlliflik Hüququ Günü 1997-ci ildən qeyd edilir.

O ki qaldı, həmin əlamətdar günün adındakı 2-ci istiqamətə – yəni Müəlliflik Hüququ məsələsinə, xatırlatmalıyıq ki, bu hüquqlar ölkəmizdə daim qorunsa da, Prezident İlham Əliyevin 30 avqust 2005-ci il tarixli fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyi haqqında Əsasnamə“-nin icrasına başlanılmasından sonra proses birbaşa dövlət qurumlarının nəzarəti altndadır. Həmin sənədə əsasən, Müəllif Hüquqları Agentliyi “müəlliflik hüququ, əlaqəli hüquqlar, Azərbaycan folkloru nümunələrinə (ənənəvi mədəni nümunələrinə), inteqral sxem topologiyalarına və məlumat toplularına əqli mülkiyyət hüquqları (bundan sonra – əqli mülkiyyət hüquqları) sahəsində dövlət siyasətini həyata keçirən, normativ hüquqi tənzimlənməni, əqli mülkiyyət sahəsinin inkişafını təmin edən, bu sahədə fəaliyyəti əlaqələndirən” “mərkəzi icra hakimiyyəti orqanı”dır.

Onu da xatırladaq ki, Prezident İlham Əliyevin “İstehlak bazarına nəzarət, standartlaşdırma, metrologiya və əqli mülkiyyət hüquqları obyektlərinin mühafizəsi sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” 2018-ci il 20 aprel tarixli sərəncamına əsasən, Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyinin və Patent və Əmtəə Nişanları Mərkəzinin birləşmə formasında yenidən təşkili yolu ilə Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi yaradılıb.

Bildirilir ki, müəlliflik hüququ – elm, ədəbiyyat və incəsənət əsəri müəlliflərinin hüquqlarını ifadə edən hüquqi termindir. Obyektiv mənada müəlliflik hüququ əsərlərin yaradılması və istifadəsi üzrə münasibətləri tənzimləyən hüquqi normaların məcmusudur və qorunma aləti kimi çıxış edir, subyektiv mənada isə öz-özlüyündə əsərlərin yaradıcılarına məxsus olan şəxsi (qeyri-əmlak) və əmlak (iqtisadı) hüquqlarıdır və bu hüquqlar müstəsna xarakter daşıyır.

Yeri gəlmişkən, müəlliflik hüququ barədə danışan mütəxəssislər əqli mülkiyyət hüquqlarını da xüsusilə qabardırlar. Əqli fəaliyyət hüququ isə professional təcrübədə müəlliflik hüququ, əlaqəli hüquqlara, ənənəvi mədəniyyət nümunələri – folklor, inteqral sxem topologiyaları, məlumat toplularına olan hüquqlara, həmçinin özündə ilk növbədə patentləri, əmtəə nişanları və coğrafi göstəriciləri birləşdirən sənaye mülkiyyətinə olan hüquqlara bölünür. Bildirilir ki, Azərbaycan Respublikası Konstitusiyasının 30-cu maddəsinə əsasən, “Hər kəsin əqli mülkiyyət hüququ vardır. Müəlliflik hüququ, ixtiraçılıq hüququ və əqli mülkiyyət hüququnun başqa növləri qanunla qorunur”.

İki il qabaq – ulu öndər Heydər Əliyevin 100 illiyi münasibətilə Əqli Mülkiyyət Agentliyində keçirilən “Ümummilli lider Heydər Əliyev Azərbaycan əqli mülkiyyət sisteminin yaradıcısıdır” mövzusunda elmi-praktik konfransda qeyd edilmişdi ki, Heydər Əliyev müəlliflərə və yaradıcı şəxslərə onların şəxsi hüquqları ilə yanaşı, əmlak (iqtisadi) hüquqlarını da qaytararaq, yaradıcılığın həvəsləndirilməsinə, mədəni irsin zənginləşdirilməsinə əsas yaratmış, müəllifin iradəsinin muxtariyyətini bərpa etdirərək və əsərdən istifadəyə müəllif icazəsini ön plana çəkdirərək, gələcək müəlliflik hüququna əsaslanan “mədəni” sənayenin təməl daşını qoymuşdur.

Məhz Heydər Əliyevin ölkəmizə rəhbərliyinin 2-ci dövründə Azərbaycan Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) Bern Konvensiyası, Cenevrə Konvensiyası, Roma Konvensiyası, İnternet müəllif-hüquq müqavilələrində və digər mötəbər beynəlxalq təsisatlarda və qurumlarda fəal iştirak etmiş, ÜƏMT-nin diplomatik konfranslarında rəhbər orqanlara seçilmişdir.

Onu da xatırladaq ki, Prezident İlham Əliyevin həyata keçirdiyi institusional islahatlar çərçivəsində uzun illər bir-birindən ayrılıqda fəaliyyət göstərən sənaye mülkiyyətinin və müəlliflik hüququnun bir örtük altında birləşdirilərək, Əqli Mülkiyyət Agentliyinin yaradılması dövlətimizin başçısının bu sahəyə olan diqqət və qayğısının növbəti təzahürüdür. Məhz buna görə əqli mülkiyyət sisteminin qarşısında duran vəzifələr ölkənin innovasiya siyasəti ilə müəyyən edilir və ölkədə həyata keçirilən iqtisadi islahatlara xidmət edir.

Çox təəssüf ki, beynəlxalq aləmdəki bəzi qarafikirli siyasətçilərin himayədarlıq etdiyi Ermənistan dövləti son 35 ildə azərbaycanlıların bütün təməl hüquqları kimi, müəlliflik hüquqlarını da vəhşicəsinə pozmuşdur. Yüzlərlə Azərbaycan–türk və alban abidələrinin üstündəki daş kitabələri sökərək yerinə erməni xaçkarlarının yapışdırılmasını məhz hay kimi barbar və saxtakarlar bacara bilərdi. Təəssüf ki, müəlliflik hüqoquna böyük önəm verən UNESCO Ermənistan rəhbərliyinin həmin vəhşiliyini illər boyu görmək istəmədi və “görmədi”.

Bədnam qonşularımızın və onların imperialist himayədarlarının murdar əməllərinə baxmayaraq, ölkəmiz son illərdə Cənubi Qafqazda əqli mülkiyyət sahəsində ən qabaqcıl dövlət kimi təqdim olunur. Elə dünya əqli mülkiyyət ictimaiyyəti də Azərbaycanın bu sahədəki uğurlarını tanıyır, qəbul edir və alqışlayır.

*İttifaq MİRZƏBƏYLİ*

# Ermənistan Qərbin “poliqonu” olmaq yolunu seçib

**Ermənistan iqtidarı “eyni vaxtda iki stulda əyləşmək” siyasətini davam etdirir. Ölkə həm Rusiyanın qurub yaratdığı Avrasiya İqtisadi İttifaqı və Gömrük İttifaqında təmsil olunur, bu əməkdaşlıq platformalarının verdiyi imtiyazlardan faydalanır, həm də Avroatlantik strukturlara inteqrasiya etməyə çalışır. Əgər rəsmi İrəvan Rusiya ilə əməkdaşlıqdan daha çox iqtisadi fayda əldə edirsə, Qərblə yaxınlaşmaqdan siyasi mənfəət güdür.**



Maraqlıdır ki, Nikol Paşinyan iqtidarının Moskva ilə əlaqələrinin səviyyəsi Rusiya–Ukrayna müharibəsinin gedişi ilə düz mütənasibdir. Ukrayna qoşunları irəliləyəndə və beynəlxalq vəziyyət Kiyev üçün əlverişli olanda Ermənistan da Rusiyadan üz döndərir. Rusiya ordusu hücuma keçəndə və beynəlxalq arenada bu dəfə Moskva üçün uyğun şərait yarananda İrəvan üzünü Kremlə çevirir. Bir sözlə, qonşularımız əsl hay xislətinə uyğun davranış nümayiş etdirirlər. Yeri gəlmişkən, qeyd edək ki, bu xislət əsrlərdir dəyişməz olaraq qalır.

Dördüncü ayını yola salmaq üzrə olduğumuz 2025-ci il də Paşinyan iqtidarının Qərblə, xüsusilə təhlükəsizlik və müdafiə sahələrində əlaqələrin dərinləşdirilməsi istiqamətində ardıcıl siyasi kurs nümayiş etdirməsi ilə seçilir. Ermənistan dövlətçiliyinin yaranmasında müstəsna xidmətlərə malik ənənəvi müttəfiqi Rusiya ilə münasibətlərin soyuması fonunda İrəvan getdikcə Qərbin müdafiə təşəbbüslərinə cəlb olunur. Bu da təkcə rəsmi şəxslərin bəyanatları ilə deyil, həm də hərbi əməkdaşlıq sahəsində konkret addımlarla müşayiət olunur.

2025-ci il martın 26-da ölkə parlamenti “Ermənistan Respublikasının Avropa İttifaqına üzvlüyü prosesinin başlanması haqqında” qanun layihəsini ikinci oxunuşda qəbul edib. Cəmi bir neçə gün sonra – aprelin 4-də isə prezident Vaaqn Xaçaturyan qanunu imzalayıb. Bununla da Hayastanın Avroatlantik məkana inteqrasiyası istiqamətində daha bir addım atılıb. Doğrudur, ekspertlər Ermənistanın yaxın gələcəkdə Avropa İttifaqına (Aİ) üzv olacağına skeptik yanaşırlar. Buna baxmayaraq, belə bir təşəbbüsün qanunverici orqana çıxarılması və qəbulu vacib ismarıcdır. Xarici işlər nazirinin müavini, bu yaxınlarda Ermənistanın BMT-dəki daimi nümayəndəsi vəzifəsinə təyin edilmiş Paruyr Ovannisyan qanun layihəsinə müdafiə və təhlükəsizlik məsələləri ilə bağlı yeni fəslin əlavə olunduğunu açıqladı. Ovannisyan həvəslə bildirdi ki, Ermənistan və Aİ arasında hərtərəfli və genişləndirilmiş tərəfdaşlıq sazişi İrəvan və Brüsselin cari müzakirələrinin gündəmindədir. Erməni diplomat əlavə edib ki, artıq müdafiə sektorunda çox konkret, nəzərəçarpan proqram var. Bu proqram üzrə saziş hazırdır və yaxın vaxtlarda imzalanacaq. Onun sözlərinə görə, bu, Aİ-nin ümumi təhlükəsizlik və müdafiə siyasəti çərçivəsində fəaliyyət göstərən missiyalara da aiddir ki, bu da Avropa Sülh Fondundan istifadə etməyə imkan verəcək. Xatırladaq ki, ötən il aprelin 5-də ABŞ Dövlət katibi, Avropa Komissiyasının prezidenti və Ermənistan baş naziri arasında Brüsseldə baş tutan üçtərəfli görüşdən sonra imzalanan sənəddə Ermənistanın Avropa Sülh Fondu vasitəsilə silahlandırılmasına dair məqamlar da yer alıb.

İrəvanla Aİ arasında əlaqələrin möhkəmləndirilməsinə yönəlmiş tədbirlər sırasında Ermənistanın Aİ yanında hərbi attaşesinin təyin olunmasını, həmçinin təhlükəsizlik şurasının katibi Armen Qriqoryanın Brüsselə son səfərini də xatırlamaq olar. Qeyd edək ki, səfər Ermənistanın Aİ-yə üzvlüyü prosesinin başlanması haqqında qanun layihəsinə müdafiə və təhlükəsizlik məsələləri ilə bağlı yeni fəsil əlavə edildikdən sonra baş tutub. Qriqoryan Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayenin xüsusi müşaviri Yelizabet Belloni ilə görüşüb. Görüş zamanı Cənubi Qafqazda təhlükəsizlik vəziyyəti müzakirə edilib. Ölkənin müdafiə naziri Suren Papikyanın belçikalı həmkarı Teo Frankenlə görüşü isə göstərir ki, Brüssellə əməkdaşlıq, görünür, Aİ çərçivəsi ilə məhdudlaşmayacaq.

İkitərəfli müstəvidə Türkiyəyə qarşı ümumi düşmənçilik kontekstində Ermənistanın köhnə müttəfiqi Yunanıstanla da fəal yaxınlaşması müşahidə olunur. İlin ilk üç ayı ərzində Ermənistanın yüksək rütbəli hərbi rəsmilərinin Yunanıstana üç səfəri, bu səfər zamanı Hayastan, Yunanıstan və Kipr Respublikası arasında əməkdaşlıq formatının müzakirəsi Ermənistanın geosiyasi sürüşməsi fonunda Afinada “ikinci dayaq dəstəsi” tapmaq cəhdindən xəbər verir.

Oxşar mənzərəni Niderland və Baltikyanı ölkələrlə münasibətlərdə də müşahidə etmək olar. Martın 14-də Vilnüsdə Litva və Ermənistan müdafiə nazirlikləri arasında 2025-ci il üçün əməkdaşlıq haqqında Memorandum imzalanıb. Təbii ki, bu “himayəçilik paradı”na rəhbərliyi Ermənistana səxavətlə yeni silah partiyaları ötürən Fransa edir.

Digər vektor isə ABŞ-dır. 2025-ci ilin birinci rübündə ABŞ-ın Ermənistandakı hərbi fəallığı xeyli artıb. Hökumətə yaxınlığı ilə tanınan “Azad vətəndaş” vətəndaş təşəbbüslərinə dəstək mərkəzinin rəhbəri, politoloq Ovsep Xurşudyanın müsahibəsi zamanı səsləndirdiyi fikirlər əməkdaşlığın intensivləşməsini sübut edir. Xurşudyan deyib: “Bilirsiniz ki, Ermənistanda ABŞ silahlı birləşmələri var. Onlar öz silahları ilə Almaniyadan məxsusi olaraq Ermənistana gətiriliblər. Təbii ki, onlar birgə təlimlər keçirmək üçün müvəqqəti gəliblər və avqusta qədər Ermənistanda olacaqlar. Amerika qoşunlarının məhdud sayda da olsa, Ermənistanda qalması bir növ təhlükəsizlik yastığıdır. Biz başa düşməliyik ki, onların burada müvəqqəti qalması kifayət deyil”.

Lakin güman etmək olar ki, Vaşinqtonun bütün bu hərəkətləri hələlik Co Bayden administrasiyasının əvvəllər qəbul etdiyi qərarları səbəbindən baş verir. Bəzi nikbinlik var ki, Tramp komandası “erməni işi”ni diqqətlə araşdırdıqdan sonra Ermənistan rəhbərliyi ilə çox güclü hərbi əməkdaşlıqdan imtina edəcək.

Beləliklə, Ermənistanın Qərbə doğru siyasi-müdafiə meyli getdikcə daha çox nəzərə çarpır. Aİ və ABŞ həm hərbi əməkdaşlıq, həm də siyasi yaxınlaşma proqramları vasitəsilə İrəvanı öz təsir dairələrinə cəlb etməyə çalışırlar. Ancaq bu yol hamar olmayacaq. Əvvəla, ona görə ki, İrəvanın Avropaya inteqrasiya istəkləri, xüsusən də Qərblə hərbi əməkdaşlığı Ermənistan–Rusiya münasibətləri ilə ziddiyyət təşkil edir. Moskva bu əməkdaşlığa yalnız müəyyən hissəyədək göz yumacaq. Digər tərəfdən, girişdə qeyd etdiyimiz kimi, Ermənistan təkcə Avrasiya İqtisadi İttifaqının üzvü deyil. Təkcə bu ittifaqdan yaxşı gəlir əldə etmir, həm də Rusiyadan birbaşa iqtisadi asılı ölkədir. Üstəlik, ölkənin ikinci böyük şəhəri Gümrüdəki hərbi bazanın mövcudluğunu da unutmamalıyıq.

Digər tərəfdən, İrəvanın Aİ ilə inteqrasiya proseslərinin güclənməsi həm də Qərbin Ermənistanda hərbi mövcudluğunun güclənməsi demək olacaq. Lakin bu mövcudluq Ermənistan və Azərbaycan sərhədində yerləşdirilə bilməz. Çünki sülh sazişinin razılaşdırılmış mətnində üçüncü dövlətlərin silahlı qüvvələrinin sərhəddə yerləşdirilməməsinə dair bənd var. Ehtimal etmək olar ki, İrəvan–Bakı münasibətləri kontekstində Qərb hərbçilərinin Ermənistan siyasətinə təsiri sərhəddə birbaşa mövcudluq formasında deyil, əsasən silahlanma, kadrların hazırlanması və məsləhətləşmələr yolu ilə həyata keçiriləcək. Lakin bu da gələcəkdə xoşagəlməz sürprizlərin baş verməsini istisna etmir.

*Səxavət HƏMİD*
*XQ*

### Ekspert rəyi

**İlyas HÜSEYNOV,**
**politoloq**



– Ermənistan hakimiyyəti özünün xarici siyasətini Qərblə birgə formalaşdırmaq üçün addımlar atır və bütün gücü, resursu buna səfərbər edilib. Ölkənin xarici işlər, eləcə də müdafiə naziri müxtəlif Qərb ölkələrindən olan həmkarları ilə görüşlərdə təhlükəsizlik və müdafiə məsələsinə diqqət ayırırlar. Burada xüsusilə Fransa, Yunanıstan, Niderland, Belçika və ABŞ daha çox nəzərə çarpır.

Prosesdə Avropa İttifaqının da iştirakı bölgə ilə bağlı narahatlıqları və təhdidləri gücləndirir. Çünki Ermənistan ərazisində həm də Avropa İttifaqının mülki adlanan missiyası mövcuddur. Missiya Azərbaycanla sərhəddə mütəmadi olaraq monitorinqlər həyata keçirir, kəşfiyyat məlumatları toplayır. Bu məlumatları Brüsselə və digər geosiyasi mərkəzlərə ötürür. Eyni zamanda, Ermənistan Avropa İttifaqının regionda daha böyük spektrdə iştirakını istəyir.

Bundan əlavə, amerikalı hərbçilərin Ermənistanda olmasına dair faktlar riskləri bir qədər artıran məsələdir. Bu məsələyə daha geniş diqqət ayrılmalıdır. Çünki əvvəlki ABŞ administrasiyası dövründə İrəvanla Vaşinqton arasında çox isti münasibətlər var idi. Belə başa düşmək olar ki, əlaqələr bu münasibətlərin davamı kimi dərinləşdirilir. Amma Donald Tramp tamamilə fərqli siyasət yürüdən və addımlar atan siyasətçidir. Bu, özünü siyasi, iqtisadi, təhlükəsizlik müstəvisində də göstərir. Biz bunu USAID təşkilatı, “Amerikanın səsi”, “Azad Avropa/Azadlıq Radiosu” kimi qlobal media korporasiyasına münasibətdə də görmüşük.

Eyni zamanda, Ermənistanın xarici siyasət və təhlükəsizlik kontekstində manevr etməsi, şaxələndirmə addımları çox təhlükəli nəticələr verə bilər. Çünki Ermənistan iqtisadiyyatı üzərində hələ də Rusiyanın dominantlığı var. Gümrü şəhərində Rusiyanın 102 saylı hərbi bazası mövcuddur. Yəni Rusiyanın əlində Ermənistana təsir etmək üçün kifayət qədər vasitələr var. Ötən dövrlər ərzində bu təsir mexanizmlərindən istifadə olunmayıb. Bəyanatlar səviyyəsindən praktiki səviyyəyə doğru heç bir keçid olmayıb. İndi isə bu proseslər Ermənistan üçün çox ağrılı nəticələrlə yekunlaşa bilər.

# Gürcüstanda bələdiyyələri hansı siyasi qüvvələr formalaşdıracaq?

## *Oktyabrda keçiriləcək seçkilər ölkə üçün yeni sınaq olacaq*

**Gürcüstanda yerli idarəetmə orqanlarına seçkilər (majoritar) oktyabrın 4-də 69 bələdiyyədə keçiriləcək. Seçilmək üçün siyasətçilər dörd faizlik baryeri keçməlidirlər. Lakin parlament seçkilərindən bəri davam edən etirazlar fonunda yeni seçkilərin necə keçiriləcəyi və Gürcüstanın ona hazır olub-olmadığı məlum deyil. Müxalifət düşərgəsinin özündə də birlik yoxdur: Seçkiyə getsinlər, yoxsa boykot etsinlər?**





Bu gün bütün müxalifət partiyalarının əsas tələbləri sırasında “vicdan məhbuslarının” azadlığa buraxılması və yeni seçkilərin keçirilməsi yer alır. Bu məqsədlərə çatmaq üçün müxalifət beşinci prezident Salome Zurabişvilinin himayəsi altında “Müqavimət platforması” yaradıblar. Amma aydın olub ki, onların arasında birlik yoxdur. Ən azından bələdiyyə seçkilərində iştirak məsələsində. Hətta platformanın proqram sənədində seçkilərin boykot edilməsi ilə bağlı bənd də yer almayıb. Çünki keçmiş baş nazir Giorgi Qaxariyanın rəhbərlik etdiyi “Gürcüstan naminə Qaxariya” partiyası buna qarşı çıxmışdı. Bu, onu göstərir ki, ölkədəki bütün aparıcı müxalifət partiyalarından yalnız indiyədək üçüncü qüvvə imicini saxlamağa çalışan “Gürcüstan naminə Qaxariya” seçkilərdə iştirak edə bilər.

G. Qaxariyanın özü də yerli orqanlara seçkilərdə iştirak etmək niyyətini gizlətmir. Onun sözlərinə görə, bu, hər bir siyasi qüvvənin əsas vəzifəsidir: “Növbədənkənar parlament seçkiləri və avropapərəst etirazlar fonunda saxlanılanların azad edilməsi prioritet olaraq qalır. Biz qarşıdan gələn istənilən seçkilərə hazırlaşırıq, çünki siyasi partiya hər zaman seçkilərə hazır olmalıdır. Hazırda oktyabrda keçiriləcək parlament və yerli seçkilərə hazırlaşırıq”.

Qaxariyaya, “parlament və bələdiyyə seçkiləri eyni vaxta təyin olunmazsa, hansı addımları atacaqsınız?” sualına cavab verərkən deyib: “Parlament seçkiləri təyin olunandan sonra qərar verəcəyik”.

Göründüyü kimi Qaxariya öz cavabında ehtiyatlıdır. O, oktyabrın 4-də keçiriləcək yerli seçkilərdə iştiraka qəti “yox” demir, lakin hələ də öz mövqeyinə inamı da yoxdur. O əmindir ki, digər siyasi qüvvələr də eyni mövqedən çıxış edirlər: “Hələlik onlar gözləmə mövqeyinə üstünlük verirlər. İndi bu barədə açıq danışmayanlar gözləyirlər ki, Qaxariya nə vaxt qərar verəcək və birinci siyasi zərbəni alacaq ki, sonra hərəkətə keçsinlər”.

Beləliklə, “Gürcüstan naminə Qaxariya” partiyası (ötən il parlament seçkilərində 7,76 faiz toplayıb) yerli orqanlara seçkilərdə iştirak etməklə öz imkanlarını qiymətləndirmək istəyir. Rəhbərliyə görə, bələdiyyə seçkiləri demokratiyaya daha yaxındır, çünki o, insanlara daha yaxın olmağa və yerli problemlərdən danışmağa imkan verir. Qaxariya ümid edir ki, müxalifət Tbilisi və ya Batumidə qalib gəlməklə əhəmiyyətli təsir rıçaqı əldə etmiş olacaq: “Yerli seçkilərdə 4–5 şəhərdə qalib gəlmək şansımız var. Tbilisi, Kutaisi, Batumi, Zuqdidi və Rustavidə müxalifətin mövqeyi güclüdür”.

Keçmiş baş nazir konkret olaraq hansı partiyaların seçkilərdə iştiraka meyilli olduğunu açıqlamayıb. Amma “Dəyişiklik naminə koalisiya”nın” liderindən biri Nika Melia təsdiqləyib ki, bu cür söhbətlər həqiqətən də var. O, “Pirveli TV”nin efirində vurğulayıb ki, müxalifət spektrinin yarısı boykotla bağlı əvvəlki bəyanatlarına baxmayaraq, bələdiyyə seçkilərində iştirak imkanını ciddi şəkildə düşünürlər.

N. Melia da konkret partiyaların adını çəkməməyə üstünlük versə də, komandasının müxalifətin bu addımı atmaması üçün hər cür səy göstərdiyini qeyd edib.

Beləliklə, müxalifətin bir hissəsi israr edir ki, bu gün yerli orqanlara seçkilərdə iştirak etmək siyasi və mənəvi baxımdan qəbuledilməzdir. Onlar hesab edirlər ki, seçkilərdə iştirakla bağlı istənilən söhbət iqtidarla formal əməkdaşlıq kimi qəbul edilir və onu qanuniləşdirmiş olur. Çünki səsvermə iqtidarın qaydalarına uyğun keçiriləcək. Müxalifətin digər hissəsi isə bələdiyyə seçkilərində iştirak etməyə üstünlük verir və inanır ki, siyasi proseslərə təsir edə biləcək.

Müxalifətdən fərqli olaraq iqtidar ölkənin siyasi qüvvələrinin bələdiyyə seçkilərində iştirakında maraqlıdır. Bu yolla “Gürcü arzusu” açıq şəkildə nümayiş etdirmək istəyir ki, qarşı tərəfin fəaliyyətinə təqib yoxdur. “Əgər müxalifətdəki “Vahid Milli Hərəkat” (keçmiş iqtidar partiyası) hakim partiyadan daha populyar olduğunu sübut etmək istəyirsə, qarşıdan gələn bələdiyyə seçkiləri zamanı buna cəhd etsin”. Bu barədə “Gürcü arzusu”nun icraçı katibi Mamuka Mdinaradze deyib: “Hazırıq ki, cari ilin yerli özünüidarəetmə seçkilərində agent partiyalara əvvəlcə gürcü xalqı layiqli cavab versin və biz bu seçkilərdə peşəkar şəkildə qalib gələk. Daha sonra isə faktlara əsaslanan konstitusion iddia hazırlayaq. Bu iddia, öz növbəsində, Konstitusiya Məhkəməsi tərəfindən obyektiv şəkildə “Vahid Milli Hərəkat”ın qadağan olunması üçün əsas olmalıdır.

...Əminik ki, istintaq komissiyası agent partiyalar və siyasətçilərin fəaliyyətlərini daha da aydın şəkildə ifşa edəcək və biz hamımız birlikdə bu işin nəticələrini məntiqi sonluğa çatdıracağıq. Gözləyirik ki, onların “sahibləri və maliyyəçiləri” göstəriş verəcək və onlar özləri üçün sonuncu seçkilərdə iştirak etməli olacaqlar. Bu seçkilərdə bir daha hamıya göstərəcəyik ki, müstəqil və ləyaqətli Gürcüstanda xarici qüvvələrin hakimiyyəti agentlərlə əvəzləməyə dair hər cəhd tamamilə nəticəsizdir”.

Bununla da “Gürcü arzusu” müxalifət partiyalarına qadağa qoyulmasını yerli seçkilər başa çatanadək təxirə salıb.

Beləliklə, hakim partiya əmindir ki, payızda qeyri-adi heç nə baş verməyəcək: “Oktyabr gələcək və biz görəcəyik ki, hamı yerli özünüidarəetmə orqanlarına seçkilərdə iştirak edir... Müxalifət partiyaları parlamentin qəbul etdiyi qanunvericiliyə uyğun olaraq seçkilərdə iştirak edəcəklər. ”.

Gürcüstanın Baş naziri İrakli Kobaxidze isə hesab edir ki, “Gürcü arzusu”nun əleyhdarları sadəcə olaraq, növbəti seçkilərdə uğursuzluğa düçar olmaqdan qorxurlar. Onun sözlərinə görə, qarşıdan gələn bələdiyyə seçkiləri müxalifətin real vəziyyətini üzə çıxaracaq və iqtidarın üstünlüyünü bir daha təsdiqləyəcək: “Mövcud müxalifətin vəziyyəti hər kəsə bəllidir. Bu seçkilər göstərəcək ki, Gürcüstan cəmiyyətinin böyük əksəriyyəti harada dayanır. Onların seçkidə iştirak etməsi və ya etməməsi bizim üçün əhəmiyyət daşımır. Hər iki halda da, 64 bələdiyyənin hamısında həm meri, həm də icma seçkilərində qələbə bizim olacaq”.

Ölkənin suverenliyi ilə bağlı danışan İrakli Kobaxidze 2021-ci ilə qədər Gürcüstanın ciddi xarici təsir altında olduğunu, xüsusilə, Giorgi Qaxariyanın “dərin dövlət” ilə kompromis nəticəsində Baş nazir təyin edildiyini bildirib: “2021-ci ilin fevralına qədər bizə “dərin dövlət”in agentini Baş nazir postunda saxlamaq tələbi qoyulurdu. Bu bizim suverenliyimizin nə qədər zəif olduğunu göstərirdi. Lakin son 3–4 ildə biz ölkəyə praktiki olaraq keyfiyyətli suverenliyi qaytara bildik”.

Onu da qeyd edək ki, hazırda radikal müxalifət partiyalarının reytinqi aşağı düşüb. Müxalifətə, hər şeydən əvvəl, bələdiyyələrə seçilmək üçün vahid namizədlər lazımdır. Lakin onlar hələ də namizədlərlə bağlı qərar verməyiblər. Bu səbəbdən də onların bu və ya digər bələdiyyələrdə uğur qazanmaq şansı yoxdur.

Onu da qeyd edək ki, əgər müxalifət bütün fikir ayrılıqlarını aradan qaldırmaq üçün özündə güc taparsa, bir araya gələrsə və məsələn, Tiflis merliyinə vahid namizəd seçərsə, o zaman bu namizəd həqiqətən də hakim partiya üçün ciddi təhlükəyə çevrilə bilər.

Amma belə görünür ki, bundan sonra da onlar ortaq qərara gələ bilməyəcəklər. Ona görə də hakim partiya bütün majoritar yerləri alacaq.

Xatırladaq ki, sonuncu bələdiyyə seçkiləri 2021-ci ildə keçirilib. “Gürcü arzusu” partiyası 20 bələdiyyədən 19-da, o cümlədən Tbilisi, Kutaisi, Batumi, Poti və Rustavi şəhərlərində qalib gəlib.

*Pünhan ƏFƏNDİYEV*
*XQ*

# Azərbaycan–Çin tərəfdaşlığı ümumi maraqlardan güc alır

## *Ölkələrimiz arasında idxal və ixrac sürətlə artır*

**Prezident İlham Əliyev Çinin Sinxua agentliyinə məxsusi müsahibəsində müxbirin "Çin ilə Azərbaycan arasında münasibətlərin inkişafında hansı mühüm nəticələr əldə olunub və bunu necə qiymətləndirirsiniz?" sualına cavabında iki ölkənin strateji tərəfdaşlığının qarşılıqlı hörmət, bərabərlik və etimad kimi əməkdaşlığın əsas prinsipləri üzərində qurulduğunu bildirib.**

Azərbaycan lideri, eyni zamanda, ölkələrimiz arasında qarşılıqlı maraq doğuran bütün sahələrdə münasibətlərin inkişafına xüsusi əhəmiyyət verildiyini və ikitərəfli əlaqələrin dərinləşməsinin ölkəmizin xarici siyasətinin mühüm istiqamətlərindən biri kimi qiymətləndirildiyini vurğulayıb.

Ölkə rəhbərimiz müsahibəsində ötən il paytaxt Bakıda keçirilən COP29 iqlim konfransı haqqında da ətraflı məlumat verib: "Bu tədbirdə 196 dövlətin, 150 beynəlxalq təşkilatın və BMT strukturlarının, həmçinin, təxminən, 2 min QHT-nin nümayəndələri iştirak etdilər. İnkişaf etməkdə olan ölkələrə iqlim maliyyəsinin ayrılması, İtki və Zərər Fondunun fəaliyyətə başlaması, həmçinin Paris Sazişinin 6-cı maddəsinin tam reallaşdırılması COP29 çərçivəsində qəbul edilən mühüm qərarlardır".

Prezident İlham Əliyev müsahibədə Azərbaycanın COP29-a sədrliyi çərçivəsində iqlim fəaliyyəti və dayanıqlı inkişaf arasında əlaqəni əhatə edən 14 qlobal təşəbbüs irəli sürdüyünü, həmin təşəbbüslərin geniş beynəlxalq dəstək alaraq bəşəriyyətin gələcəyi və dünyanın iqlim gündəliyi üçün müstəsna əhəmiyyətə malik olduğunu diqqətə çatdırıb.

Müsahibədə ölkəmizin uğurları haqqında Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatlarına əsaslanılaraq geniş bəhs edilib. 2024-cü ildə respublikamızın xarici ticarətinin ümumi həcminin 7,9 faizinin Çinin payına düşdüyü, bu ölkənin Azərbaycanın dördüncü böyük ticarət tərəfdaşı olduğu və ilk dəfə əsas idxal mənbəyinə çevrildiyi də xatırladılıb: "Ötən il noyabrın 24-də Azərbaycanın ixrac mallarını daşıyan ilk dəmir yolu qatarı Bakıdan Çinə yola salınıb. Çinin şəhərlərində Azərbaycan ticarət evləri yaradılır, Azərbaycan xalçaları, nar şirələri və başqa yüksək keyfiyyətli məhsullar isə minlərlə çinli ailənin evinə daxil olur".

Bütün bunlarla bərabər, Azərbaycan Çinin "Kəmər və yol" təşəbbüsünün iki ölkə arasında praktik əməkdaşlığın inkişafına müsbət təsir göstərdiyini də yüksək dəyərləndirir. Əlbəttə, burada söhbət



ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin gələcək inkişafından, onların keyfiyyətcə yeni məzmunla zənginləşməsindən gedir. Azərbaycan ilə Çin arasında əmtəə dövriyyəsi, həcminin 2024-cü ildə əvvəlki illə müqayisədə 20,7 faiz artması və 3,744 milyard dollar təşkil etməsi, Çinin Azərbaycanın xarici ticarət dövriyyəmizdə payının 7,9 faiz olması, idxal üzrə lider mövqeyinə çıxması (bu göstərici 17,69 faizə çatması) da bunun bariz ifadəsidir.

İki ölkə arasında getdikcə artan iqtisadi-ticari əməkdaşlığa baxmayaraq, hələ də reallaşdırılmayan böyük potensial mövcuddur. Buna görə də Azərbaycan – Çin arasında iqtisadi-ticari əməkdaşlıq üzrə Hökumətlərarası Komissiya iqtisadi əməkdaşlığı genişləndirmək, bu sahədə perspektivli istiqamətləri aşkara çıxarmaq və onları hüquqi müstəvidə bundan sonra möhkəmləndirmək üçün önəmli layihələr gerçəkləşdirir.

Azərbaycan – Çin iqtisadi-ticari əməkdaşlığını şərtləndirən digər amillər sırasında ölkəmizə məxsus ticarət və şərab evlərinin artıq bu ölkənin Pekin, Şanxay, Urumçi, Tsindao, Çendu, Nankin və Çjantszyatsze şəhərlərində uğurla fəaliyyət göstərdiyi, bu müəssisələrin ikitərəfli ticari münasibətlərin inkişafına sanballı töhfə verdiyi diqqət çəkir.

Qeyd edək ki, hazırda respublikamızda qeydə alınan Çin kapitallı 375 şirkətdən 298-i səmərəli fəaliyyət göstərir. Azərbaycanla Çin arasında qeyri-neft sektorunda, xüsusən yüksək texnologiyalara və innovasiyalara, alternativ və bərpaolunan energetikaya yönəlmiş birbaşa investisiyaların cəlb olunması sahəsində birgə əməkdaşlığın perspektivlərinə dair danışıqlar aparılır.

Prezident İlham Əliyev Çin Xalq Respublikasının Sədri tərəfindən irəli sürülən "Kəmər və yol" təşəbbüsünü yüksək dəyərləndirərək Azərbaycanın bu layihəni dəstəkləyən ilk ölkələrdən biri olduğunu, sözügedən istiqamətdə ciddi praktik layihələr həyata keçirdiyini diqqətə çatdırıb: "Əminliklə demək olar ki, Azərbaycan bu layihənin reallaşmasına istər öz ərazisində, istərsə də onun hüdudlarından kənarda Çindən sonra daha çox investisiyalar qoyan ikinci ölkədir. 2019-cu ilin aprelində Çində keçirilən 2-ci "Kəmər və yol" Forumunda çıxış edərkən qeyd etdim ki, bu layihə təkcə nəqliyyat əlaqəsini təmin etmir, həmçinin müxtəlif ölkələr arasında əlaqələri gücləndirir, dialoq və əməkdaşlığın möhkəmlənməsinə xidmət edir və beynəlxalq ticarət üçün yeni imkanlar yaradır".

Azərbaycan "Kəmər və yol" təşəbbüsü çərçivəsində Çinlə əməkdaşlığı davamlı şəkildə genişləndirir və bu istiqamətdə mühüm uğurlar əldə edir. Özünün əlverişli coğrafi mövqeyindən yararlanaraq Azərbaycan ərazimizdən yük axınının kəskin artmasını nəzərə alaraq, beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafını sürətləndirir, infrastrukturu müasirləşdirir, onların ötürücülük qabiliyyətini artırır və əlavə investisiya yatırır.

Son 20 ildə ölkəmizdə 21 min kilometr avtomobil yolları salınması, yaxud təmir edilməsi, 335 körpü və yolayrıcı, 45 tunel, 163 yerüstü və yeraltı keçid tikilməsi, eləcə də 1500 kilometrdən artıq dəmir yolunun salınması və 1800 kilometrlik sahənin yenilənməsi də "Kəmər və yol" təşəbbüsü çərçivəsində reallaşdırılan layihələrin bariz ifadəsidir. Bu gün Bakı – Tbilisi – Qars dəmir yolu, Şimal – Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi və Orta Dəhliz, həmçinin Xəzərdə ən iri limanlardan biri olan Bakı Beynəlxalq Dəniz Ticarət Limanı "Kəmər və yol" təşəbbüsü çərçivəsində iqtisadi və nəqliyyat imkanlarının reallaşdırılması üçün yeni perspektivlər açır.

Hazırda Orta Dəhliz Avropa və Mərkəzi Asiyanı Xəzər dənizi vasitəsilə Çinlə birləşdirən etibarlı və təhlükəsiz marşrutdur, həmçinin yüklərin Çindən Avropaya və əks istiqamətdə çatdırılmasının ən səmərəli yoludur. Onun əhəmiyyəti sürətlə artır. Azərbaycan ilə Çin arasında tranzit daşımaların həcmi 2024-cü ildə 378 min ton olub ki, bu da 2023-cü illə müqayisədə 86 faiz çoxdur. 2024-cü il ərzində Çindən Azərbaycana ixrac və tranzit rejimində Orta Dəhlizlə 287 marşrut qatarı yola salınıb.

### Ekspert rəyi

**Aqil ƏSƏDOV,**
**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin şöbə müdiri**



Hazırda Azərbaycan – Çin münasibətlərinin uğurla inkişafı hər iki dövlət başçısının ortaq siyasi iradəsi ilə bağlıdır. "Bir kəmər, bir yol" layihəsi əlaqələrin dərinləşməsində xüsusi əhəmiyyət kəsb edir. 2019-cu ildə Pekində keçirilən 2-ci "Bir kəmər, bir yol" beynəlxalq əməkdaşlıq forumunda Cənubi Qafqazdan yeganə dövlət başçısı Prezident İlham Əliyev olub. Çin lideri Si Cinpinin qlobal təşəbbüsü olan "Bir kəmər, bir yol" strategiyası üzrə Azərbaycana yüksək dəyər verməsi ölkəmizin əlverişli coğrafi mövqeyi, tranzit imkanları ilə yanaşı, həm də dövlətimizin başçısına olan yüksək etimadı ilə bağlıdır.

Hələ 2019-cu ilin aprelində Pekində keçirilən "Bir kəmər, bir yol" beynəlxalq forumunda iştirak edən dövlət başçısının bu səfəri çərçivəsində 10 mühüm sənəd imzalanıb. Sənaye, investisiya, ticarət sahələrini əhatə edən bu sənədlərin reallaşması Azərbaycanla Çin arasında ticari-iqtisadi əməkdaşlığın daha genişlənməsinə təkan verib. Nəticədə Azərbaycanla Çinin xarici ticarət dövriyyəsi 2018-ci ildəki 1,3 milyard dollardan 2,4 dəfə və ya 1,9 milyard dollar artaraq 2023-cü ildə 3,2 milyard dollara çatıb.

Sürətli dinamika nəticəsində Çin Azərbaycanın əsas ticarət tərəfdaşlarından birinə çevrilib. Əgər 2018-ci ildə Çin Azərbaycanın 6-cı ticarət tərəfdaşı idisə, 2023-cü ilin nəticələrinə görə 4-cü iri ticarət tərəfdaşıdır. Azərbaycan ilə Çin arasında əmtəə dövriyyəsinin həcmi 2024-cü ildə əvvəlki illə müqayisədə 20,7 faiz artıb və 3,744 milyard dollar təşkil edib. Çinin Azərbaycanın xarici ticarət dövriyyəsində payı 7,9 faiz olub, həmçinin idxal üzrə də lider mövqeyinə çıxıb və bu göstərici 17,69 faizə çatıb.

"Bir kəmər, bir yol" layihəsinin tərkib hissəsi hesab olunan Orta Dəhliz Çin, Qazaxıstan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan ərazisindən keçərək Türkiyə və Avropa ölkələrinə qədər uzanan beynəlxalq nəqliyyat dəhlizidir. Orta dəhlizlə Çindən Avropaya 12 gün ərzində 10 min deyil, 7 min kilometr məsafə qət etməklə daşınmalar mümkündür. Avropa ölkələri ilə Çin arasında illik ticarət dövriyyəsi 700 milyard dolların üzərindədir. 2020-ci ildən etibarən Orta Dəhliz ilə ayda iki dəfə olmaqla Türkiyədən Çinə müntəzəm olaraq konteynerlərin daşınması həyata keçirilir və 2020-2024-cü illərdə daşınma həcmi 2.5 dəfə artıb.

# 3 ayda 20 milyon manat güzəştli kredit

**Bu ilin birinci rübündə Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi 1036 müraciət üzrə 19,6 milyon manat güzəştli kredit verib. Həmin vəsaitin 19,5 milyon manatı texnika və avadanlıq təyinatlı, 0,1 milyon manatı isə digər təyinatlı kreditlər olub.**

Bununla yanaşı, hesabat dövründə agentlik 2 min 480 texnika və avadanlığın güzəştli satışına 25,5 milyon manat, 456 baş damazlıq iribuynuzlu heyvanın güzəştli satışına isə 1,8 milyon manat vəsait ayırıb.

Xatırladaq ki, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi ölkə Prezidentinin "Aqrar bölmədə idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında" 2004-cü il 23 oktyabr tarixli Sərəncamına



müvafiq olaraq yaradılıb. Agentlik aqrar bölmədə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki və hüquqi şəxslərə dövlət dəstəyi məqsədilə kreditlərin cəlb edilməsi və təyinatı üzrə istifadəsini təmin edir.

Bütövlükdə isə, agentliyin fəaliyyətinə güzəştli şərtlərlə kənd təsərrüfatı kreditlərinin və subsidiyaların ayrılması, texnikaya və damazlıq heyvanlara görə güzəştlərin verilməsi, layihələrin idarə edilməsi, kənd təsərrüfatına investisiya cəlbi, aqrar sahədə dövlət dəstəyi tədbirlərinin həyata keçirilməsi, kənd təsərrüfatında innovativ metodların və qabaqcıl təcrübənin təşviqi, sahibkarlıq təşəbbüslərinin dəstəklənməsi, aqrar sektorda dövlət – özəl tərəfdaşlığı çərçivəsində proqramların hazırlanması və həyata keçirilməsi kimi vacib məsələlər daxildir.

# Sığortalı təsərrüfatların ziyanı ödənəcək



**Ötən həftə ölkə ərazisində hava şəraitinin kəskin pisləşməsi nəticəsində bir sıra rayonlarda güclü yağış, sel, subasma, güclü külək, qasırğa, fırtına, temperaturun kəskin aşağı düşməsi, qar və dolu yağması halları qeydə alınıb. Təbiət hadisələri bəzi rayonlarda meyvə bağlarına və əkin sahələrinə ciddi ziyan vurub.**

Artıq fermerlər tərəfindən dəymiş ziyanın hesablanması və ödənilməsi üçün Aqrar Sığorta Fondunun 1651 nömrəli Çağrı Mərkəzinə müraciətlər daxil olmaqdadır. Fondun məlumatına görə, aprelin 14-dən 20-dək, ümumilikdə, 15 rayon üzrə 76 müraciət qeydə alınıb. Müraciət edən fermerlər əsasən Xaçmaz, Bərdə, Ağsu, Quba, Şamaxı, Şabran, Qusar, Ağdaş, Neftçala və digər rayonların sakinləridir. Daxil olan müraciətlərin 36-sı sel-subasma, 40-ı isə fırtına və qasırğanın təsərrüfatlara vurduğu zərərlə bağlıdır.

Aqrar Sığorta Fondundan bildirilib ki, qeyd edilən sığorta hadisələri ilə bağlı əkin sahələrini və təsərrüfatlarını sığortalatmış fermer və sahibkarların müraciətləri qeydə alınır və müstəqil aqrar sığorta ekspertlərinin iştirakı ilə araşdırılır. Hazırda ekspertlər təbiətin şıltaqlığından ziyan görmüş ərazilərə baxış keçirir, baş vermiş hadisələri və onların nəticələrini qeydə alır, ilkin qiymətləndirmə aparırlar. Araşdırmalar yekunlaşdıqdan sonra qanunvericiliyə uyğun olaraq sığorta ödənişləri həyata keçiriləcək.

Aqrar Sığorta Fondu bir daha təsərrüfatlarını sığortalatmış fermerləri öz sahələrinə diqqətlə baxış keçirməyə və baş verən hadisələrlə bağlı operativ şəkildə fonda müraciət etməyə çağırır. Eyni zamanda, fond indiyədək dövlət dəstəyi ilə təqdim olunan aqrar sığorta mexanizmindən istifadə etməmiş fermerləri öz təsərrüfatlarını sığortalamağa dəvət edir.

# Avtomobil istehsalı 2 dəfə artıb

**Cari ilin birinci rübündə Azərbaycanda 1302 minik avtomobili istehsal edilib. Bu barədə məlumat Dövlət Statistika Komitəsinin 2025-ci ilin yanvar-mart aylarında ölkənin iqtisadi və sosial inkişafının makroiqtisadi göstəriciləri ilə bağlı hesabatında yer alıb.**

Bildirilib ki, ötən ilin eyni dövründə ölkədə 607 minik avtomobili istehsal edilib. Bu isə o deməkdir ki, yanvar–mart aylarında avtomobil istehsalı əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 695 ədəd və ya 2,1 dəfə artıb.

Qeyd edək ki, 2025-ci ilin yanvar-mart aylarında ölkədə maşın və avadanlıqların, avtomobil, qoşqu və yarımqoşquların istehsalı sahələrində 144,1 milyon manatlıq məhsul istehsal edilib. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə maşın və avadanlıqların istehsalı 20,9 faiz, avtomobil,



qoşqu və yarımqoşquların istehsalı isə 3,1 faiz artıb.

# BƏƏ Azərbaycana ən çox yatırım qoyan ölkə oldu

**Dövlət Statistika Komitəsindən redaksiyamıza bu ilin yanvar-mart aylarında ölkəmizdə əsas kapitala xarici mənbələrdən 950,1 milyon manat (2024–cü ilin eyni dövrü ilə müqayisədə 21,1 faiz çox) yönəldildiyi bildirilib.**



Məlumata əsasən, hesabat dövründə xarici investisiyaların 936,5 milyon manatı (98,7 faizi) Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ), Böyük Britaniya, Türkiyə, İsveçrə, Rusiya, ABŞ, Yaponiya, İran, Fransa, Macarıstan və Hindistan sərmayədarlarına məxsus olub. Mart ayında BƏƏ Azərbaycana yatırılan investisiyaların həcminə görə, ilk dəfə birinci yerdə qərarlaşıb və 2025-ci ilin birinci rübündə Böyük Britaniyanı geridə qoyub.

Xatırladaq ki, yanvar–mart aylarında Azərbaycanda əsas kapitala 3 milyard 467,7 milyon manat və yaxud ötən ilin eyni dövrü ilə müqayisədə 10,1 faiz az investisiya yönəldilib. Son 1 ildə neft – qaz sektoruna investisiyalar 24,2 faiz, qeyri neft-qaz sektoruna investisiyalar isə 2,4 faiz azalıb.

*XQ*

***Səhifəni hazırladılar:***
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 115** **Bakı şəhəri, 18 aprel 2025-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 8 fevral tarixli 75 nömrəli Qərarı ilə təsdiq edilmiş "Sağlamlıq imkanları məhdud olan şəxslərin təhsili üçün xüsusi təhsilin dövlət standartları"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında", "Kitabxana işi haqqında", "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" və "Poçt haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 8 oktyabr tarixli 47-VIIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 8 fevral tarixli 75 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 2, maddə 207) ilə təsdiq edilmiş "Sağlamlıq imkanları məhdud olan şəxslərin təhsili üçün xüsusi təhsilin dövlət standartları"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 7.11-ci bənddə "məhdud olanlar və zəif görənlər" sözləri "və qismən məhdud olanlar" sözləri ilə əvəz edilsin.

**2.** 7.15.5-ci yarımbəndin birinci cümləsində "məhdud olanların və zəif görənlərin" sözləri "və qismən məhdud olanların" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 116** **Bakı şəhəri, 18 aprel 2025-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 21 aprel tarixli 74 nömrəli Qərarı ilə təsdiq edilmiş "Şəhərlər və digər yaşayış məntəqələri ərazisinin sanitariya qaydalarına, gigiyena və ekoloji normativlərə uyğun olaraq təmizlənməsi, məişət tullantılarının müvəqqəti saxlanılması, müntəzəm daşınması və zərərsizləşdirilməsi Qaydaları"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Turizm haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 22 oktyabr tarixli 54-VIIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 21 aprel tarixli 74 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 4, maddə 388 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 19 fevral tarixli 26 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Şəhərlər və digər yaşayış məntəqələri ərazisinin sanitariya qaydalarına, gigiyena və ekoloji normativlərə uyğun olaraq təmizlənməsi, məişət tullantılarının müvəqqəti saxlanılması, müntəzəm daşınması və zərərsizləşdirilməsi Qaydaları"nın 7.4-cü bəndinin dördüncü abzasına "yaşıllıq ərazilərində" sözlərindən sonra ", turizm və rekreasiya zonalarının ərazilərində" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 117** **Bakı şəhəri, 21 aprel 2025-ci il**

**"Sosial Tədqiqatlar Mərkəzinin işçilərinin say həddinin təsdiq edilməsi və əməkhaqqı fondunun müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 17 may tarixli 225 nömrəli Qərarının ləğv edilməsi barədə**

"Sosial Tədqiqatlar Mərkəzinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 12 aprel tarixli 624 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 9 avqust tarixli 174 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Sosial Tədqiqatlar Mərkəzinin işçilərinin say həddinin təsdiq edilməsi və əməkhaqqı fondunun müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 17 may tarixli 225 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 959 (Cild I) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 118** **Bakı şəhəri, 21 aprel 2025-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin "İxrac nəzarəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bəzi normativ aktların təsdiq edilməsi barədə" 2005-ci il 15 dekabr tarixli 230 nömrəli və "İxrac nəzarətinə düşən malların nomenklaturuna uyğun kodlar üzrə, habelə işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin Siyahısı"nın təsdiq edilməsi haqqında" 2006-cı il 9 fevral tarixli 42 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 15 dekabr tarixli 230 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 12, maddə 1230 (Cild I); 2024, № 1, maddə 116, № 2, maddə 208, № 5 (II kitab), maddə 612) ilə təsdiq edilmiş "İxrac nəzarətinə düşən malların nomenklaturuna uyğun, habelə işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin qanunvericiliklə müəyyən edilmiş siyahısındakı malların (işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin) kateqoriyaları və bölmələri üzrə xüsusi icazə verən, ixrac nəzarətini, xüsusi icazə verilməsindən əvvəl və sonra yoxlamaları, ikili təyinatlı malların sifariş edilmiş məqsədlər üçün istifadə olunmasına nəzarəti həyata keçirən icra hakimiyyəti orqanlarının Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 0-cı kateqoriyanın "0A; 0C; 0D; 0E" bölməsinin 2-ci sütunu aşağıdakı redaksiyada verilsin:

"Nüvə materialları, qurğuları və avadanlıqları - sistemlər, avadanlıqlar və komponentlər, materiallar, proqram təminatı, texnologiya";

1.2. 0-cı kateqoriyanın "0B" bölməsinin 2-ci sütununda "Nüvə qurğuları, avadanlıqları ilə bağlı ikili təyinatlı mallar" sözləri "Sınaq, nəzarət və istehsalat avadanlığı" sözləri ilə əvəz edilsin;

1.3. 1-ci kateqoriya üzrə:

1.3.1. "1A, 1B, 1C (1C35O; 1C351; 1C352; 1C353; 1C354; 1C450 istisna olmaqla) 1C239" bölməsinin adı aşağıdakı redaksiyada verilsin:

"1A, 1B, 1C (1C350, 1C351, 1C353, 1C354, AZ.1C354.a., AZ.1C354.b., AZ.1C354.c., 1C450 istisna olmaqla) 1C239";

1.3.2. "1C350; 1C351; 1C352; 1C353; 1C354; 1C450" bölməsinin adı aşağıdakı redaksiyada verilsin:

"1C350, 1C351, 1C353, 1C354, AZ.1C354.a., AZ.1C354.b., AZ.1C354.c., 1C450";

1.4. 3-cü kateqoriyanın "3A; 3A001; 3A002; 3A201; 3A225-3A230; 3B; 3C; 3D; 3E; 3A231; 3A232; 3A233" bölməsinə "3A233" sözlərindən sonra "; 3A234" sözləri əlavə edilsin;

1.5. 4-cü kateqoriyanın 2-ci sütununda "Hesablama" sözü "Hesablayıcı" sözü ilə əvəz edilsin;

1.6. 5-ci kateqoriyanın 2-ci sütununda "Telekommunikasiya və informasiyanın mühafizəsi" sözləri "Telekommunikasiya və informasiya təhlükəsizliyi" sözləri ilə əvəz edilsin;

1.7. 6-cı kateqoriyanın "6A" bölməsinin 2-ci sütununda "Qəbuledicilər (datçiklər)" sözləri "Sensorlar" sözü ilə, "akustika, optika, lokasiya sistemləri, lazer avadanlıqları" sözləri "sistemlər, avadanlıqlar və komponentlər" sözləri ilə əvəz edilsin;

1.8. 8-ci kateqoriyanın 2-ci sütununda "sualtı aparatlar və suüstü gəmilər, onlar üçün sistemlər, avadanlıqlar, komponentlər, materiallar, "proqram təminatı", texnologiyalar" sözləri "sistemlər, avadanlıqlar və komponentlər, sınaq, nəzarət və istehsalat avadanlıqları, materiallar, proqram təminatı, texnologiyalar" sözləri ilə əvəz edilsin;

1.9. 9-cu kateqoriyanın 2-ci sütununda "Mühərrik qurğuları, kosmik aparatlar və uyğun avadanlıqlar" sözləri "Aviasiya, kosmonavtika və mühərriklər" sözləri ilə əvəz edilsin;

1.10. "10-İML" kateqoriyası üzrə:

1.10.1. adında "10-İML" sözləri "10" rəqəmləri ilə əvəz edilsin;

1.10.2. "İML1" bölməsi ləğv edilsin;

1.10.3. "PL5002; PL5006; ML5; ML6; PL5031" bölməsindən "; PL5031" sözləri və "ML12; ML13; ML14; PL5034; ML15; ML17" bölməsindən "PL5034;" sözləri çıxarılsın.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 9 fevral tarixli 42 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 2, maddə 190 (Cild I); 2024, № 1, maddə 81; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 19 fevral tarixli 26 nömrəli Qərarı) ilə təsdiq edilmiş "İxrac nəzarətinə düşən malların nomenklaturuna uyğun kodlar üzrə, habelə işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin Siyahısı" yeni redaksiyada verilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 119** **Bakı şəhəri, 21 aprel 2025-ci il**

**"Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) hərbi rütbəyə görə maaşlarının məbləğlərinin təsdiq edilməsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi və "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 15 mart tarixli 126-6 nömrəli qərarında dəyişiklik edilməsi haqqında" 2018-ci il 04 may tarixli 204-17 nömrəli, "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi və "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 15 mart tarixli 126-6 nömrəli qərarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 4 may tarixli 204-17 nömrəli Qərarında dəyişiklik edilməsi barədə" 2019-cu il 11 aprel tarixli 155-5 nömrəli və "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) hərbi rütbəyə görə maaşlarının və mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi barədə" 2008-ci il 26 yanvar tarixli 17-3 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 6 sentyabr tarixli 392 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında" 2024-cü il 23 dekabr tarixli 419 nömrəli Sərəncamının 2.3-cü bəndinin, "Bəzi dövlət orqanlarının dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq tarif (vəzifə) maaşlarının artırılması haqqında" 2025-ci il 27 yanvar tarixli 296 nömrəli Fərmanının 3-cü hissəsinin və "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşlarının artırılması haqqında" 2025-ci il 27 yanvar tarixli 301 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 6 sentyabr tarixli 392 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1546 (Cild I); 2024, № 1, maddə 70, № 10, maddə 1162) aşağıdakı dəyişikliklər edilsin:

1.1. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə – "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin hərbi qulluqçularının aylıq vəzifə (tarif) maaşlarının məbləğləri" yeni redaksiyada təsdiq edilsin (əlavə olunur)*;

1.2. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə – "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin (aparat) dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri" yeni redaksiyada təsdiq edilsin (əlavə olunur)*;

1.3. həmin Qərarla təsdiq edilmiş 3 nömrəli əlavə – "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin tabeliyində olan qurumlarda çalışan dövlət qulluqçusu olmayan mülki işçilərin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri" yeni redaksiyada təsdiq edilsin (əlavə olunur)*.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki, bu Qərarın icrası ilə əlaqədar tələb olunan vəsaitin ödənilməsi məqsədilə müvafiq tədbirlərin həyata keçirilməsini təmin etsin.

**3.** Bu Qərar 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

___________

*Əlavə dərc edilmir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatında 2025-ci ilin may ayında vətəndaşların qəbulu cədvəli

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| **Baş nazirin birinci müavini**<br>**Eyyubov Yaqub Abdulla oğlu** | **1** |
| **Baş nazirin müavini**<br>**Mustafayev Şahin Abdulla oğlu** | **2** |
| **Baş nazirin müavini**<br>**Şərifov Samir Rauf oğlu** | **5** |
| **Aparatın rəhbəri**<br>**Məmmədov Rüfət Tofiq oğlu** | **6** |
| **İqtisadiyyat şöbəsinin müdiri**<br>**Həsənova Sevinc Telman qızı** | **7** |
| **Xarici iqtisadi əlaqələr şöbəsinin müdiri**<br>**Rüstəmli Ruslan Rüstəm oğlu** | **30** |
| **Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri**<br>**Paşayev Zakir İlqar oğlu** | **12, 26** |
| **Hüquq və qanunvericilik şöbəsinin müdiri**<br>**Qasımlı Xalid Akif oğlu** | **13, 27** |
| **Sosial məsələlər şöbəsinin müdiri**<br>**Rəhimov Niyazi Süleyman oğlu** | **14, 29** |
| **Humanitar məsələlər şöbəsinin müdiri**<br>**Həbibbəyli Ərəstü İsa oğlu** | **15** |
| **Sənaye və energetika şöbəsinin müdiri**<br>**Hacızadə Elşən Mahmud oğlu** | **16** |
| **Aqrar və ekologiya şöbəsinin müdiri**<br>**Qasımov Lətif Cəfər oğlu** | **19** |
| **Regionların inkişafı şöbəsinin müdiri**<br>**Məcidov İlkin Sabir oğlu** | **20** |
| **Tikinti, şəhərsalma və kommunal təsərrüfat şöbəsinin müdiri**<br>**Mustafayev Feyruz Rəvayət oğlu** | **21** |
| **Nəqliyyat, kommunikasiya və innovasiya şöbəsinin müdiri**<br>**Pənahov Musa Sədi oğlu** | **22** |
| **Təhlükəsizlik, müdafiə və səfərbərlik şöbəsinin müdiri**<br>**Məmmədov Anar Rəhim oğlu** | **8, 23** |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Qəbul otağında qəbul olunurlar.**
**Ünvan: Bakı şəhəri, Səbail rayonu, Lermontov küçəsi, 68.**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: (012)492-19-23, (012)492-88-96.**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 120** **Bakı şəhəri, 21 aprel 2025-ci il**

**Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq vəzifə maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq vəzifə maaşlarının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 27 yanvar tarixli 299 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin dövlət büdcəsindən maliyyələşdirilən xüsusi rütbəsi olan əməkdaşlarının aylıq vəzifə maaşlarının məbləğləri" təsdiq edilsin (əlavə olunur)*.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin dövlət büdcəsindən maliyyələşən xüsusi rütbəsi olan əməkdaşlarının aylıq vəzifə maaşları ilə əlaqədar tələb olunan əlavə vəsaitin maliyyələşdirilməsini Azərbaycan Respublikasının 2025-ci ilin dövlət büdcəsində müvafiq məqsədlər üçün nəzərdə tutulmuş vəsait hesabına həyata keçirsin.

**3.** Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə tapşırılsın ki, aylıq vəzifə maaşlarının artımı ilə əlaqədar olaraq bu Qərarın əlavəsində qeyd olunmuş xüsusi rütbəsi olan əməkdaşların əmək pensiyalarının qanunvericiliklə müəyyən olunmuş qaydada hesablanmasını və ödənilməsini təmin etsin.

**4.** "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə maaşlarının məbləğlərinin təsdiq edilməsi, "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və xüsusi rütbəsi olan əməkdaşlarının xüsusi rütbəyə görə maaşlarının məbləğlərinin təsdiq edilməsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Gömrük orqanlarının vəzifəli şəxslərinin xüsusi rütbələr üzrə maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında" 2008-ci il 23 oktyabr tarixli 252-31 nömrəli və "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi və "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 oktyabr tarixli 315-15 nömrəli qərarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 17 may tarixli 224-18 nömrəli Qərarında dəyişikliklər edilməsi haqqında" 2019-cu il 11 aprel tarixli 156-6 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 6 sentyabr tarixli 393 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 10 dekabr tarixli 470 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 12, maddə 2054 (Cild I) 1-ci hissəsi ləğv edilsin.

**5.** Bu Qərar 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

___________

*Əlavə dərc edilmir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 122** **Bakı şəhəri, 21 aprel 2025-ci il**

**"Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin işçilərinin aylıq vəzifə maaşlarının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 28 oktyabr tarixli 319 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 23 dekabr tarixli 419 nömrəli Sərəncamının 2.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 28 oktyabr tarixli 319 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 10, maddə 1186 (Cild I) ilə təsdiq edilmiş 5 nömrəli əlavə - "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Aparatı, strukturuna daxil olan qurumlar və strukturuna daxil olmayan tabeliyindəki qurumlar üzrə xidmət heyətinin aylıq vəzifə maaşları" yeni redaksiyada təsdiq edilsin (əlavə olunur)*.

**2.** Bu Qərar 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

___________

*Əlavə dərc edilmir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# “Erməni soyqırımı”: uydurmalar və gerçəklər

## 110 illik yalanın, böhtanın mahiyyəti və hədəfi



*Musa QASIMLI,*
*AMEA-nın müxbir üzvü, professor*

**(əvvəli ötən saylarımızda)**

### “Ermənilərin fəlakəti”nin Avropa ölkələrində təbliği və Rusiyaya edilən yeni xəyanət

Uydurma “erməni fəlakəti”nin müzakirə edilməsində missioner təşkilatlar da müəyyən rol oynadılar. Ermənilərin ələ keçirilməsi və onların protestantlığı qəbul etmələri əsasən satın almaq və yeni əhali ilə fərqə görə edilirdi. Protestantlığı qəbul edən ermənilərə böyük pul verilirdi. 1916-cı ilin fevralında Londonda Lord Mera adına Erməni qaçqınlarına yardım fondunun nümayəndəsi Harold Bekston Qafqaza səfər etdi. Səfər zamanı onu tərcüməçi kimi Daşnaksütyunun Tiflisdə nəşr olunan “Orizon” qəzetinin əməkdaşı Arşak Safrastyan müşayiət edirdi. Fevralın 28-də bu şəxsin şərəfinə Tiflisdəki “Anona” restoranında ziyafət verildi. Qonağın yanında olan Daşnaksütyunun üzvləri Vardanyan, Muradyan, İsaakyan və b. ermənilərin vəziyyəti barədə jurnalistə şişirdilmiş məlumatlar verdilər və Rusiyaya inanmadıqlarını bildirdilər. Bu, erməni xadimlərinin onların himayəçisi olan Rusiyaya arxadan vurduqları daha bir zərbə idi.

Söhbət zamanı H.Bekston dedi ki, ermənilərə muxtariyyəti israrla tələb etmək üçün daha tutarlı faktlar, xüsusən öldürülən erməlorin sayını, təqibləri, hüquqsuzluqları, ermənilərin sıxışdırılması, onların Rusiya və Avropa ölkələrində yaymaqdan ötrü faktları toplamaq lazımdır. Bildirdi ki, İngiltərə mətbuatında ermənilərin hüquqlarını müdafiə edən yazılarla çıxış edəcəkdir.

H.Bekstonun söylədiklərinə uyğun olaraq erməni ziyalıları, terror-siyasi təşkilatlarının üzvləri, din adamları ermənilərin ölümü, dəyən maddi və mənəvi ziyan barədə mətbuatda məqalələr yazmağa başladılar. Bakıda dərc edilən “Arev” (Günəş) qəzeti bununla bağlı olaraq ermənilərə belə bir müraciət etdi: 1. Rus ordusu tərəfindən tutulan ərazilərdəki kəndlərdə, rayonlarda əhalinin və əmlakın, dağıdılan mədəniyyət müəssisələrinin sayını müəyyənləşdirmək. 2. Müharibə illərində ermənilər hansı təqiblərə və məhrumiyyətlərə məruz qalıblar? 3. Qırğının hansı şəraitdə və nə zaman baş verdiyini, ona kimin rəhbərlik etdiyini, ermənilərin köçürülməsinin hansı şəraitdə və hansı yolla baş verdiyini aydınlaşdırmaq. 4. Ermənilərin Rusiyaya qaçmasının təfərrüatlarını müəyyənləşdirmək, bütün fiziki və mənəvi məhrumiyyətlərini araşdırmaq. Toplanan bütün məlumatları rus və Avropa dillərində nəşr edilən almanax və qəzetlərdə dərc etdirmək.

Bundan sonra ermənilər nəsə alacaqları ümidi ilə hay-küylə uydurma məlumatları bir neçə dəfə şişirdərək təşkilatlarına göndərməyə başladılar. Uydurmaların həddi-hüdudu yox idi.

H.Bekstonun səfəri və verdiyi vədlərlə bağlı olaraq Rusiya Daxili İşlər Nazirliyinin Polis Departamenti xarici ölkələrə yerli hakimiyyətlərlə Rusiyanın səfirlik və konsulluqları ilə münasibətlər üçün ezam edilmiş xüsusi agentinə 1916-cı il martın 29-da göndərdiyi məxfi məktubunda yazırdı ki, H.Bekston Tiflisdə yerli daşnaklar tərəfindən qəbul edilib və onlardan ermənilərin hazırkı vəziyyətinə dair qərəzli məlumatlar alıb. O, məqalələrində “erməni muxtariyyəti” ilə bağlı məsələlərə kömək edəcəyinə, bu məqsədlə ingilis cəmiyyətinə təsir edəcəyinə söz verib. Polis Departamenti özünün agentinə ingilis mətbuatını diqqətlə izləmək, H.Bekstonun “erməni məsələsi” ilə bağlı məqalələrini göndərmək tapşırığı verdi.

Bu məktub ermənilərin qərəzli, şişirdilmiş məlumatlar verdiklərinin Rusiya imperiyasının dövlət orqanı tərəfindən etiraf edilməsi idi.

İngiltərəyə qayıtdıqdan sonra H.Bekston “Ararat” qəzetində “İrəvan metamorfozası” adlı bir məqalə dərc etdirdi. O, məqalədə erməni qaçqınlarının vəziyyətini təsvir edərək yazırdı ki, Rusiyada hamı onlara qucaq açdı, 1915-ci ilin sentyabr-oktyabr aylarında 23 min nəfər erməni Qafqaza gəldi. Hər bir erməni öz evinə 2-5 nəfər ermənini yerləşdirdi. 1916-cı ildə İrəvanda artıq 16 min erməni qaçqını var idi. Məqaləsi yayımlandıqdan sonra Bekston erməni qaçqınlarına yardım fonduna 1000 rubl pul verdi.

Londonda dərc edilən “Ararat” qəzeti ermənilərin vəziyyətinə dair materialların xarici mətbuat orqanlarında dərci üçün xüsusi komissiya yaratdı. Paris və Milanda da belə komitələr quruldu.

Beləliklə, ermənilərin uydurduqları məlumatlar mətbuata ayaq açdı. Az sonra İsveçrədəki komitə fransız dilində bir neçə kitabça nəşr edərək yaydı. Bu isə Avropa ölkələrində və ABŞ-da ictimai rəyə təsir göstərirdi.

### Erməni təşkilatları didişirlər

Düşdükləri vəziyyət üçün erməni təşkilatları biri-birilərini, Daşnaksütyunu və kilsəni təqsirləndirirdilər. Günahı daşnaklarda görən “Mşak” qəzeti 1915-ci il 21 dekabr tarixli sayında senzuranın dərcinə icazə vermədiyi “Fayda” başlıqlı məqaləsində yazırdı ki, 1896-cı ildən Daşnaksütyun öz fəaliyyətindən ötrü aşağıdakı vasitələri müəyyənləşdirdi: “Türkiyə Ermənistanı” haqqında və xaricdə təbliğat aparmaq, xalqı silahlandırmaq, Avropa dövlətlərinin Türkiyəyə “Qordi düyü”nü olan “erməni məsələsi”ni həll etmək üçün təzyiq göstərməsinə məcbur edən fəal açıq çıxışlar təşkil etmək. Məqalədə 30 ildə bu fəaliyyətin nəticəsi aşağıdakı kimi verilirdi: Birinci dövrdə, Həmid (Sultan Əbdülhəmid nəzərdə tutulur- M.Q) 1877–1878-ci illər müharibəsindən sonra özünün xristian təbəələrinə münasibətdə siyasətini müəyyənləşdirdi, ermənilərin pərakəndə çıxışlarından öz məqsədlərini həyata keçirməkdə bəhanə kimi istifadə etdi. Ermənilərin ümid yeri olan həmin Avropa diplomatiyasına arxalanaraq İstanbuldan Kilikiyaya, Trapezunddan Vana qədər 300 min nəfər günahsız ermənini qırdı. Bir o qədər də erməni qorxusundan mühacirət etdi, müsəlmanlığı qəbul etdi, onların torpaqlarına kürd və müsəlman elementləri yerləşdirildi. İkinci dövrdə Daşnaksütyun türk hökumətinin tərəfdarı oldu. Türkiyə ermənilərinin siyasi və ictimai həyatınını idarəçiliyini öz üzərinə götürdü. O, Türkiyə ermənilərini mürtəce elementlərindən qorumaq məqsədi ilə hakim İttihad və Tərəqqi ilə ittifaq bağladı. Bunun faydası aşağıdakı oldu: Kilikiyada 30 min erməni əzişdirildikdən sonra ittihadçılar özlərinin şübhəli müttəfiqini tələyə saldılar, siyasi proqramlarında erməniləri rədd etdilər, məqsədlərinə sistematik olaraq yaxınlaşmağa başladılar, türk parlamentində daşnaklar üçün yer saxladılar. Türkiyə ermənilərinin iradəsinin ifadəçisi olan patriarx bərbad hala düşdü, həm türk hökuməti, həm də erməni xalqı arasında hər hansı əhəmiyyətini itirdi, Türkiyə erməniləri arasında özünümüdafiəni zəiflətdi, kürdləri silahlandırdı və bizimlə kürdlər arasında ziddiyyətləri kəskinləşdirdi. Üçüncü və ya ümumavropa müharibəsi dövrü hələ başa çatmayıb, lakin Daşnaksütyunun fəaliyyəti öldürücü nəticə verir. Rusiya ermənilərinin təşkil etdikləri azadlıq hərəkatının nəticələri bax, budur.



Dağıdılmış türk qəsəbəsi

Erməni təşkilatları arasında ixtilafların dərinləşdiyini görən Poqos Nubar Paşa 1916-cı ilin fevralında Parisdən Tiflisdə yerləşən “Mşak” qəzetinin redaktoru A.Arakelyana məktub göndərərək Qafqazdakı erməni təşkilatları arasında ixtilaflara son qoymağa və “bütün erməniləri ümumi erməni işi və Ermənistanın xilası və gələcəyi naminə birləşməyə” çağırdı. Belə bir çağırışı katolikos da etdi. Onlar bütün erməniləri və siyasi partiyaları birləşməyə dəvət etdilər. Tiflisdə bunun üçün ilkin şərtlər də işlənib hazırlandı.

Partiyalar martın 14-də ilkin məsləhətləşmələr üçün toplaşdılar. Danışıqlar başlansa da, bir nəticə əldə edilmədi, siyasi partiyalar birləşə bilmədilər. Bununla bağlı olaraq “Mşak” qəzeti yazırdı:

“Harada iki nəfər erməni varsa, orada üç fikir vardır”.

Daşnaklar Rusiyanın ermənilər üçün geniş islahatlar aparacağına inansalar da muxtariyyəti heç gözləmirdilər. Onlar bu istəklərinə İngiltərə və Fransanın Osmanlıya təzyiqlər edərək nail olacaqlarına inanırdılar.

### Rusiya imperatorluğu ermənilərə muxtariyyət vermir: Səbəb nədir?

Rusiya ordusu tərəfindən işğal edilən ərazilərə, xüsusən Ərzuruma yerləşmələrinə icazə verilməməsi erməniləri hiddətləndirdi. Hökumət ermənilərə inanmır, onların separatçılığı gücləndirəcəyindən narahat idi. Bütün bunlara görə, ermənilərin rus ordusunun işğal etdiyi ərazilərdə muxtariyyət almağa olan ümidləri zəiflədi. Sonralar, 1916-cı il aprelin 2-də polkovnik (sənəddə adı yazılmamışdır - M.Q.) Qafqazın İran və Türkiyə ilə yaxın hissələrində ermənilərin torpaq alması məsələsinə dair yazdığı məxfi arayışda qeyd edirdi ki, erməni hərəkatı ilə tanış olan çoxlu şəxslərin fikrincə, Türkiyə və İranda qədim erməni abidələrinin arxeoloji baxımdan öyrənilməsinə və tədqiqinə marağın artması diyarın təbii zərvətlərini tutmaq üçün öyrənmək məqsədi daşıyır. Bu fikirlərin nə qədər doğru olduğunu zaman göstərəcəkdir, ancaq bu, şübhə yaratmır. 1914-cü ilin ikinci yarısından erməni hərəkatının daha çox artdığı bir dövrdə ermənilər Trapezunddan Kilikiyaya və Ankaradan Urmiyəyə qədər olan ərazilərə iddialarını gizlətmirdilər. Bunu mitinqlərdə və mətbuatda müzakirə edirdilər. İndi onlar sözdən işə keçiblər. İnsanları hiddətləndirməmək üçün erməni mətbuatının və nitqlərinin tonu xeyli dəyişib. Lakin ermənilərin hərəkətləri göstərir ki, onlar müəyyənləşdirilmiş, tamamilə konkret məqsədə doğru durmadan gedirlər. Polkovnik yazırdı ki, Türkiyədən olan qaçqın ermənilərin İrəvan və Yelizavetpol quberniyalarındakı dövlət torpaqlarına “müvəqqəti” yerləşdirmək barədə vəsatət qaldırmaları, Ələşkirt vadisində torpaqların yarısının əkib-becərilmək üçün verilməsi layihəsi və b. onların bütün torpaqları sistematik olaraq tutmaq və bu rayonda müəssisələri inhisara almağa dair həmin planlı fəaliyyətlərinin təzahürüdür. Qeyd edirdi ki, Azərbaycan, Xəzər dənizinin əvvəllər bizə məxsus olan cənub sahilləri və ordularımız tərəfindən tutulan türk torpaqları cənuba doğru tarixi hərəkət yolumuzun üstündə yerləşir. Yaxın zamanlarda hadisələrin necə olacağından asılı olmayaraq həmin torpaqlar Rusiya imperiyasının tərkibinə daxil edilməlidir. Bu, son iki əsrdə baş verən hadisələrin qaçılmaz məntiqi nəticəsidir və ondan imtina etmək tarixdən imtina etməyə bərabərdir. Müasir hadisələr heç bir zaman olmadığı kimi göstərir ki, “rus” vilayətləri bu sözün geniş mənasında rus elementi olan və üstünlük təşkil edən və ya öz maraqlarını qorumağa imkan verən şərtləri qoyan ərazilərdir. Boş ərazilərin ruslardan başqa hər hansı xalq tərəfindən tutulması bu vəzifəni çətinləşdirəcəkdir. Müharibə başa çatana və Türkiyənin vilayətlərinin ələ keçirdiyimiz torpaqları üzərində hüquqlarımız aydınlaşana qədər onların tutulması qadağan edilməlidir və ya hətta dövlət mülkiyyəti elan edilməlidir.

1916-cı ilin yazında Rusiya, İngiltərə və Fransa Türkiyənin Asiya hissəsinin bölüşdürülməsi və Ərəbistanda müstəqil ərəb dövlətinin qurulması barədə saziş imzaladılar. Sənədə görə, Rusiya Ərzurumu, Trapezundu, Van və Bitlis vilayətlərini, Muş, Siirt, Yon Ömər, Amadz, Fars sərhədi xəttinə qədər ərazini tutmalı idi. Rusiyanın Qara dənizdə sərhədi Trapezunddan qərbə doğru müəyyənləşdirilirdi. Fransa Suriyanı, Adana vilayətini, gələcək rus sərhədinə qədərki ərazini, İngiltərə Mesopotomiyanın cənub hissəsini Bağdad ilə birlikdə və s. əraziləri tutmalı, ingilis və fransız ərazilərinin arasındakı yerlərdə isə ərəb dövlətləri konfederasiyası qurulmalı idi. Strateji cəhətdən əhəmiyyətli olan bu ərazilər neft yataqları ilə zəngin idi. Sazişə görə, İtaliyaya da ərazilərin verilməsi nəzərdə tutulurdu.

İngilis və fransız hökumətləri 1916-cı ilin iyun ayında “erməni məsələsi” ilə əlaqədar olaraq rus hökumətinə müraciət etdilər. Rusiya Xarici İşlər Nazirliyi bununla bağlı olaraq Qafqaz hakimiyyətinin fikrini soruşdu. Məsələni müzakirə etmək üçün Tiflisdə müşavirə çağırıldı. Müşavirədə general N. Yanuşkeviç, general N. Yudeniç, general-leytenant Volski və digərləri iştirak edirdilər. Geniş və dərin bir müzakirə nəticəsində müşavirədə yekdil bir fikir ifadə edildi: ermənilər müttəfiqlər naminə çoxlu itkilər vermələrinə baxmayaraq, onlar muxtariyyət hüququ almağa layiq deyillər, çünki onların inqilabi komitələrdən başqa bir təşkilatı yoxdur, onlar da erməni xalqının iradəsini və rolunu ifadə edirlər, bu təşkilatlar Rusiyaya düşmən münasibətdədirlər, onların əlində muxtariyyət olarsa, Rusiyaya düşmən münasibət bəsləyərlər. Müşavirədə qəbul edilən qərar Petroqrada göndərildi.

Rus hökuməti bu qərarı redaktə edərək İngiltərə və Fransa hökumətlərinə çatdırdı. Cavabı aldıqdan sonra Fransanın baş nazri Aristid Brian Poqos Nubar Paşanı yanına çağıraraq dedi ki, təəssüf edir, ermənilərin yalnız inqilabi komitələri vardır, məsələn, Daşnaksütyunun üzvləri xaricdə erməni xalqının xeyrinə təbliğat aparırlar. Poqos Nubar Paşa Aristid Brianın ermənilər haqqında fikrini dəyişməyə cəhd edərək digər təşkilatların olduğunu desə də, o, fikrindən dönmədi.

Parisdə ingilis ictimai xadimi Ceyms Brays ilə 1916-cı ilin yayında görüşən Poqos Nubar Paşa “erməni məsələsi”nin ingilis diplomatik dairələrində vəziyyətini müzakirə etdi. Ceyms Brays bildirdi ki, Ermənistana muxtariyyət verilməsini anlayışla qarşılayır, lakin onun həyata keçirilməsinə Rusiya mane olur, Fransanın isə mövqeyi hələ aydın deyildir.

Ermənilərə muxtariyyət verilməsi məsələsində Rusiyanın da iştirakçısı olduğu Antanta ölkələri arasında ziddiyyətlər hökm sürürdü. Rusiya imperiyasının ermənilərə muxtariyyət vermək istəməməsinin dərin səbəbləri var idi. Əgər onlara Türkiyənin Şərq vilayətlərində muxtariyyət yaradılardısa onda Qafqazın yerli əhalisi olan, o zaman deyildiyi kimi, müsəlmanlar (azərbaycanlılar) və gürcülər də muxtariyyət tələb edə bilərdilər. Digər tərəfdən, Türkiyə ərazisində qurulan muxtariyyət Qafqaz ermənilərini özünə çəkə bilərdi. Rusiya hakimiyyəti müharibədə müttəfiqi olduğu digər Antanta dövlətlərinin himayəsi altında Türkiyənin Şərq vilayətlərində ermənilər üçün muxtariyyətin qurulmasına yol vermək istəmirdi. Çünki bu zaman həmin ölkələr zəngin təbii sərvətləri olan Qafqaza yaxınlaşar və separatçılıq artardı. Antanta dövlətləri də Rusiyanın himayəsi altında Türkiyənin Şərq vilayətlərində ermənilərə muxtariyyətin qurulmasını istəmirdilər. Belə olduqda Rusiya uzun onilliklər boyu arzuladığı və cəhd etdiyi Qara dəniz boğazlarına və isti dənizlərə çıxmaq imkanı qazanardı.

Beləliklə, əsrlər boyu türk hakmiyyəti altında rahat yaşamış, lakin çətin vəziyyət yaranan kimi Türkiyəni arxadan vuran ermənilər ölkə ərazisini parçalamaq üçün fəaliyyətlərini genişləndirsələr də istəklərinə çata bilmədilər. Avantüra boşa çıxdı. Ermənilərdən istifadə edən böyük dövlətlər yaranmış şərait üçün məsuliyyəti onların təşkilatlarının üstünə yıxdılar, dağıdıcı, inqilabi olmayan təşkilatlar qurmağı və təbliğat işlərini genişləndirməyi təklif etdilər.

### Erməni təşkilatlarının yeni hiyləsi

Ermənilərə muxtariyyət verilməyəcəyi aydın olduqdan sonra Poqos Nubar Paşa katolikos V Gevorqa və Ambarsum Arakelyana bir məktub göndərərək ermənilərin komitəçi-döyüşçülərdən fərqli olaraq inqilabi xarakter daşımayan təşkilatlarının qurulmasını xahiş etdi. Bu işlə yaxından məşğul olan A. Arakelyanın çağırdığı müşavirədə İvan Diaryan, Korqanov, İvan Ter-Qriqoryan, şair Aleksandr Şirvanzadə, Aşot Atanasyan, Ovanes və Stepan Malxasyan, heykəltəraş Mikaelyan, arximandrit Benin və digərləri iştirak edirdilər. Çoxluğun təşkil olunmasından ötrü zamanın gəlib çatdığını bildirən A.Arakelyanın fikrincə, yubanmaq erməniləri düşünülmüş şəkildə ölümə vermək demək idi.

Müşavirədə məqsədi ermənilərin milli inkişafına və rifah halının yaxşılaşmasına kömək etmək olan Erməni Milli Xalq Partiyası qurmaq barədə razılıq əldə edildi. Partiyanın komissiyaları yaradıldı.

Bu zaman Fransada olan doktor Y.Zavriyev fransız diplomatiyasını gələcək sülh konfransında “erməni məsələsi”ni həll etməyə meyilləndirməyə çalışırdı. Daşnaksütyun məsələnin əlverişli həlli üçün Avropa ölkələrində təbliğat aparmağı təşkil etmək barədə qərar qəbul etdi.

V.Vasakuni imzalı bir erməni müəllifi “Ardzaqank Parizi” (Parisin səsi) jurnalının 1916-cı il 25 oktyabr tarixli 14-cü sayında ermənilərin müharibədə özlərini aparmasını tənqid edərək yazırdı ki, biz özümüzü siyasətçi kimi göstərə, mövqeyimizi müəyyənləşdirə bilmədik, müharibəyə qatıldıq. Ancaq soruşmadıq ki, nə məqsədlər uğrunda? Biz müharibəyə qatılarkən tarixi, beynəlxalq sosial-iqtisadi münasibətləri və onların nəticələrini unutduq. Biz müharibəyə qatılarkən özümüz özümüzü aldatdıq. Bizim “könüllülərin” başçıları bizi inandırdılar ki, əgər rus ordusuna yardım etsələr, Qafqaz ali rəhbərliyi onlara muxtariyyət verəcəkdir. Eyni ağalar bizi inandırdılar ki, gənc Türkiyə də onalara muxtariyyət verəcəkdir. Lakin ermənilər ruslara inanaraq onların tərəfinə keçdilər. Bu, səhv idi. Rus hökuməti ermənilərə muxtariyyət vədi verməmişdi. Gənc türklər də ermənilərə muxtariyyət vədi verməmişdilər. “Könüllü” hərəkatın bir hissəsi ruslarla, digər bir hissəsi isə türklərlə danışıqlar aparırdı. Petroqradda ermənilərin qurultayında Q.Çalxuşyan bildirdi ki, rus hökumətinin ermənilərə muxtariyyət verməsi barədə şayiələr yepiskop Mesropun, Samson Arutunovun və Aleksandr Xatisovun uydurması olub.

Ermənilər ruh düşkünlüyünə düşdülər. Qafqaz canişinliyinin xüsusi şöbəsinin rəisi Qafqaz ordu qərargahının rəisinə, surətini isə Tiflis quberniya jandarma idarəsinin rəisinə göndərdiyi 1916-cı il 4 noyabr tarixli 6250 №li tamamilə məxfi məktubunda ermənilərin əhval-ruhiyyəsi haqqında yazırdı:

“Bir ilə yaxın Bitlis-Van rayonunda olarkən işimin xarakterinə uyğun olaraq əhalinin bütün sinifləri ilə həm erməni, həm də müsəlmanlarda daimi və geniş əlaqə saxlamalı oldum, onlardan mənə ermənilərlə digərləri arasında, onların fəaliyyətləri və nəzərdə tutduqları planları barədə çoxlu məlumatlar daxil olur. Ermənilərdən, əsasən kənd əhalisindən daha çox məlumatlar alıram. Onların çoxu erməni komitələrinin fəaliyyətinə rəğbət bəsləmirlər. Sonuncunu onda günahlandırırlar ki, məhz bu komitələr ermənilərə bütün bədbəxtlikləri gətirmişlər və erməni xalqını tamamilə məhv edəcəklər. Kənd əhalisi əksər hallarda komitələrin gizli fəaliyyətləri ilə əlaqəli deyillər və yalnız bir şeyi arzu edirlər ki, onları işləmək üçün sakit buraxsınlar. Lakin onlar səslərini qaldıra bilmirlər, çünki komitələr əhalini terror qorxusu altında saxlayırlar, tabe olmayanlarla qəddarcasına hərəkət edirlər. Ermənilər mənə dəfələrlə məlumat vermişlər ki, Daşnaksütyun diyarda gizli şəkildə enerjili fəaliyyət yürüdür, başlıca olaraq gəncləri komitə üzvlüyünə yazılmağa məcbur edirlər, onları “böyük işə” hazır olmağa səsləyirlər... Dəfələrlə mənə ermənilərin diqqəti cəlb etməmək üçün şəhərdən kənarda həftə sonu istirahət adı altında keçirilən müşavirələri barədə məlumat vermişlər.”

İstəklərinə çatmayan erməni təşkilatları xarici ölkələrdə şayiələr yaymağa başladılar. Onların təbliğatı Amerikada yaxşı gedirdi. İlk növbədə ona görə ki, burada 120 min erməni yaşayır, Erməni Milli Komitəsi fəaliyyət göstərirdi. Daşnakların və qnçakçıların komitələri hələ 1900-cü ildən burada fəal təbliğat aparırdılar. Onların təbliğatı sayəsində amerikan cəmiyyəti erməni həyatı ilə yaxından tanış olmuşdu. Bundan başqa, ABŞ-ın Türkiyə ərazilərində çalışan konsulları və missionerləri də erməni təbliğatında mühüm rol oynayırdılar. Belə missionerlərdən 1917-ci ildə İrəvanda çalışan Yaro və Raynolds xüsusilə fəal idilər. Komitələrin Amerikadakı fəaliyyətlərinin formalarından biri mühazirələr oxumaq idi. Bundan başqa, onların döyüş dəstələri də yaradılmışdı. Müxtəlif oyunlar təşkil etməklə amerikan cəmiyyətində ermənilərə maraq oyadırdılar.

Müharibə başlayarkən komitələrin könüllü ianələr toplamağa başlaması sadə amerikalıların diqqətindən kənarda qalmamış, onların ermənilərə rəğbəti artmağa başlamışdı. Hətta ABŞ prezidenti Teodor Ruzvelt və İstanbuldakı səfir Henri Morgentau ermənilərin türk zülmündən azad edilməsini təbliğ etməyə başlamışdılar. Nəticədə amerikan hökuməti gənc türklər hökumətinə “erməni qırğınları”nı dayandırmaq haqqında memorandum vermişdi. Lakin bu tələblər türk hökuməti tərəfindən saya salınmadıqda ABŞ hökuməti Mesopotomiyaya köçürülmüş ermənilərin qaytarılmasına yardım etmək vədini verdi. Həmin məqsədlə pul vəsaitləri toplandı. Bu pullar Yaro və Renolds vasitəsi ilə Qafqaza göndərildi. Pulun qalan hissəsini ABŞ ilə münasibətlərinin gərginliyi ucbatından Türkiyəyə göndərmək mümkün olmadı. Ona görə də ABŞ ermənilərə İsveçrə komitələrinin vasitəsi ilə yardımlar etməyə başladı. Erməni Milli Komitəsindən başqa ABŞ-da Ermənistan üçün Amerika Komitəsi də təşkil edildi. Onun sədri Klivlend konqresinin üzvü Dadc, üzvləri İstanbuldakı keçmiş səfir Marçento, professor Qart, Stiffon, Çayz idilər. Komitənin “Nyu Armenia” adlı mətbu orqanı var idi. Bu orqanın çağırışları hesabına 1916-cı ilin oktyabrında 10 milyon rubla yaxın pul toplandı.

*(ardı var)*

Azərbaycan Milli Mətbuatı – 150

# Xalq Cümhuriyyətinin dövlətçilik irsi və mətbuat

**Həsən bəy Zərdabinin 150 il əvvəl yaratdığı və ilk anadilli nəşrimiz olan “Əkinçi” xalqın gözünü açıb, onun təfəkkürünü zənginləşdirərək maarifçilik işığında yeni bir dövrün başlanğıcını qoydu.**



“Əkinçi”nin nəşri, yalnız bir qəzetin təsis tarixi ilə bağlı hadisə deyil, həm də mətbuatın cəmiyyətdəki mövqeyinin formalaşmasının və inkişafının başlanğıcı oldu. Mətbuat xalqın düşüncə və həyat tərzini formalaşdırmağa, onun sosial və siyasi inkişafına təsir edən önəmli bir vasitə kimi özünü təsdiq etdi. “Əkinçi”dən sonra meydana gələn və formalaşan mətbuat həmin dövrün xarakter və qadağalarına baxmayaraq, xalqın tarixi güzgüsü ola bildi.

Bu baxımdan bugünkü müstəqil Azərbaycan dövlətinin hüquqi sələfi olan AXC tarixinin cəmiyyətə təqdimatında milli mətbuatın əvəzsiz xidmətləri heç vaxt yaddaşlardan silinməyən tarixi hadisədir. Həm də müstəqil Azərbaycanın Xalq Cümhuriyyətinin siyasi varisi elan edilməsi və bu tarixin öyrənilməsi, cəmiyyətə çatdırılması məsələsi yalnız tarixçi və araşdırmaçıların işi olmaqla qalmır, dövlətin informasiya siyasətinin bir parçası kimi mühüm əhəmiyyət kəsb edir.

## Xalqdan gizlədilmiş tarix

Müasir Azərbaycan Respublikası 1991-ci ildə öz müstəqilliyini bərpa edərək, Xalq Cümhuriyyətinin bayrağını, gerbini, himnini qəbul etmişdir. İstiqlal Bəyannaməsinin elan edildiyi 1918-ci ilin 28 may günü hazırda Müstəqillik Günü kimi qeyd olunur.

Amma təəssüflər olsun ki, uzun illər bu şərəfli tarix gizlədilmiş, yaxud da bolşevik təfəkkürünün iddiaları ilə saxtalaşdırılaraq cəmiyyətə təqdim edilmişdir. Tarixçi alim Anar İsgəndərovun ciddi bir ittiham və riqqətlə yazdıqları ibrətamiz bir misal kimi fikirlərimizi bir daha təsdiq edir: “Tarixi həqiqətlərin konyukturçu nöqteyi-nəzərdən, qəsdən təhrif edilməsinin bariz nümunəsi 1918–1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin tarixidir”.

Azərbaycanın dövlət müstəqilliyi bərpa edildikdən sonra tarix xalqımıza təkcə azadlıq adlı əvəzsiz bir neməti yox, həm də şərəf duyacağımız bir tarixi qaytarmış oldu. Tədqiqatçıların üzünə “tam məxfi” və “məxfi” qrifləri ilə bağlı elan edilmiş arxivlərin, fondların açılışı cümhuriyyət tarixinə dair önəmli və yeni münasibətləri ortaya qoydu. O cümlədən müstəqil Azərbaycan mətbuatının bu barədə yazdıqları və bundan sonra da yazacaqları həmin şərəfli tarixin cəmiyyətə çatdırılmasında mühüm rol oynadı.

## Cümhuriyyət tarixi və mətbuat

Tarixin öyrənilməsi və bu biliklərin cəmiyyətə çatdırılması yalnız elm adamlarının deyil, mətbuatın da vacib missiyalarındandır. Mətbuat cəmiyyətin tarixi yaddaşını gücləndirən fəaliyyəti ilə həm də gənc nəslin tarixə marağını artırmağa, onlara vətənpərvərlik, dövlətçilik və müstəqillik ideyalarını aşılamağa xidmət edir.

Jurnalistikanın bu sahədəki rolu, həm də tarixi məlumatların düzgün və bədii şəkildə təqdim olunmasında özünü göstərir. Müxtəlif media vasitələrində tarixi şəxsiyyətlər, mühüm hadisələr və siyasi mübarizələr cəmiyyətə müxtəlif formatlarda təqdim edilir. Bununla, həm də cəmiyyətin kollektiv yaddaşı güclənir, tarixi faktların səhihliyi və milli birlik təmin edilir.

Təbii ki, mətbuatın danılmaz rolunu önə çəkməklə, həm də dövlətin bu sahədə həyata keçirdiyi olduqca miqyaslı tədbirlərin nə qədər dəyərli olduğunu və xalqın istəkləri ilə üst-üstə düşdüyünü aydın görürük. Bu məsələ ilə bağlı məşhur mətbuat tədqiqatçısı Şirməmməd Hüseynovun Prezident İlham Əliyevin 2018-ci ili “Azərbaycan Xalq Cümhuriyyəti ili” elan etməsinə münasibətdə dediyi kimi, “Tarix ancaq onu öyrənib imtahan vermək üçün deyil. Müsəlman Şərqində ilk demokratik cümhuriyyəti yaradan şəxsləri, onların yaratdığı ideologiyanı, məfkurəni yeni nəslə öyrətmək lazımdır. Prezident İlham Əliyevin 2018-ci ili “Azərbaycan Xalq Cümhuriyyəti ili” elan etməsi məhz buna xidmət edir”. Buna görə də cümhuriyyət tarixinin öyrənilməsi və cəmiyyətə çatdırılması təkcə tarixçilərin və araşdırmaçıların yox, həm də jurnalistikanın ümdə vəzifələrindəndir.

## AXC irsi haqqında ilk mətbu yazılar

Jurnalistika bu sahədə nə kimi işlər gördü və ya görməkdədir? Bu sualın cavabı o qədər əhatəlidir ki, bir məqalədə ətraflı danışmaq mümkün deyil. Amma yenə də bəzi ümdə məsələlərə toxunmaq vacibdir. İlkin olaraq qeyd edilməlidir ki, Azərbaycan Milli Kitabxanasının “Azərbaycan Xalq Cümhuriyyəti – 90” adı ilə nəşr etdiyi biblioqrafik göstəricidə bu barədə zəngin məlumatlar tapmaq mümkündür.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və fəaliyyəti haqqında ilk məlumatlar cümhuriyyətin nəşri “Azərbaycan” qəzetinə məxsusdur. 1918-ci ildə qəzet bu mövzuda 8 məqalə dərc etmişdir. Sonrakı 2 ildə, yəni cümhuriyyət dövründə – 1919 və 1920-ci illərdə müvafiq olaraq, yenə də “Azərbaycan” qəzetində 22 və 5 məqalə çap edilmişdir. 1919-cu ilə aid olan 22 məqalədən 10-nun müəllifi cümhuriyyətin Ukrayna və Türkiyədə səfiri olmuş, görkəmli ədib Yusif Vəzir Çəmənzəminlidir. Bu məqalələrin hər biri ad müxtəlifliyi ilə fərqlənsələr də, AXC-nin o dövrdəki xarici siyasətinin ən ümdə məsələlərinə həsr edilmişdir. 1920-ci ilin mayında bolşevik təcavüzünün qurbanı olan Xalq Cümhuriyyəti haqqında tarixçi alim Zülfəli İbrahimovun 1950-ci ildə nəşr edilmiş “İngilis–Amerikan müdaxiləçilərinə qarşı Azərbaycan xalqının mübarizəsi: (1918–1920-ci illər)”, eləcə də Hacıbaba Əzimovun 1971 və 1978-ci illərdə nəşr olunmuş “Azərbaycan qəzalarında sovetlər: (1917–1918-ci illər)” və “İnqilab əsgərləri: Azərbaycanda əsgər təşkilatları və əsgərlərin inqilabi hərəkatı: (1917–1918)” kitablarını nəzərə almasaq, başqa heç bir məqalə və araşdırmaya rast gəlinmir. Amma mütləq qeyd edilməlidir ki, Hacıbaba müəllimin bu əsərləri dövrün tələbinə uyğun yazılsa da, müəllif milli-azadlıq hərəkatını, müsavatın fəaliyyətini, türk qoşunlarının Bakıya gəlişini vermişdir.

Bundan başqa, 1927–1929-cu illərdə rus dilində nəşr edilmiş tədqiqatlar sırasında araşdırmaçı A.Rayevski, Y.Rathauzer tərəfindən yazılmış və həmin dövrdə Azərbaycanda baş verən siyasi hadisələri analiz edən tədqiqatlar daha geniş yer alır. Təbliğat xarakterli bu əsərlər, əslində, AXC və Müsavat Partiyasının fəaliyyətinə tənqidi yanaşmalardır və sovet ideologiyasını dəstəkləyən mövqedən yazılmışdır. Bu cür əsərlər həmin dövrün siyasi mühitində geniş yayılmış və sosialist təbliğatının bir hissəsi olmuşdur. Bu tədqiqatlarda cümhuriyyət qurucularının adları, demək olar ki, çəkilməmiş, göstərilən faktlar da onları yalnız neqativ cəhətdən səciyyələndirmişdir. Amma tədqiqatçıların da vurğuladığı bir fakt var ki, XX əsrin 50–80-ci illərində Azərbaycan sovet tarixşünaslığının ən çox müraciət etdiyi problem məhz 1917–1920-ci illər dövrü olmuşdur. Bəzi əsərlər istisna olmaqla, bu mərhələdə tədqiqatlar əsasən sovet hakimiyyəti uğrunda bolşeviklərin mübarizəsinə, Azərbaycanda inqilabi hərəkata, bolşevik sovet rejiminin qurulmasına həsr edilmişdir. 1989-cu ilə kimi Türkiyə mətbuatı da bu mövzuda çoxsaylı materiallar dərc etmişdir.

Eyni zamanda, ADR-in görkəmli xadimləri haqqında istər cümhuriyyət, istərsə də sovet dönəmində dövri mətbuatda 1988-ci ilə kimi yalnız 2 məqalə və 17 səhifəlik bir kitab nəşr edilmişdir. Yusif Vəzir Çəmənzəminlinin 1926-cı ildə “Maarif və mədəniyyət” jurnalında dərc edilmiş “Tariximiz haqqında Azərbaycan müəlliflərinin əsərləri” adlı məqalə həm dövrün intellektual mühitini, həm də bu mühitin Azərbaycan tarixinin qorunmasında və mədəni irsinin nəşrindəki mühüm rolunu təhlil edən yeganə nadir mənbələrdəndir. 2-ci məqalə isə görkəmli dövlət xadimi Nəriman Nərimanovun 1920-ci ildə Nəsib bəy Yusifbəyliyə yazdığı məktubdur. Bu məktub “Möhtərəm Nəsib bəy cənabları” adı ilə Nəriman Nərimanovun 1971-ci ildə nəşr edilən əsərlərinin I cildində yer alır. Azərbaycan SSR EA-nın nəşri olan və 1946-cı ildə çap edilən “Səməd bəy Mehmandarov” kitabının müəllifi H.İbrahimbəyli rus-çar ordusunun artilleriya generalı və Xalq Cümhuriyyətinin hərbi naziri Səməd bəy Mehmandarovun milli ordudakı fəaliyyətindən bəhs edir.

## Cümhuriyyət irsi mətbuatda

1989-cu ildə milli oyanışın başlanması ilə bu məsələ yenidən aktual bir şəkildə mətbuatın gündəminə gəlir. “Xəzər”, “Qobustan” jurnallarında, “Kommunist”, “Elm” (3 məqalə), “Ədəbiyyat və incəsənət” (2 məqalə), “Azərbaycan”, “Odlar yurdu” qəzetlərində (10 məqalə) yazılar dərc edilmişdir.

Yeri gəlmişkən, bir məsələni də diqqətə çatdırım ki, hələ demokratik hərəkatın ilk vaxtlarında ciddi qınaqlara məruz qalmış Azərbaycan KP MK-nın, Ali Sovet və Nazirlər Sovetinin orqanı olan “Kommunist” qəzeti “Xəzər”, “Qobustan” jurnallarından sonra cümhuriyyət haqqında məqalə dərc edən ilk rəsmi qəzet olmuşdur. “1918–1920-ci illər dövrünün bəzi məsələləri: (“Dəyirmi stol” arxasında alimlərimizin söhbəti)” adlandırılan həmin yazıda əsasən ADR dövründə kommunist-bolşevik fəaliyyətinin araşdırılmasına önəmli yer verilsə də, Şərqdə ilk müsəlman dövləti kimi tarixə düşmüş Azərbaycan Xalq Cümhuriyyətinin tarixinin də öyrənilməsi aşkarlıq dövrünün ümdə vəzifələrindən biri kimi diqqətə çatdırılır. Görkəmli alimlərimizin – Azərbaycan SSR Elmlər Akademiyasının vitse-prezidenti, akademik Cəmil Quliyevin, Azərbaycan SSR Elmlər Akademiyası Azərbaycan Tarixi Muzeyinin direktoru, akademik, SSRİ Xalq deputatı Püstəxanım Əzizbəyovanın və başqalarının həmsöhbət olduğu “Dəyirmi stol”da akademiyanın müxbir üzvü, tarix elmləri doktoru, professor Qaraş Mədətovun səsləndirdiyi fikirlər həm tarixi baxımdan, həm də keçmişimizin öyrənilməsi baxımından təqdirəlayiqdir: “Tarixi ədəbiyyatımızda Azərbaycan Demokratik Respublikasının tarixi hələ öz obyektiv qiymətini tapmamışdır. Məncə, tarixi həqiqət tələb edir ki, onun yaranmasının, fəaliyyətinin, daxili və xarici siyasətinin şərhində birtərəflilik aradan qaldırılsın, hər şey açıq-aydın, dərindən təhlil edilsin” .



“Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası”nda deyildiyi kimi, “Cümhuriyyət tarixinin ayrı-ayrı məsələləri yaxın keçmişdə saxtalaşdırıldığından və qəsdən təhrif olunduğundan, həmçinin, bu dövrün bir çox problemləri indiyədək lazımınca araşdırılmadığından ensiklopediyada verilən məqalələrin böyük əksəriyyəti tədqiqat xarakteri daşıyır və yeni elmi baxışı əks etdirir”.

Bu dövrdə ADR-in görkəmli xadimləri haqqında məqalələrə də mətbuatda geniş yer verilmişdir. 1988-ci ildə “Odlar yurdu” (7 məqalə) və “Elm” (1 məqalə) qəzetləri Məmməd Əmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov, Ceyhun Hacıbəyli, Əliağa Şıxlinski, Nəsib bəy Yusifbəyli, Səməd bəy Mehmandarov haqqında Möhsün Əliyevin 8 məqaləsini dərc edir. 1989-cu ildə mətbuatda cümhuriyyət dövrünün görkəmli xadimləri haqqında 10, 1990-cı ildə 22, 1991-ci ildə 23 məqalə təqdim olunmuşdur. Ümumiyyətlə, 1918–2008-ci illər arasında Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və fəaliyyəti haqqında 700-ə yaxın, Azərbaycan Demokratik Respublikasının görkəmli xadimləri haqqında 250-yə yaxın məqalə dərc edilmişdir. Bu siyahıya 150 kitabın, 30-a qədər elmi işin adlarını, rus dilində çıxmış daha 227 məqalənin, 38 kitabın və başqa dillərdə olan 30-a qədər ədəbiyyat nümunələrinin adlarını da əlavə etsək, nə qədər böyük işlərin görüldüyünün şahidi olarıq.

Çağdaş dövr mətbuatının dərc etdiyi məqalələrin xəritəsinə diqqət yetirəndə qəzet səhifələrində yer almış məqalələrin mövzu və tədqiqat fərqliliyi cümhuriyyət tariximizin mətbuatımız üçün də əbədi mövzusu olduğu təsdiqlənir. Yeni faktları, bilgiləri üzə çıxaran alim və tədqiqatçılarımız bu dəyərli tarixin hər bir incəliyinin açılmasına çalışırlar. “Kommunist”, sonra “Xalq qəzeti”, “Azərbaycan”, “Bakinski raboçi”, “İzvestiya” , “Bakı-Baku”, “Azərbaycan gəncləri”, “Azərbaycan müəllimi”, “Molodyoj Azerbaydjana”, “Vışka”, “Açıq söz”, “Respublika”, “Yeni Azərbaycan”, “Müsavat”, ”Azadlıq”, “Xalq cəbhəsi”, “Ədəbiyyat və incəsənət”, sonralar “Ədəbiyyat qəzeti”, ”Panorama”, “Ayna-Zerkalo”, “525-ci qəzet”, “Ədalət”, “Panorama Azerbaydjana”, “Mədəni-maarif”, “Azərbaycan iqtisadiyyatı”, “Azərbaycan məktəbi”, “Hərbi bilik” və s. kimi, eləcə də adlarını çəkə bilmədiyimiz onlarca qəzet və jurnalda dərc edilmiş bu məqalələr cümhuriyyət tariximizin dəyərli səhifələridir.

***Namiq ƏHMƏDOV***
***XQ***

---

**Dünən Bakıda Əqli Mülkiyyət Agentliyinin və Qərbi Azərbaycan İcmasının birgə təşkilatçılığı ilə “Qədim mətnlər və klassik mənbələr erməni saxtakarlıqlarını və uydurmalarını ifşa edir və ya Azərbaycan əraziləri haqqında etno-hay hiylə və fitnələri” mövzusunda konfrans keçirildi.**

Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü münasibətilə təşkil edilən məclisdə çıxış edən Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri, professor Kamran İmanov məruzəsində bildirdi ki, 9 ildir ənənəyə çevrilən “Qədim mətnlər və klassik mənbələr erməniçilik saxtakarlıqlarını və uydurmalarını ifşa edir” devizi ilə keçirilən və hər il “və ya” sözləri ilə yeniləşən bu konfrans ölkəmizdə böyük maraqla qarşılanır və ictimai rəydə geniş əks-səda doğurur. Qurumun nümayəndələri əqli mülkiyyət məsələləri ilə bağlı müxtəlif instansiyalarda 50-yə yaxın iş üzrə 80-dək məhkəmə iclasında iştirak edib: “Hər bir işə dair ekspert rəyi hazırlanıb və hüquq sahibləri üçün maarifləndirmə tədbirləri keçirilib. Hesabat ilində sənaye mülkiyyəti ilə bağlı cavabdeh qismində agentliyə qarşı inzibati icraat qaydasında məhkəmələrdə qaldırılan və 2024-cü ildə yekunlaşmış 17 iddiadan 15-i rədd edilərək, agentliyin mövqeyinin qanuni və əsaslı olması barədə müvafiq qərarlar qəbul olunub”.

# Əqli Mülkiyyət Agentliyi erməni saxtakarlıqlarını ifşa edir



## Milli-mənəvi irsimiz qəsdlərdən etibarlı qorunur

Agentliyin rəhbəri qeyd etdi ki, agentliyin sənaye mülkiyyətinin mühafizəsi ilə bağlı mübahisələrə baxan Apellyasiya Şurasına 269 müraciət (2023-cü ildə 275) daxil olub: “Ötən dövrdə əmtəə nişanlarına dair 121 ərizə cavablandırılıb, 43 ərizə isə qismən təmin olunub. Digər müraciətlər qanunvericilikdə müəyyən edilmiş qaydada baxılmaqdadır”.

Professor daha sonra söylədi ki, agentlik erməni saxtakarlıqlarının və plagiatçılığının ifşası istiqamətində də xeyli iş görüb: “Bu məqsədlə 2016-cı ildən “Don bəzəyər də, ifşa edər də” seriyasından kitab və broşurlar nəşri davam etdirilib. 2024-cü ildə bu seriyadan hazırlanmış “Qərbi Azərbaycan torpaqları qədim və klassik mənbələrdə və DNT-analiz” adlı kitabı yeni (müəllif K.İmanov) Azərbaycan və rus dillərində nəşr olunaraq yayılıb.

Bundan başqa, dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin “O olmasın, bu olsun” komediyasının musiqisinin bir hissəsini və Azərbaycan musiqi irsinin digər nümunələrini ermənilərin mənimsəməsi ilə bağlı agentliyin Mədəniyyət Nazirliyi ilə birgə bəyanatı yayılıb. Sənəddə komediyanın musiqisinin bir hissəsinin erməni bəstəkarı Arno Babacanyanın “müəllifliyi” ilə “Vaqarşabat rəqsi” adı altında “Youtube” platformasında yerləşdirilməsinə ciddi etiraz bildirilib. Üzeyir Hacıbəylinin müəllif hüquqlarının bərpa edilməsi, habelə Ermənistanda və ya onun subyektlərndə Azərbaycan mədəni irsi, xüsusilə də musiqi irsi nümunələrinin kütləvi şəkildə mənimsənilməsi hallarını aradan qaldırmaq və görülən tədbirlər barədə məlumat verilməsi tələb olunub.

Eyni zamanda, sözləri və musiqisi Azərbaycan bəstəkarı Bəhram Nəsibova məxsus “Qarabağ” (“Anadır arzulara hər zaman Qarabağ”) adlı mahnının sözlərini erməni ifaçısı Gor Yepremyan dəyişdirmiş və onu ifa edərək “Sirun jan” adı ilə “erməni xalq mahnısı” kimi “Youtube” platformasında yerləşdirmişdi. Agentliyin gördüyü tədbirlər nəticəsində oğurluq mahnı “Youtube” platformasından və “Youtube Music”, “Spotify”, “Apple Music”, “Amazon Music”, “Deezer” və digər rəqəmsal musiqi platformalarından silinib. Bu məsələ ilə əlaqədar agentlik 2024-cü il 9 iyulda geniş şərh, 10 iyulda isə Mədəniyyət Nazirliyi ilə Birgə Bəyanat yayıb.

Musiqisi Azərbaycan bəstəkarı, əməkdar incəsənət xadimi Cavanşir Quliyevə məxsus, sözləri bayatılardan ibarət olan “Yarımgilə” adlı mahnının sözlərini isə erməni ifaçı Minas Ovanesyan (Mino) dəyişdirərək ifa edib və “Youtube” platformasında yerləşdirib: “Agentlik bu erməni oğurluğunun da qarşısını alıb və mahnı “Youtube” platformasında 5 səhifədən silinib”.

Erməni saxtakarlıqlarının və plagiatçılığının bununla bitmədiyini bildirən Kamran İmanov diqqəti “Youtube” platformasının “BehrooZ Abshar” adlanan səhifəsinə çəkdi. Bu səhifədə erməni musiqi nümunələri kimi yerləşdirilmiş Azərbaycanın xalq artisti Şövkət Ələkbərovanın ifa etdiyi “Yar gəldi, yar” (musiqisi Adil Gəraya, sözləri Əli Kərimə məxsusdur), “Töhfə” (musiqisi Firəngiz Babayevanın, sözləri Baba Vəziroğlunundur), “Getmə amandır” (musiqisi Hacı Xanməmmədovun, sözləri Aşıq Ələsgərindir), “Yavaş-yavaş” (musiqisi Nazil Qəmərlinskinin, sözləri Bəxtiyar Vahabzadənindir) və “Bayram şamları” (musiqisi Cahangir Cahangirovun, sözləri Şıxəli Qurbanovundur) mahnıları da agentliyin gördüyü tədbirlər nəticəsində həmin platformadan silinib.

Agentlik rəhbərliyi vurğuladı ki, 30 il ədalətin bərpasına çalışan, 44 gündə xalqımıza qələbə qazandıran və 23 saatda suverenliyimizi bərpa edən Ali Baş Komandan Prezident İlham Əliyev sabahımızın memarı olaraq ölkəmizi gələcəyə inamla aparır. Azərbaycan dövləti qalib olmasına baxmayaraq, Ermənistan ilə sülh sazişi bağlamağın təşəbbüskarıdır.

Daha sonra Kamran İmanov ermənilərin səmimiyyətdən uzaq olduqlarını, ikiüzlü davranışlarını və revanşizm cəhdlərini xatırladaraq bildirdi: “Bu yaxınlarda Gümrü şəhərində partiya soydaşları qarşısında aşağıdakı etirafla çıxış edib: “Tarixi Ermənistandan real Ermənistana keçməliyik, əks halda, real Ermənistan tarixi Ermənistana çevrilə bilər. Lakin bunlar yalnız sözlərdir, hərəkətlər isə əksini göstərir. Paşinyanın dedikləri ilə əməli düz gəlmir: bir tərəfdən sərhəddə atəş açılır, digər tərəfdən sülh sazişinin perspektivindən danışır. Əgər bu etiraflar səmimidirsə, bəs real Ermənistan hansı səbəbdən sülh ilə bağlı dövlətimizin haqlı şərtlərini qəbul etmir və sazişin bağlanmasını uzadır?”.

Məruzəçi onu da bildirdi ki, dünyanın ən zəngin mənəvi xəzinələrindən sayılan Sankt-Peterburq arxivində qədim erməni müəlliflərinin əlyazmalarını tapmaq mümkün deyil: “2003-cü ildə Sankt-Peterburqun 300 illiyinə həsr olunmuş “Sokrovişa akademiçeskix sobraniy Sankt-Peterburqa” kitabı çapdan çıxmışdı. Nəşrin tərtibatçısı milliyyətcə erməni olan professor Yuriy Petrosyan yazmışdı ki, arxivdə qorunub saxlanan erməni əlyazmaları arasında orijinal nümunə yoxdur, əksəriyyəti – 80 faizə qədəri XVII–XVIII əsrlərə aid köçürmələrdir, bir neçəsinin üzü XIV–XV əsrlərdə köçürülüb. Erməni aliminin digər etirafına əsasən, bu arxivdə VII–XI əsrlərə aid türk dilli sənədlərin originallarının sayı isə minlərlədir”.

Bu, onu göstərir ki, hayların böyük həvəslə istinad etdikləri saxta mətnlərin, əlyazmaların originalları, adətən, tapılmır, yaxud sonrakı köçürmələr şəklində tapılır. Bunların kökündə erməni saxtakarlığı dayanır: “Mifologiyaya əsaslanan “böyük torpaqlar” stereotipi qonşularına qarşı ərazi iddiaları, müxtəlif növ mifologemlərdən irəli gələn “böyük erməni mədəniyyəti”, “sivilizasiyanın ilk erməni ocağı” mədəni oğurluqları erməniçilik təfəkküründə “təbiilik” və “legitimlik” qazandırır. Mif stereotipləri müasir erməni identikliyini formalaşdırır, yaradılmış mifologemlər erməni siyasətçilərinin, xadimlərinin, alimlərinin, hətta kütlənin mövcud olan əxlaqına da təsir göstərir".

Kamran İmanov müəllif hüquqlarına da toxunaraq bildirdi ki, 2024-cü ildə 346 müəllifin 660 əsəri, o cümlədən 306 müəllifə məxsus 543 əsər elektron qaydada qeydiyyatdan keçirilib: “Əsərlərin rəsmi qeydiyyatının tətbiq edildiyi 1996-cı ildən indiyədək agentlikdə 16 min 228 əsər və əlaqəli hüquqların obyektləri, o cümlədən 2 min 125 əsər elektron qaydada qeydiyyatdan keçirilib. Dövlət reyestrində 185 patent (2023-cü ildə 151 patent), o cümlədən ixtiralara dair 128 (2023-cü ildə 103), faydalı modelə aid 43 (2023-cü ildə 36) və sənaye nümunələrinə aid 14 (2023-cü ildə 12) patent qeydiyyata alınıb. Patent fəallığı 2023-cü illə müqayisədə 22 faiz artıb. Sənaye mülkiyyəti obyektlərinə (ixtira, faydalı model, sənaye nümunəsi, əmtəə nişanı, coğrafi göstərici) dair iddia sənədlərinin ekspertizasının müddəti orta hesabla 30–50 faiz qısaldılıb”.

Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli konfransda dedi: “Bu konfrans Qərbi Azərbaycan İcmasının Əqli Mülkiyyət Agentliyi ilə keçirdiyi ikinci tədbirdir. Bu tədbirlər erməni saxtakarlıqlarının dünyada ifşa edilməsində mühüm rol oynayacaq. Əqli Mülkiyyət Agentliyinin çoxşaxəli fəaliyyətində erməni saxtakarlıqlarının ifşası mühüm yer tutur. Agentliyin bu istiqamətdə gördüyü işlərin böyük əhəmiyyəti var. Bu baxımdan Qərbi Azərbaycan İcması ilə Əqli Mülkiyyət Agentliyinin fəaliyyət maraqları üst-üstə düşür”.

Çıxışlarda erməni millətçilərinin Azərbaycanın qeyri-maddi mədəni irsini oğurlamaları, Qərbi Azərbaycan ərazisində, eləcə də işğal dövründə həyata keçirdikləri vandalizm aktının, bütövlükdə, dünya irsinə qarşı cinayət aktı olduğu vurğulanıb. Erməni saxtakarlıqlarının və uydurmalarının qədim mənbələr əsasında ifşa edilməsinin vacibliyi baxımından Əqli Mülkiyyət Agentliyinin və Qərbi Azərbaycan İcmasının birgə keçirdiyi konfrans müzakirə edilən mövzu ilə bağlı aktual diskussiyaya çevrildi, qarşıda duran vəzifələrə aydınlıq gətirildi.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Leyla Əliyevanın Vyetnama səfəri

## VKP MK Baş katibinin xanımı ilə görüş



**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Vyetnama səfəri çərçivəsində Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibinin xanımı No Fon Li ilə görüşüb.**





Görüş bu ölkənin Milli Təsviri İncəsənət Muzeyində keçirilib. Bildirilib ki, muzey Vyetnamın bədii irsini nümayiş etdirən əsas mədəniyyət ocaqlarındandır. Muzeyin qalereyaları yerli və digər ölkələrdən ziyarətçiləri cəlb edən unikal kolleksiyaya sahibdir. Daimi ekspozisiyalarla yanaşı, burada müvəqqəti sərgilər, uşaqlar üçün yaradıcı məkan da var.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibinin xanımı No Fon Li iki ölkə arasında mövcud əlaqələrin genişlənməsi ilə bağlı fikir mübadiləsi aparıblar.

Qeyd edilib ki, Azərbaycanla Vyetnam arasında sıx əməkdaşlıq hələ ulu öndər Heydər Əliyevin Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində ilk xarici səfərini məhz Vyetnama etdiyi vaxtdan başlayıb. Bu gün isə Ümummilli liderin adını daşıyan Fond iki ölkə arasında münasibətlərin sıx tərəfdaşlıq, qarşılıqlı hörmət və dostluq səviyyələrində davam etdirilməsi üçün Vyetnamla müxtəlif sahələrdə əlaqələrin dərinləşməsinə öz töhfəsini verir.

Görüşdə dövlət səviyyəsində qurulan münasibətlərin müxtəlif istiqamətlərdə, o cümlədən mədəniyyət, təhsil, sosial sahələr üzrə layihələr çərçivəsində daha da dərinləşməsinin vacibliyi vurğulanıb, bu il mayın 7-8-də Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi To Lamın Azərbaycana nəzərdə tutulan səfərinin iki ölkə əməkdaşlığının möhkəmlənməsində növbəti addım olacağına əminlik ifadə edilib.

Dahi Azərbaycan bəstəkarı Qara Qarayevin 1954-cü ildə yazdığı "Vyetnam süitası" əsərinin 2023-cü ildə Hanoy şəhərində premyerasının keçirilməsi, Azərbaycan musiqiçilərinin Vyetnam Milli Musiqi Akademiyası ilə birgə konsert proqramının təşkili kimi mədəni layihələrin gələcəkdə də davam etdirilməsinin, hər iki ölkənin mədəniyyət günlərinin təşkil olunmasının, o cümlədən mədəniyyət xadimlərinin, ziyalıların və gənc fəalların qarşılıqlı səfərlərinin vacibliyi vurğulanıb.

Heydər Əliyev Fondunun Vyetnamda həyata keçirdiyi layihələrin bundan sonra da müxtəlif sahələr üzrə davam etdiriləcəyi bildirilib, iki ölkənin turizm potensialı, ətraf mühitin qorunmasına yönələn layihələr diqqət mərkəzində olub. Həyata keçirilən layihələrin ölkələrimiz və xalqlarımız arasında münasibətlərdə xüsusi rol oynadığı qeyd edilib.

## Vitse-prezidentlə görüş







**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Vyetnam Sosialist Respublikasına səfəri çərçivəsində bu ölkənin vitse-prezidenti Vo Ti An Suan ilə görüşüb.**

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın salamlarını Vo Ti An Suana çatdıran Leyla Əliyeva səfər zamanı keçirilən görüşlərin və aparılan müzakirələrin bundan sonra da əlaqələrə öz töhfəsini verəcəyinə əminliyini ifadə edib.

Söhbət zamanı Azərbaycan və Vyetnamın dövlət başçılarının qarşılıqlı səfərlərindən sonra əməkdaşlığın və siyasi dialoqun intensivləşdiyi bildirilib.

Dövlətlərarası diplomatik münasibətlərlə yanaşı, xalqlar arasında əlaqələrin, o cümlədən qeyri-hökumət səviyyəsində əməkdaşlığın vacibliyi diqqətə çatdırılıb. Hanoy Ticarət və Turizm Kollecində, görmə qabiliyyəti məhdud uşaqlar üçün orta məktəbdə bir sıra görüşlərin keçirildiyi qeyd olunub, təhsil, sosial və ətraf mühitin qorunması sahələrində layihələrin bundan sonra da davam etdiriləcəyi bildirilib.

Görüşdə, həmçinin hər iki ölkənin turizm potensialının inkişafı baxımından əməkdaşlıq və ayrı-ayrı sahələri əhatə edən mübadilə proqramlarının icrası, iki ölkə mədəniyyətinin daha yaxından tanıdılması üçün tədbirlərin təşkili məsələləri diqqət mərkəzində olub.

# AHİK-in Əməyin Mühafizəsi və Hüquqi Yardım Mərkəzi



**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında Milli Məclisin Əmək və sosial siyasət komitəsinin üzvləri ilə görüş keçirilib.**

Konfederasiya sədri Sahib Məmmədov bildirilib ki, ittifaq üzvlərinin əmək, sosial və iqtisadi hüquqlarının müdafiəsi, qabaqcıl beynəlxalq standartlara uyğun sağlam və təhlükəsiz iş şəraitinin yaradılması istiqamətində kompleks addımlar atılır, müalicə və istirahətin səmərəli təşkili məqsədilə sanatoriya-kurort müəssisələrinin fəaliyyəti davamlı olaraq təkmilləşdirilir.

AHİK-də aparılan struktur və kadr islahatlarından, qadınların və gənclərin həmkarlar ittifaqları sistemində rolunun artırılması istiqamətində görülən işlərdən danışan Konfederasiya sədri yeni layihələr, o cümlədən "AHİK könüllüləri", "Layiqli Əmək Səfirləri", "AHİK Plus", "Həmkardan həmkara qayğı ilə", "Sağlamlığa doğru qaç" layihələri barədə deputatlara məlumat verib. Vurğulanıb ki, yollayışların vahid mərkəzdən verilməsi üçün "Kurort" Turizm İnformasiya Mərkəzi yaradılıb, hazırda prosesin tam rəqəmsallaşdırılması işləri aparılır.



Görüşdə Milli Məclisin Əmək və sosial siyasət komitəsi ilə əməkdaşlığın genişləndirilməsinin əhəmiyyəti və həmkarlar ittifaqı sisteminin inkişafına verəcəyi töhfələrdən də bəhs olunub.

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev Konfederasiya tərəfindən həyata keçirilən islahatları və yenilikləri yüksək qiymətləndirib. Musa Quliyev sosial sahədə qanunvericilik bazasının təkmilləşdirilməsi ilə bağlı görülən işləri diqqətə çatdırıb, eləcə də AHİK-lə əlaqələrin inkişafının əmək hüquqlarının qorunmasında önəmini vurğulayıb.

Sonra Milli Məclisin üzvləri AHİK-də vətəndaşların qəbulu üçün yaradılmış şərait, həmçinin Çağrı Mərkəzi ilə tanış olublar. Ardınca dövlət qurumları nümayəndələrinin və deputatların iştirakı ilə AHİK tərəfindən yeni yaradılan Əməyin Mühafizəsi və Hüquqi Yardım Mərkəzinin açılışı olub. Konfederasiya sədri Sahib Məmmədov mərkəzin vəzifələri və fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verib. Bildirilib ki, mərkəzdə əmək müfəttişləri tərəfindən ittifaq üzvlərinin müraciətləri cavablandırılacaq, əmək münasibətlərində qarşılaşdıqları hüquqi məsələlərlə bağlı onlara yardım göstəriləcək, maarifləndirmə işləri aparılacaq.

Tədbirdə çıxış edən Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, iqtisadiyyat nazirinin müavini Sahib Ələkbərov, əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Vüsal Nəsirli və deputat Ziyad Səmədzadə Konfederasiya tərəfindən həyata keçirilən layihələrin, tətbiq olunan yeniliklərin önəmini vurğulayıb, Mərkəzin fəaliyyətinə uğurlar arzulayıblar.

Sonra Əməyin Mühafizəsi və Hüquqi Yardım Mərkəzinə baxış keçirilib.

***XQ***

# "Vətənpərvər gənclik parlaq gələcəyimizin təminatıdır"





**Aprelin 22-də "Konstitusiya və Suverenlik İli" çərçivəsində Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı, YAP Xətai rayon təşkilatı və Xətai Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Vətənpərvər gənclik parlaq gələcəyimizin təminatıdır" mövzusunda tədbir keçirilib.**

Tədbir iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin abidəsini və Zəfər parkını ziyarət ediblər. Ardınca YAP Xətai rayon təşkilatının qərargahında davam edən tədbirdə şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub, Dövlət Himni səsləndirilib.

YAP Xətai rayon təşkilatının sədri Ramil Mirzəyev bildirib ki, Prezident İlham Əliyev tərəfindən 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunması tarixi baxımdan mühüm qərardır. R.Mirzəyev qeyd edib ki, bu uğurların qazanılmasında gənclərin əvəzsiz rolu var, bu isə onların vətənpərvərlik ruhunda tərbiyə almasından irəli gəlir.

YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsinin müdiri Zəkiyyə Musayeva, Xətai Rayon İcra Hakimiyyətinin başçısı Rafiq Quluyev, YAP Veteranlar Şurasının sədr müavini, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova və başqaları çıxış edərək ölkəmizdə gənclər siyasətinin hər zaman dövlətin prioritet istiqamətlərindən biri olduğunu vurğulayıblar. Bildirilib ki, Ulu öndər həmişə gənclərin inkişafına böyük önəm verib, bu gün bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Sonra tədbir interaktiv formada davam edib, iştirakçıların sualları cavablandırılıb. Sonda partiya sıralarına yeni qəbul olunan şəxslərə üzvlük vəsiqələri təqdim olunub və Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

***XQ***

# Ulu öndərin xatirəsinə klassik musiqi

**Dünən "Gənclik" metrostansiyasının yaxınlığında yenicə istifadəyə verilmiş istirahət parkında ümummilli lider Heydər Əliyevin anadan olmasının 102 illiyinə həsr edilmiş "Bakının baharı" adlı klassik musiqi konserti olub.**



Dövlət rəsmilərinin, çoxsaylı qonaqların və paytaxt sakinlərinin iştirak etdikləri proqramda beynəlxalq müsabiqələr laureatı Mustafa Mehmandarovun rəhbəri və baş dirijoru olduğu "Archi" Kamera Orkestrinin ifasında əsərlər səsləndirilib.

Konsert zamanı Ulu öndərin həyat və fəaliyyətini əks etdirən video-foto materiallar nümayiş etdirilib, onun sevdiyi mahnılar səsləndirilib. Proqrama Üzeyir Hacıbəyli, Niyazi, Qara Qarayev, Fikrət Əmirov, Soltan Hacıbəyov, Müslim Maqomayev, Tofiq Quliyev kimi dahi Azərbaycan bəstəkarlarının unudulmaz bəstələri ilə yanaşı, dünya şöhrətli Antonio Vivaldinin əsərləri də daxil idi.

**Paytaxt sakini Orxan Ağayev XQ-yə bildirib:**

– Ümummilli liderimiz Heydər Əliyevin həyat yolu, siyasi mübarizəsi və dövlət quruculuğundakı fəaliyyəti müasir Azərbaycanın əsas dayaqlarını formalaşdıran sütunlardandır. Ulu öndər mədəniyyətə, incəsənətə də lazımi qayğı göstərir, hər kəsin musiqi zövqünün olmasını vacib sayırdı. Ağsaqqalların dediyinə görə, o, hələ respublikamıza rəhbərlik etdiyi ilk dönəmdə paytaxtla yanaşı, digər şəhərlərimizdə də klassik musiqi dinləmələrini vacib sayır və tövsiyə edirdi.

Bu baxımdan bu gün burada məhz klassik musiqi konsertinin təşkili təsadüfi deyil. Ruhu şad olsun.

**Sənubər İsmayılova isə dedi:**

– Heydər Əliyevin mədəniyyət fəlsəfəsinin əsasını insanların musiqi zövqünün inkişafı təşkil edirdi. Bugünkü tədbirin məqsədi də elə budur. Baxın, yeni istifadəyə verilmiş parkda təşkil olunan ilk tədbirlərdən biri məhz kamera musiqisi konsertidir. Çıxışları maraqla dinlədik və qocaman Xəzərdən əsən meh kimi həzin musiqinin qanadlarında xeyli feyziyab olduq. Bizə bu zövqü yaşadan musiqiçilərə və təşkilatçılara minnətdarıq.

***R.FİKRƏTOĞLU***
***XQ***

# Ankarada kukla və kölgə teatrları

**Qardaş Türkiyənin paytaxtında Hadi Poyrazoğlu adına IV Beynəlxalq Kukla və Karagöz (kölgə teatrı) Teatrları Festivalı keçirilir.**




Teatr bayramına Türkiyə, Özbəkistan və Şimali Kipr Türk Cümhuriyyətindən olan teatr kollektivləri ilə yanaşı, Azərbaycan Dövlət Kukla Teatrı da qatılıb. Kollektivin "Cırtdanın Türkiyədə macəraları" adlı tamaşa-konserti aprelin 25-də paytaxtdakı "CerModern" mərkəzində nümayiş olunacaq. Buna qədər isə sənətçilərimizin Türkiyə–Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunda (TADİV) oranın rəhbəri, professor Aygün Attarla görüşü olub.

Dövlət Kukla Teatrının direktoru, Əməkdar mədəniyyət işçisi Rəşad Əhmədzadə çıxışında Aygün xanımın çoxşaxəli fəaliyyətində maddi-mənəvi dəyərlərin təbliğinin daim ön planda olduğuna diqqət çəkib. Onun iki qardaş ölkə arasında böyük mənəvi körpü olduğunu söyləyib.

Görüşdən məmnunluğunu bildirən Aygün Attar milli mədəniyyətimiz, onun əsas qollarından olan teatrımızın təşəkkülü üçün ölkə sərhədlərindən kənarlarda daha geniş müstəvidə təbliğini vacib sayıb. Bu mənada, festival və sənət mübadiləsi xarakterli bu kimi tədbirlərin intensivliyinə diqqət çəkib, festivalın işinə uğurlar arzulayıb.

Qeyd edək ki, festivalda təqdim olunacaq "Cırtdanın Türkiyədə macəraları" səhnə əsərinin quruluşçu rejissoru və səhnələşdirmə müəllifi Saida Haqverdiyeva, tərtibatçı rəssamı isə İqbal Əliyevdir. Obrazları tamaşada aparıcı kuklaçı aktyorlar – Səriyyə Mansurova, Aygül Ağayeva, Elnur Abbasquliyev, Rəhim Rəhimov və Cavid Telman canlandırırlar.

Festivalın proqramına əsasən, tamaşalar Ankarada (aprelin 25-dək), İstanbulda (26 aprel), daha sonra isə Azərbaycanda (28–30 aprel) və Özbəkistanda (2–5 may) təqdim ediləcək. Sonuncu mərhələ 9–12 may tarixlərində Şimali Kipr Türk Cümhuriyyətində reallaşacaq.

***XQ***

# Qırğızıstanda Azərbaycan Mədəniyyəti Günləri

**Qırğızıstanda Azərbaycan Mədəniyyəti Günləri çərçivəsində bu ölkənin Milli Kitabxanasında Azərbaycanın Xalq şairi, akademik Bəxtiyar Vahabzadənin 100 illiyi münasibətilə görkəmli söz ustasının qırğız dilində yeni nəşr olunmuş "Seçilmiş əsərləri"nin və "Mənim dostlarım" (1949) adlı ilk kitabının təkrar nəşrinin təqdimatı keçirilib.**



Əvvəlcə Bəxtiyar Vahabzadənin ömür və yaradıcılıq yoluna, ictimai fəaliyyətinə həsr olunan videoçarx nümayiş etdirilib. Qırğızıstanın mədəniyyət, informasiya, idman və gənclər siyasəti nazirinin müavini Gülbara Abdıkalıkova Bəxtiyar Vahabzadənin kitablarının qırğız dilində çap olunmasını əlamətdar hadisə kimi dəyərləndirib.

TÜRKSOY-un Baş katibi və yeni nəşrin ön söz müəllifi Sultan Raev deyib ki, Bəxtiyar Vahabzadənin yaradıcılığı təkcə doğma yurdu Azərbaycanın deyil, eyni zamanda, Türk dünyasının taleyinin, xalqlarımızın dostlunun və ölkələrimizin birliyinin təcəssümüdür. Baş katib bildirib ki, təşkilat böyük şairin 100 illiyi münasibətilə 2025-ci ili "Bəxtiyar Vahabzadəni anma ili" elan edib. TÜRKSOY-un dəstəyi ilə nəşr olunan kitablar isə qırğız oxucuların şairin yaradıcılığı ilə dərindən tanışlığı üçün qiymətli mənbədir.

Mədəniyyət naziri Adil Kərimli XX əsr Azərbaycan ədəbi və ictimai fikrinin görkəmli nümayəndələrindən olan Bəxtiyar Vahabzadənin milli-etnik yaddaşımızla bağlı çox qiymətli əsərlər qələmə aldığını deyib. O bildirib ki, Xalq şairinin yaradıcılığını dövlətimiz daim yüksək qiymətləndirib. Ünlü sənətkar respublikanın ali təltiflərinə layiq görülüb, xatirəsi əbədiləşdirilib. Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə bu il Bəxtiyar Vahabzadənin 100 illiyi dövlət səviyyəsində geniş qeyd edilir. Nazir yeni nəşrlərin şairin yubileyinə dəyərli töhfə olduğunu bildirib.

Ölkəmizin Bişkekdəki səfiri Lətif Qəndilov, Qırğızıstan Milli Yazıçılar İttifaqının sədri Kanıbek İmanaliyev, Azərbaycan Milli Kitabxanasının direktoru Kərim Tahirov və nəşrin tərcüməçiləri Altınbek İsmailov, Baktıgül Çoturova, Ömürbek Tillebaev və başqaları çıxış edərək B.Vahabzadənin şəxsiyyəti və yaradıcılığı haqqında fikirlərini bölüşüblər.

Mərasimdə incəsənət ustalarımızın ifasında B.Vahabzadənin sözlərinə yazılmış musiqi nömrələri ifa olunub, şeirləri səsləndirilib.

***T.RÜSTƏMLİ***
***XQ***

# "Yaşıl" gələcəyin qurucuları kimlər olacaq?

**Ətraf mühit problemləri qlobal səviyyədə ciddi olsa da, ölkə gənclərinin bu istiqamətə marağı, nədənsə, bir qədər azdır. DİM-in ali məktəblərə qəbul üzrə 1-ci ixtisas qrupunda yer alan ekologiya mühəndisliyi, həmçinin 4-cü qrupda ekologiya ixtisaslarının son illərdə keçid ballarının aşağı olması da bunu sübut edir. Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında İctimai Şuranın sədri, ekoloq Amin Məmmədovla bu məsələlər ətrafında həmsöhbət olduq.**



***– Amin müəllim, öncə bu iki ixtisasın fərqləndirici cəhətlərindən danışardıq.***

– Ekologiya ixtisasında əsasən, işin nəzəri və fundamental elmi tərəfləri, ekologiya mühəndisliyində isə infrastruktur və iqtisadi istiqamətlər, eləcə də ətraf mühitin idarə edilməsində istifadə olunan qurğular və avadanlıqlar öyrədilir. Məsələn, suyun, havanın, torpağın, fauna və floranın araşdırılması, öyrənilməsi, eləcə də konseptual təkliflərin verilməsi isə ekoloqun, istifadə edildikdən sonra çirkab suların təmizlənməsində istifadə edilən qurğular, onların quraşdırılması isə mühəndisin işidir.

***– Deməli, ekoloq biologiyanı, kimyanı yaxşı bilməlidir.***

– Elədir. Hətta bioloq, kimyaçı, hidroloq təcrübə toplayıb ekoloq ola bilər.

***– Təhsil ekspertləri bu iddiadadırlar ki, ekologiya mühəndisi və ekologiya ixtisasları birləşdirilsə, daha yaxşı nəticə əldə etmək olar. Hansı istiqamət bakalavra maraqlı gəlirsə, magistratura pilləsinə ixtisaslaşa bilər. Necə düşünürsünüz, bu ixtisasların birləşdirilməsi perspektivli görünürmü?***

– Fikrimcə, bu birləşdirmə böyük dəyişikliyə səbəb olmaz, poblem yaratmaz. Amma buna ehtiyac yoxdur, zəruri deyil. Bizə mühəndis də, ekoloq da lazımdır. Çünki ekoloq nəzəriyyəçidir, təhlillər aparır, mühəndis isə bunu praktikada həyata keçirir.

***– İllərin statistik nəticələrini təhlil edəndə görürük ki, bu ixtisaslara maraq azdır, keçid balı 150-dir. Az biliklə ekoloq, mühəndis olmaq nə dərəcədə düzdür?***

– Səbəblər müxtəlifdir. Ola bilsin, ekologiya, ətraf mühit məsələləri yetəri qədər təşviq edilmir. Az balla bu ixtisaslara qəbul olmağı problem kimi görmürəm. Yaxşı ekoloqu, mühəndisi ali məktəb yetişdirir, ümid bu təhsil ocaqlarınadır.

***– Bəs ali təhsil müəssisələrində bu ixtisasların tədrisi səviyyəsi nə yerdədir? Təhsil vermək üçün universitetlərimizin infrastruktur imkanları, kadr potensialı hansı vəziyyətdədir?***

– Müşahidələrimə və məzunlarla əməkdaşlığıma əsasən deyə bilərəm ki, Bakı Mühəndislik, Neft və Sənaye, Bakı Dövlət universitetlərində bu ixtisaslar yaxşı tədris edilir. Məzunları xaricdəki prestijli universitetlərdə magistratura pilləsini qazana bilirlər. Deməli, baza təhsili səviyyəlidir. İnfrastruktur imkanlar, kadr potensialı da qənaətbəxşdir. Pedaqoji heyətin bir çoxu bu sahələr üzrə elmi işlər həyata keçirib, kifayət qədər yaxşı nəticələr var. Praktiki işləyən, istehsalat təcrübəsi olan müəllimlərimiz də var. Sahəni inkişaf etdirmək, ixtisaslaşmaq isə gənclərdən asılıdır.

***– Prezident İlham Əliyev 2024-cü ili "Yaşıl dünya naminə həmrəylik ili" elan etmişdi. Keçən payız ölkəmizdə COP29 kimi mötəbər tədbir keçirildi. Müxtəlif tədbirlər, geniştərkibli müzakirələr aparıldı və real işlər görüldü. Sizcə, bütün bunlar növbəti tədris illərində ekologiya mühəndisliyi və ekologiya ixtisaslarına marağı artıra biləcəkmi?***

– Sözsüz ki, müəyyən mənada təsiri olacaq. Biz bunun effektini illər sonra görə biləcəyik. Ətraf mühit vacib sahədir və bu istiqamətdə dərin biliyi olan gənc mütəxəssislərə ehtiyac var.

***– Bu ixtisasların məzunlarının iş imkanları hansı qurumlarda və sahələrdə realdır?***

– Bu ixtisaslarda 4 illik təhsil almaq ilkin nəticədir. Məzunlar dövlət qulluğu imtahanından keçməklə, dövlətin ekologiya siyasətini həyata keçirən Ekologiya və Təbii Sərvətlər Nazirliyində və onun tabeliyindəki qurumlarda karyera qura bilərlər. Həmçinin xarici dil biliyi olan və ixtisasın texnoloji tərəfini bilən məzunlar neft və tikinti şirkətlərində yüksək maaşla çalışa bilərlər. Eyni zamanda, ekoloqların və ekologiya mühəndislərinin elmi-tədqiqat və pedaqoji istiqamətlərdə də karyera imkanları genişdir.



***– Amin müəllim, qəbul imtahanlarından sonra abituriyentləri ixtisas seçimi mərhələsi gözləyir. İstərdik ki, bu ixtisasların seçilməsi baxımından gənclərə tövsiyələrinizi verəsiniz. Niyə məhz ekoloq, ekologiya mühəndisliyi?***

– Təbiəti sevən, ətraf mühitin sirli aləminə baş vurmaq və bu istiqamətlərdə mütəxəssis kimi yetişmək istəyən gənclər üçün bu ixtisaslarda oxumaq əla fürsətdir. Hədəfinizdən, məqsədinizdən geri çəkilməyin.

***Rizvan FİKRƏTOĞLU***
***XQ***

*Yeni kitablar*

**Onun adı hər çəkiləndə, nədənsə, öncə yadıma yazıçı dostum Meyxoş Abdullahın "Saçlarından asılan qız..." hekayəsi düşür. Yuxuda gələcək sevgilisini qıyıq gözlü ağ div qismində görən balaca Xatirə bunu anasına danışır: "Məni sinəsi bərabəri qaldırıb, saçlarımdan ürəyinə sancılmış mıxdan asaraq: – Mən səni yaralı qəlbimdən asıram, ey adam... Mənim bu param-parça olmuş qəlbimə bir sakitlik gətir!.. – dedi. – Mən onun ürəyindən asılı qalmışdım, ana... Mənim taleyim necə olacaq?!" Anası Xatirəyə deyir: "Sən böyü, qızım, o ağ div özü gəlib səni tapacaqdır".**

# "Ağ adam"ın nağılı

Real həyatdan götürülmüş bu hekayənin qəhrəmanları ədəbi mühitdə çox tanınan, hamının Givi dediyi albinos gürcü şair Giya və azərbaycanlı rəssam Xatirə Paçxataşvililərdir. Hər ikisi ilk ömür dostlarını itirib və indi birgə, mehriban ailə həyatı yaşayır, necə deyərlər, əl-ələ verib həyata meydan oxuyurlar.

Görmə əngəlli ağ adam – Azərbaycan və gürcü xalqları arasında dostluq münasibətlərinin daha da möhkəmləndirilməsində səmərəli fəaliyyət göstərən şair-tərcüməçi Giya Paçxataşvili müasirləri arasında haqqında ən çox bioqrafik-təhlili məqalə, esse, şeir və bütöv kitablar yazılan qələm sahibidir. Özünün 10 bədii-publisistik və 65-ə yaxın tərcümə kitabı çıxıb. Haqqında isə çoxsaylı sənədli filmlər çəkilib, oçerklər yazılıb, kitablar nəşr olunub.




Ötən ilin dekabrında Azərbaycan Yazıçılar Birliyinin "Natəvan" klubunda Azərbaycan, Gürcüstan və Rusiya Yazıçılar Birliyinin üzvü Giya Paçxataşviliyə həsr edilmiş növbəti əsərin – "Azərbaycan ədəbiyyatında Giya Paçxataşvilinin yeri" adlı kitabın təqdimatı oldu. Tədbirdə iştirak edən söz və sənət adamları Rəşad Məcid, Əsəd Cahangir, Rəfail İncəyurd, Hafiz Rüstəm, Xəyal Rza, Xatirə Fərəcli, Eldost Bayram, Nazir Rüstəmov, İbrahim İlyaslı, Tamxıl Ziyəddinoğlu və başqaları Giyanın həyat və yaradıcılığından, insani keyfiyyətlərindən, dünyaya özəl baxışından da söz açıb, onun bədii portreti olan kitabın məziyyətlərini qeyd etdilər. Kitabın müəllifləri Qənbər Ağayev və Nizami Tağısoy, eləcə də tərtibatçı rəssamı Sehran Allahverdi də ürək sözlərini söylədilər. Yekun qənaət bu oldu ki, həqiqətən də, Giya Paçxataşvilinin Azərbaycan ədəbiyyatında öz yeri var.

Undi isə, budur, daha 2 kitab – Givının yenicə çapdan çıxmış "Doğum şəhadətnaməsi" və haqqında yazılan "Givinin Qarabağnaməsi" Məhərrəmlilərin söz yükündə" əsərləri qarşımdadır. Şair dostumuz Nurafizin ön sözü ilə başlanan 1-ci kitab Azərbaycanın gürcü oğlunun son illərdə qələmə aldığı şeirlərdən ibarətdir. Bu sadə dilli, təbii şeirlərin arasında Vətənə və onun yurdsevər övladlarına həsr olunanlar xüsusilə seçilir. "Azərbaycan bayrağı", "Vətən", "Mübariz İbrahimova", "28 may", "44 günlük müharibə", "Şəhid bulaqları", "20 yanvar", "Bakı – Qroznı uçağı", "Qara qutu" və s. bu qəbildəndir.

*Bəzəyir göyü, yeri*
*Vətənpərvərlər piri.*
*Zamanın ürək şeiri,*
*Həqiqətin yarağı –*
*Azərbaycan bayrağı!*

Yazının əvvəlində Givi ilə Xatirənin birgə fədakar və mehriban həyatından söz açmışdıq. "Doğum şəhadətnaməsi" kitabında şairin ömür-gün dostuna yazdığı etiraf dolu poetik nümunələri də sevə-sevə oxuduq. Müxtəlif dövrlərdə qələmə aldığı "Can-can", "Sən–mən", "Mübarək", "Qoru", "Sən gələli", "O –sənsən", "Xəstəxana zarafatı", "Xatirə – 45", "Doğum günün", "Yenə sənə" və digər orijinal ruhlu şeirlərini Xatirə xanıma həsr edib:

***Givinin ən böyük varı,***
***Yeni ömrünün memarı.***
***Ürəyinin şah damarı,***
***Xatirəm, o – sənsən...***

Şairin 2021-ci ildə işıq üzü görmüş "Givinin Qarabağnaməsi" kitabında toplanan bədii nümunələr isə mayasını Vətənin bütövlüyünün təmin olunması, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması məramından tutub.




Qarşımdakı 2-ci kitabda onun qələm dostları Zemfira və Qiymət Məhərrəmlilər məhz "Givinin Qarabağnaməsi" haqqında duyğu və düşüncələrini sevgi ilə təqdim ediblər. Qanlı münaqişənin nə qədər soydaşımızın ömrünə balta çaldığını, körpələri ata-anasız qoyduğunu vurğulayan şair illər idi ki, fəryad qoparırdı, nəhayət, Vətən müharibəsi Böyük Qələbəmizlə sona yetdi. "Qarabağ – xalqımın qeyrət damarı" cana gəldi. Şair dedi:

***Mətinlik, qətiyyət – ən böyük silah,***
***Onu bərk saxlayın, verməyin əldən.***
***Bizim işimizə şərikdi Allah!***
***Quran ayəsidir, torpaq əzəldən.***

Bu yerdə akademik Nizami Cəfərovun sözləri yada düşür: "Mən şairlərimizin çox kitabını oxumuşam. Bəzilərinin bir şeirində neçə səhv tapıramsa, Givinin hər hansı bir kitabında bir səhvə belə rast gəlmirəm. Azərbaycan dilini öyrənmək istəyənlər, qoy, Givinin əsərlərini oxusunlar." Şair-rəssam Sehran Allahverdi isə deyib: "Givinin rəsmini çəkmək daha xoş gəlir mənə. Dəfələrlə onun semiabstrakt və ya sürrealist xarakterli rəsmlərini çəkmişəm. Givi insandan daha çox ruhdur, onu duymaq asan, ifadə etmək çətindir."

***Əli NƏCƏFXANLI***
***XQ***

# Çin ilə texnologiya əməkdaşlığı genişlənir



**XXI əsrdə rəqəmsal transformasiya qlobal iqtisadi inkişafın əsas hərəkətverici qüvvələrindən birinə çevrilmişdir. Dünyanın hər yerində hökumətlər süni intellekt, böyük verilənlər (Big Data), blokçeyn və əşyaların interneti texnologiyalarını dövlət idarəçiliyinə, biznes mühitinə və vətəndaşların gündəlik həyatına inteqrasiya etməyə çalışırlar. Geoiqtisadi turbulentlik və texnoloji liderlik uğrunda sürətlənmiş rəqabət şəraitində davamlı texnoloji ittifaqların formalaşdırılması xüsusi əhəmiyyət kəsb edir. Bu proseslər fonunda Azərbaycan ilə Çin Xalq Respublikası arasında bir-birini tamamlayan tərəfdaşlıq qurulur. Hər iki texnologiya sektorunda ikitərəfli əməkdaşlığı fəal şəkildə inkişaf etdirirlər ki, bu da hər iki ölkənin rəqəmsal inkişafa, innovativ iqtisadiyyata və beynəlxalq əlaqələrin genişləndirilməsinə strateji marağını əks etdirir. Prezident İlham Əliyevin Çinə səfəri digər sahələrlə yanaşı, texnologiya sektorunda da ikitərəfli əlaqələrin keyfiyyətcə yeni mərhələyə qədəm qoymasına da şərait yaradacağı şübhə doğurmur.**

Ümumiyyətlə, iki ölkə arasında əməkdaşlığın əsas sütunlarından biri rəqəmsal infrastruktur və texnologiyaların inkişafıdır. Azərbaycan Rəqəmsal İpək Yolu təşəbbüsündə, o cümlədən Avropa və Asiya arasında alternativ rəqəmsal dəhliz yaratmaq üçün Xəzər dənizinin dibi ilə fiber optik kabellərin çəkilməsi layihələrində fəal iştirak edir. Rəqəmsal İpək Yolu layihəsinin icrası rəqəmsal məzmunun və internet xidmətlərinin Avropa internet mərkəzlərindən Qafqaz, Mərkəzi və Cənubi Asiya ölkələrinə ötürülməsini nəzərdə tutur. Müxtəlif ölkələrin ərazisindən keçməklə bu meqa rəqəmsal telekommunikasiya dəhlizi yüksək ötürmə qabiliyyəti və məlumatların ötürülməsində ən az gecikmə ilə ən optimal, ən qısa marşrut olacaq və regional əməkdaşlıq və inkişafa təkan verəcək.



Bu layihə həmin regionların internet trafikinə artan tələbatını ödəməyə və regionda rabitə xidmətlərini yaxşılaşdırmağa kömək edəcək. Bundan başqa, layihə Avrasiyada iqtisadi sabitliyi və rifahı genişləndirəcək. Çin şirkətləri də Azərbaycanın telekommunikasiya infrastrukturunun, o cümlədən 5G texnologiyaları ilə bağlı layihələrin inkişafına öz töhfəsini verir. Bununla yanaşı, yüksək texnologiyalar və rəqəmsal iqtisadiyyat sahəsində əməkdaşlığa böyük diqqət yetirilir. Buraya süni intellekt, maliyyə texnologiyaları və ağıllı şəhərlərin yaradılması sahələrində əməkdaşlıq daxildir. Hər iki ölkə bilik və təcrübə mübadiləsində, eləcə də bu perspektivli sahələrdə birgə layihələrin həyata keçirilməsində maraqlı olduğunu bildirir.

"Yaşıl" enerji də digər prioritet sahədir. Azərbaycanın bərpa olunan enerji mənbələri sahəsində artan potensialını və bu sahədə qabaqcıl Çin texnologiyalarını nəzərə alaraq, ölkələr günəş və külək elektrik stansiyalarının tikintisində fəal əməkdaşlıq edirlər. Azərbaycanın enerji balansında bərpa olunan enerji mənbələrinin payının artırılmasına və aşağı karbonlu texnologiyaların inkişafına yönəlmiş birgə layihələr üzrə sazişlər imzalanır.

Qabaqcıl istehsal sahəsində də əməkdaşlıq inkişaf edir. Buna misal olaraq elektrik nəqliyyatı istehsalı sahəsində əməkdaşlığı göstərmək olar. Elektriklə işləyən avtobusların yığılması üzrə birgə müəssisələrin yaradılması nəzərdə tutulur ki, bu da şəhərin avtomobil parkının yenilənməsinə və yerli istehsalın inkişafına töhfə verəcək. Maşınqayırma və elektronikanın digər sahələrində də əməkdaşlıq imkanları nəzərdən keçirilir.

Mühüm aspektlərin biri də innovasiya və texnologiya transferi sahəsində qarşılıqlı əlaqədir. Azərbaycan Çin sərmayəsini yüksək texnologiya sektorlarına cəlb etməkdə və qabaqcıl Çin məhsullarından istifadə etməklə istehsalın lokallaşdırılmasında maraqlıdır. Azərbaycanın sənaye zonalarında və azad iqtisadi zonalarında Çin şirkətlərinin işləməsi üçün şərait yaradılır.

Əməkdaşlıq, həmçinin ikitərəfli ticarətin sadələşdirilməsi və sürətləndirilməsi üçün elektron ticarət və rəqəmsal ticarət platformalarının yaradılması, həmçinin "Kəmər və Yol" təşəbbüsü çərçivəsində Azərbaycan ərazisindən tranzit daşımaların səmərəliliyinin artırılması üçün "smart" (ağıllı) limanların və logistik mərkəzlərin inkişaf etdirilməsi sahələrini əhatə edir.

Ən yüksək səviyyədə tərəfdaşlığın strateji xarakteri və bütün sahələrdə, o cümlədən yüksək texnologiyalar və innovasiyalar üzrə praktiki əməkdaşlığın dərinləşdirilməsinin vacibliyi vurğulanır. Hər iki ölkədə birgə layihələrin stimullaşdırılması, təcrübə mübadiləsi və texnoloji ekosistemlərin inkişafı üçün anlaşma memorandumları və sazişlər imzalanır.

Beləliklə, Azərbaycan və Çin texnoloji əməkdaşlığı fəal və məqsədyönlü şəkildə inkişaf etdirir, bunu iqtisadi artımın, ikitərəfli əlaqələrin şaxələndirilməsinin və möhkəmlənməsinin mühüm amili kimi görürlər. Bu əməkdaşlıq qarşılıqlı faydalıdır: Azərbaycan qabaqcıl texnologiyalara və investisiyalara çıxış əldə edir, Çin isə Avropa və Asiyanın kəsişməsində yerləşən strateji əhəmiyyətli regionda texnoloji mövcudluğunu genişləndirir.

Bir sözlə, əməkdaşlığın institusional arxitekturası Bakı və Pekin arasında texnoloji tərəfdaşlığın genişləndirilməsi üçün etibarlı baza təşkil edir. Strateji aydınlıq, yüksək səviyyəli siyasi dəstək və hər iki tərəfin ikitərəfli mexanizmləri institusional olaraq gücləndirmək istəyi texnoloji inteqrasiyanın dərinləşməsi üçün əlverişli mühit yaradır. Prezident İlham Əliyevin Çinə səfəri digər sahələrlə yanaşı, texnologiya sektorunda da ikitərəfli əlaqələrin keyfiyyətcə yeni mərhələyə qədəm qoymasına şərait yaradacaq. İqtisadiyyatını şaxələndirməyə və qeyri-neft sektorlarını inkişaf etdirməyə çalışan Azərbaycan üçün Çinlə bu cür texnoloji əməkdaşlıq strateji əhəmiyyət kəsb edir və ölkənin modernləşdirilməsində mühüm amilə çevrilə bilər.

*Səbuhi MƏMMƏDOV*
*XQ*

**Media ekosistemi insanların gündəlik həyatında kütləvi informasiya vasitələrinin rolunu və yaranan təsirləri araşdırır. Bu anlayışa görə media təkcə informasiyayayıcı bir vasitə deyil, həm də cəmiyyətin dəyər və davranışlarına, sosial quruluşuna və fərdlərin dünyagörüşünə güclü təsir göstərən bir mühitdir. Media ekologiyası medianın formalaşma prosesini, istifadə imkanlarını və inkişaf mərhələlərini, həmçinin bu dəyişikliklərin insan təfəkkürü, mədəniyyət və sosial münasibətlər üzərindəki təsirlərini araşdırır.**

# Media ekosistemi sosial məsuliyyəti gücləndirir



"Media ecology" (media ekologiyası) terminini ilk dəfə amerikalı media tədqiqatçısı və filosof Neil Postman 1968-ci ildə istifadə etmişdir. Alim bu termini media mühitinin insan düşüncəsinə və cəmiyyətə təsirini təhlil etmək məqsədilə yaratmışdır. N.Postman bu yanaşmanı inkişaf etdirərək medianın cəmiyyətin strukturu və mədəniyyətinin formalaşmasındakı rolu barədə də tədqiqatlar aparmışdır.

Yeni məlumatlar və texnologiyaların həyatımıza aramsız olaraq daxil olduğu müasir media mühitində sosial şəbəkələrin rolu danılmazdır. Ancaq məlum faktdır ki, sosial şəbəkələr yalnız informasiya paylaşma vasitəsi deyil, həm də düşüncə, münasibət və davranışların formalaşdığı bir məkandır. Yəni hər paylaşım informasiya axınının bir parçasıdır və bunlar cəmiyyətin kollektiv yaddaşını yaradır. Ancaq bu media axınına yalnız reaksiya vermək yetərli deyil, biz onun formalaşmasında da fəal iştirak etməliyik. Çünki hər bir izlənilən video, oxunan məqalə və yazılan status bir növ ətraf mühitə toxum səpir. Gələcəkdə bu toxumların hansı "media meyvələri" verəcəyi, gələcək cəmiyyəti necə formalaşdıracağı isə hələ məlum deyil.

Ancaq biz sosial məsuliyyət və ekoloji problemləri gündəmə gətirərək cəmiyyətin media mühitini dəyişdirə bilərik. Bildiyimiz kimi, iqlim dəyişikliyinə qarşı mübarizə hazırda ən aktual mövzulardandır və bu məsələdə media güclü bir vasitə kimi istifadə olunur. Media vasitəsilə geniş auditoriyaya çatdırılan məlumatlar insanları "yaşıl" düşünməyə təşviq edir. Həmçinin mediada yayımlanan məzmunlar insanlarda iqlim dəyişikliyi mövzusunda sosial məsuliyyət hissi yaradır, onları BMT-nin İqlim Dəyişikliyi Konfransı – COP (Tərəflər Konfransı) kimi tədbirlər haqqında da məlumatlandırır. Bu tədbirlərin media vasitəsilə geniş işıqlandırılması hökumətlər və vətəndaşlar arasında iqlim məsələləri naminə birlik yaratmağa kömək edir.

Son araşdırmalardan bəlli olub ki, yalan və manipulyativ xəbərlər insanların, təxminən, 60 faizinin medianı izləmə vərdişlərinə mənfi təsir göstərir. Bu cür problemlərdən yayınmaq və cəmiyyətdə daha sağlam bir media mühiti yaratmaq məqsədilə BBC-nin "Reality Check" layihəsi kimi təşəbbüslər həyata keçirilir. Bu layihə üçün BBC tərəfindən xüsusi bir veb-sayt bölməsi yaradılmışdır və buradan izləyicilər doğruluğu yoxlanmış məlumatlara daxil ola bilirlər. Bu layihədə jurnalistlər, ekspertlər və fakt yoxlama üzrə mütəxəssislərdən ibarət işçi qrup çalışır. Onlar yayılan xəbərləri, sosial mediadakı iddiaları, siyasətçilərin bəyanatlarını və geniş kütləyə təqdim edilən xəbərləri araşdırır, faktları yoxlayır, mənbələri analiz edir və nəticələri oxucular üçün sadə, dəqiq formatda təqdim edirlər. Hər bir analiz nəticəsində təqdim olunan informasiyadakı fakt və iddianın doğru, yanlış və ya qismən doğru olduğu qeyd olunur.

Almaniyada həyata keçirilən "Medienkompetenz" ("Media Savadlılığı") layihəsi cəmiyyətdə mediadan daha məsuliyyətli istifadə etmək məqsədi daşıyır. Bu layihə, xüsusilə, gənclər və məktəb şagirdləri üçün nəzərdə tutulsa da, bütün yaş qrupları üçün faydalı hesab olunur. Layihə çərçivəsində keçirilən təlim və seminarların əsas məqsədi insanların mediadan səmərəli şəkildə istifadə etməsini təmin etməkdir. "Medienkompetenz" təşəbbüsü çağdaş media vasitələrinin necə işlədiyini qavramağa, xəbər mənbələrinin doğruluğunu düzgün qiymətləndirməyə, eyni zamanda, media məzmununun necə yarandığını anlamağa və məlumat axını ilə əlaqədar kritik düşünmə bacarıqlarını inkişaf etdirməyə kömək edir. Bu kimi layihələr mediada yalnız passiv izləyici yığmağı deyil, həm də sosial məsuliyyət anlayışını genişləndirməyi hədəfləyir.

Beləliklə, Azərbaycan media ekosistemi rəqəmsal dövrə xas olan bir sıra problemlərlə üz-üzədir. Eyni zamanda, rəqəmsallaşma ölkəmizdə medianın inkişafı üçün də yeni imkanlar açır. Bütövlükdə, Azərbaycanın media ekosistemi rəqəmsal dünyanın şərtlərinə fəal uyğunlaşma prosesindədir, ənənəvi yayım formaları, yeni texnologiyaların potensialı və milli tənzimləmə mühitinin xüsusiyyətləri arasında tarazlıq tapmağa çalışır. Sağlam media ekosistemi cəmiyyətin inkişafında və sosial məsuliyyətin gücləndirilməsində həlledici rol oynayır.

*Xədicə ƏLİYEVA,*
*Azərbaycan Dillər Universitetinin*
*IV kurs tələbəsi*

## SOSİAL YENİLİKLƏR

### "e-bülleten" sisteminə keçid

**Nazirlər Kabinetinin müvafiq Qərarına əsasən tətbiq edilən innovativ yenilik olaraq, mayın 1-dən Səhiyyə Nazirliyinin "Vahid Səhiyyə İnformasiya Sistemi" vasitəsilə "Sığortaolunanlar üçün xəstəlik vərəqələri" qurumun və TƏBİB-in tabeliyində fəaliyyət göstərən tibb müəssisələrində elektron sənəd formasında hazırlanacaq.**




Bundan sonra tibb müəssisələri tərəfindən e-imza ilə təsdiq edilərək, işəgötürənə və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fonduna (DSMF) e-qaydada göndəriləcək.

Həmin e-sənəd DSMF tərəfindən işçiyə müvəqqəti əmək qabiliyyətinin itirilməsinə və hamiləliyə, doğuma görə müavinətlərin təyinatı üçün əsas olacaq.

Bu məqsədlə Səhiyyə Nazirliyi tərəfindən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birgə elektron xəstəlik vərəqələrinə dair məlumatlar vahid e-reyestrdə birləşdirilib. Nəticədə işəgötürənlər bu e-bülletenləri Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müvafiq informasiya sistemindən, tibb işçiləri isə "e-Səhiyyə" portalı və mobil tətbiqindən asan və rahat şəkildə əldə edə biləcək.

"E-bülleten" sisteminə keçid qeyd edilən sahədə kağız daşıyıcıların saxlanması və emalı ilə bağlı artıq iş yükünün aradan qaldırılması və vaxt itkisinin minimallaşdırılmasına, xidmətlərin çevikliyinə və keyfiyyətinin, şəffaflığının artırılmasına şərat yaradır.

### 8,7 min uşağa bərpa xidmətləri göstərilib




**Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin uşaq reabilitasiya mərkəzləri tərəfindən cari ilin birinci rübündə əlilliyi olan 8 min 700 uşağa bərpa xidmətləri göstərilib.**

Onlardan 5 min 900 nəfəri ambulator, 431 nəfəri stasionar, digərləri icma əsaslı, onlayn və səyyar xidmətlərə cəlb olunub.

Bu kateqoriyadan olan uşaqlar agentliyin paytaxtda yerləşən 1 və 2 saylı, habelə Qəbələ və Şəmkir rayonlarındakı Uşaq Reabilitasiya Mərkəzlərində bərpa xidmətləri ilə təmin edilirlər.

### 3 beynəlxalq mükafat

**Dövlət Əmək Müfəttişliyi Xidməti "The International 100 Awards 2025" beynəlxalq müsabiqəsində 3 nominasiya üzrə uğur qazanıb.**

Böyük Britaniyada yerləşən "The International 100 Magazine" beynəlxalq qurumunun təşkil etdiyi müsabiqədə xidmətin fəaliyyət istiqamətləri üzrə aparılan islahatlar, "Əmək və Məşğulluq" altsistemi, maarifləndirmə tədbirləri beynəlxalq ekspertlər tərəfindən yüksək qiymət alıb.

Beləliklə, DƏMX "Korporativ Sosial Məsuliyyət", "İlin Əmək Müfəttişliyi Xidməti" və "Rəqəmsal İnnovasiya" nominasiyaları üzrə mükafatlara layiq görülüb və adı müsabiqənin qalibləri sırasına daxil edilib.

Müsabiqədə DƏMX ilə yanaşı, Avropa, Amerika, Afrika və Asiya qitələrindən, eləcə də Sakit okean hövzəsi regionundan 500-dən çox qurum iştirak edib.

*Zərifə HÜSEYNOVA*
*XQ*



Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 80 (30774) 23 aprel 2025-ci il, çərşənbə

İdman

## Snayperlərimiz Dünya kubokunda



**Almaniyanın Sul şəhərində keçiriləcək atıcılıq üzrə gənclər arasında Dünya kubokunda iştirak edəcək Azərbaycan atıcıları müəyyənləşib.**

Mayın 19–27-də keçiriləcək yarışda 2 snayperimiz Leyli Əliyeva və Vladislav Kalmıkov tapança ilə 10 metr məsafədən atəş açma yarışlarında iştirak edəcəklər. Onlar həm fərdi, həm də qarışıq komandaların mübarizəsinə qatılacaqlar. Yarışda 58 ölkədən 645 atıcı iştirak edəcək.

## AFFA-da maliyyə menecerlərinin seminarı



**AFFA-nın inzibati binasında Klubların Lisenziyalaşdırılması Departamenti Misli Premyer Liqasında çıxış edən klubların maliyyə menecerlərinin iştirakı ilə UEFA-nın İT Tool proqramına maliyyə məlumatlarının daxil edilməsinə dair seminar təşkil edib.**

Seminarda klubların maliyyə dayanıqlığı, UEFA-nın Klubların Lisenziyalaşdırılması və Maliyyə Dayanıqlığı üzrə Qaydaları müzakirə olunub. Eyni zamanda, növbəti lisenziyalaşdırma mövsümündən etibarən maliyyə meyarlarına ediləcək dəyişikliklər haqda seminar iştirakçılarına məlumat verilib.

Seminarın sonunda klub nümayəndələri 2024-cü maliyyə ilinə aid müvafiq məlumatları qeyd olunmuş proqrama daxil ediblər.

***L.QURBANOVA***
***XQ***

Əliağa Şıxlinski – 160

# Artilleriya generalı

**Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında Azərbaycanın ilk generallarından biri, misilsiz istedad, mərdlik və yüksək qabiliyyət timsalı olmuş Əliağa Şıxlinskinin həyat və fəaliyyətindən, Azərbaycanın qəhrəmanlıq tarixinə qızıl hərflərlə yazılan ömür yolundan bəhs edən “Artilleriya generalı – Əliağa Şıxlinski – 160” adlı icmal və videomaterial hazırlanıb.**

Kitabxanadan XQ-yə bildirilib ki, saytda yerləşdirilən materiallarda Əhməd Qurbanoğlunun “Artilleriya allahı” məqaləsində “Şıxlinski soyadı haradan qaynaqlanır?”, “Port-Arturda çəkdiyiniz yetər”, “Şıxlinski üçbucağı”, “Şıxlinski formulu” və fransız polkovnikin dedikləri”, “Ordu xalqın istinadgahıdır” kimi başlıqlar altında Əliağa Şıxlinskinin həyat və fəaliyyətinə işıq salınır, görkəmli generalın parlaq artilleriya bilicisi, yaxşı təşkilatçı, bacarıqlı müəllim olması diqqətə çatdırılır.

Materiallarda görkəmli şəxsiyyətlərin general haqqında söylədikləri dəyərli fikirlər, rəsmi sənədlərin tam mətni, Əliağa Şıxlinskinin artilleriya sənətinin inkişafına verdiyi töhfələr, layiq görüldüyü orden və medallar haqqında məlumatlar da təqdim edilir.

***XQ***




YURD MƏNZƏRƏLƏRİ

# Göy yaylaqlar belinə qalx!..



**Dünyaya gələn hər kəs öz yerinə gəlir. Gedəndə də öz yerini boş qoyub gedir. Kəndimizdə çoxlarının Ağ atlı oğlan kimi tanıdığı bir Telman vardı. Öz ömrünü həyat eşqiylə yaşardı. Bir gün də öz yerini boş qoyub köçdü bu dünyadan. Ona həyat eşqi aşılayan, Tanrı töhfəsi kimi ilahidən gələn, yanğısı ilə könülləri göynədən məlahətli səsi, bir də vəfalı atı idi. Onun zəngulə-zəngulə dağlarımızda əks-səda verən o səsi qəlbimdə həsrətdən yuva qurub. Uşaq yaddaşımı qanadan, yanıqlı “Cəlili” havası üstündə oxuyurdu:**

*Yaxın sirdaş kimi, əziz dost kimi,*
*Qollarını boynuma saldı bu yerlər.*
*Mənim bir nisgilim vardı əzəldən,*
*Oxşayıb könlümü aldı bu yerlər.*

*...Kim minir Qazağın Dilboz atını,*
*Götürür toyların şal- xalatını.*
*Şeirin, sənətin mükafatını*
*Hər zaman, hər yerdə aldı bu yerlər...*

Bu şeir onun səsinin boyuna biçilmişdi elə bil... Səsinin vurğunu olanların xahişi ilə, bir də təklənəndə oxuyardı. Səsi dağların sinəsini ilğım kimi bürüyürdü:

*Vaxt olub ki, bu yerləri dolanıb,*
*Bir ov üçün min sorağa gəlmişəm.*
*Düşüb arxasınca, başı alovlu*
*Boz arandan göy yaylağa gəlmişəm.*

*Nə çəkmədim hələ cavan yaşımda?*
*Oda düşdüm min bir sevda başımda.*
*Xatirəm var torpağında, daşında,*
*Mənə tanış bir oylağa gəlmişəm.*

Onun səsi qulağıma gələndə xəyalım dağlar dolanır. Səsinin zəngulələri zirvəli dağlarda qərar tutmuşdu. Dağları, dərələri, çölləri dilə gətirirdi. Ruhları yerindən oynadan ifaları atlını yolundan edirdi.

Əlim qələm, dilim söz tutanda bildim ki, onun içdən duyub oxuduğu şeirlər, özünün də bir dəfə görüb tanıdığı sevimli şairimiz Osman Sarıvəllinindir. Mən hələ körpə uşaq olanda Osman Sarıvəlli bizim Faxralı kəndində qonaq olub. O zamandan şairin bir çox şeirləri kəndimizdə saz-söz sevdalılarının–aşıqların, “dəftər-qələm tanımayan” urvatlı nənələrin, babaların dilinin əzbərinə dönmüşdü.

Ağ atlı oğlanın ifasını dinləyib səsinə salavat çəkən yaylaqlar yaraşığı nənələr, babalar görmüşdüm kəndimizdə. Onlara elə gəlirdi ki, şair bu şeirləri bizim yerlərin, allı-güllü yaylaqlarının, and yerimiz olan dağlarının eşqinə yazıb. Doğrudan da, Osman Sarıvəllinin qoşma dili necə də qənirsizdir. Qoşmaları anadilli şeirimizin çox gözəl nümunələridir. Onun şeirləri üstündə Telmanın səsi ilə bağlı illərin arxasından keçib gələn bir xatirə də yaddaşımda yuva qurub.

...Günlərlə, həftələrlə başsız biçənəklərdə yeyib sinirən, boynu qantarğa, ağzı yüyən görməyən Ağ at meşələrin dərinliyində itmişdi. Hamı Ağ atın qurda-quşa yem olduğunu düşünürdü.

...Qübarlı bir payız gecəsində ulduzlar göyün yeddinci qatında bərq vururdu. Ay da göyün tən ortasında gün kimi nur saçırdı. “Qızılqaya” yaylağının səfalı qoynunda payız binəsinə köç etmişdik. Binə qonşularımız bizim dəyənin qənşərindəki ocağın başına cəm olub, onun Ağ atı soraqlayan yanıqlı səsinə heyranlıqla qulaq kəsilmişdi.

O səs İsgəndər quşları kimi dağları, daşları öz həzin nəğməsinə bələmişdi. Elə bil, ilahilər səsinə səs qatmışdı. Birdən sanki möcüzə baş verdi. Qarşı dağın o üzündən Ağ atın kişnərtisi eşidildi. Kişnərti yavaş- yavaş yaxınlıqda eşidilməyə başladı. Ceyran yerişli Ağ at dəyəmizin qənşərinə gəlib sahibinin səsinə sarı boylandı...

O səsin həsrətindən indi də könlüm sızlayanda gecələr yuxumda qantarğalı, yəhərli, yüyənli köhlənlər kişnəyir.

Sevinci bölüşməyə nə var ki? Hanı elə bir adam ki, həsrəti bölüşə bilsin?! İnsan ömrünün sonunadək həsrətdən gözdolusu, könüldolusu “kamını alanadək” yaşayır. Həsrət də könüllərin bir qismətidir. Dağın da dağ dərdi var. Həsrətində olduğum o səs, o yaylaqların mahnısı sanki dağların dərdini dilə gətirirdi.



***Həzi HƏSƏNLİ,***
***şair-publisist***

HAVA

# Yağmursuz və dumanlı...



Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, aprelin 23-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.

Lakin gecə və axşam bəzi yerlərdə qısamüddətli yağış yağacağı ehtimalı var. Şimal-şərq küləyi əsəcək. Gecə 11-15°, gündüz 20-25° isti olacaq. Atmosfer təzyiqi 761 mm civə sütunundan 758 mm civə sütununa enəcək, nisbi rütubət gecə 70-75, gündüz 50-55 faiz olacaq.

Azərbaycanın rayonlarında gündüz əsasən yağmursuz keçəcək. Lakin gecə və axşam bəzi yerlərdə arabir yağıntılı olacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısa müddətə intensivləşəcəyi, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 10-15°, gündüz 24-29°, dağlarda gecə 3-8°, gündüz 15-20° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

Sağlamlıq

# “Rəngli” pəhriz – üzdə qoyur iz



**ABŞ-da yaşayan qadın sosial media hesabında pəhrizə keçdikdən sonra üzünün bir neçə gün ərzində necə narıncıya çevrildiyini paylaşıb. Əvvəlcə sarılığa tutulduğunu düşünən qadın tez həkimə müraciət edib.**

Müayinədən sonra bunun xəstəlik olmadığını öyrənib. Həkimlər ona bədənində çoxlu beta-karotin yığıldığını, buna görə də üzünün rənginin narıncılaşdığını bildiriblər.

Tibbdə karotinemiya kimi tanınan bu vəziyyət yerkökü və buna bənzər tərəvəzlərin həddindən artıq yeyilməsi nəticəsində yaranır. Həkimlər bildiriblər ki, bu halda müalicə tətbiq edilmir. Yerkökü və digər rəngli tərəvəzlərin istifadəsini dayandırmaq dərinin rənginin əvvəlki vəziyyətinə qayıtmasına kömək edir.

Belə vəziyyət tibbi baxımdan sağlamlıq üçün qorxulu deyil, yalnız estetik narahatlıq yaradır.

***Z.HÜSEYNLİ***
***XQ***

# ADPU-nun ağacəkmə aksiyası

**Azərbaycan Dövlət Pedaqoji Universiteti (ADPU) ilə Elm və Təhsil Nazirliyinin Dendrologiya İnstitutu arasında imzalanmış əməkdaşlıq memorandumuna əsasən, Saray qəsəbəsində yerləşən təcrübə sahəsində ağacəkmə aksiyası keçirilib. Bu barədə mətbuata universitetdən məlumat verilib.**



Ağacəkmə aksiyasında ADPU-nun rektoru, professor Cəfər Cəfərov, Dendrologiya İnstitutunun baş direktoru vəzifəsini icra edən, dosent Minarə Həsənova və başqaları iştirak ediblər.

***XQ***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3432
SİFARİŞ 750
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI
Çapa imzalanmışdır 00:00